**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 10 (6103) 14 mart 2025-ci il | Qiyməti 40 qəpik

# "Bəndlərin əksər hissəsi razılaşdırılıb"

## *İlham Əliyev sülh müqaviləsindən danışdı*




Bax:səh-2

## Putin Sahibə Qafarovanı "Dostluq" ordeni ilə təltif edib



**Rusiya Prezidenti Vladimir Putin Putin Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovanı "Dostluq" ordeni ilə təltif edib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Putin Sərəncam imzalayıb.

Sərəncama əsasən, Sahibə Qafarova Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsində göstərdiyi xidmətlərinə görə, "Dostluq" ordeni ilə təltif olunub.

## *Hikmət Hacıyev Ermənistanı Konstitusiyasını dəyişməyə çağırdı*

**Ermənistan regionda sülh istəyirsə, Bakıda davam edən məhkəmə prosesi ilə yaxından əməkdaşlıq etməlidir.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, eyni zamanda, Ermənistanın Azərbaycana vurduğu ziyanın qiymətləndirilməsi aparılıb: "Regionda tam əhatəli sülh təmin olunması üçün bu da bir şərtdir. Minsk Qrupuna bu gün heç bir ehtiyac yoxdur. Kimsə Minsk Qrupunu dirçəltmək istəyirsə, bu utopiyadır. Ermənistan Minsk Qrupunun saxlanmasına çalışır. Bu kimi hallar, xüsusilə Ermənistanın Konstitusiyası ilə bağlı hallar aradan qaldırılandan sonra regionda sülh gündəliyi üçün daha yaxşı şərtlər formalaşacaq".

*Aqil ABBAS*

## ÇAYXANALARDAN YIĞILAN FUTBOLÇULAR

Bax:səh-3

## Altıgünlük iş həftəsində çalışanlar bu ay neçə gün tətil edəcək?



**Xəbər verdiyimiz kimi, Nazirlər Kabinetinin Qərarına əsasən, 2025-ci iln 27 və 28 mart iş günləri ilə müvafiq olaraq 10 mart və 1 aprel günlərinin yerləri dəyişdirilib.**

Adalet.az-ın məlumatına görə, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə beşgünlük iş həftəsində 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30 və 31 mart tarixləri istirahət günləri, 10 mart və 1 aprel tarixləri isə iş günləri olacaq.

Bəs altıgünlük iş həftəsində çalışanlar üçün iş və istirahət günləri hansı qaydada tənzimlənəcək?

Altıgünlük iş həftəsində mart ayında Novruz bayramı və Ramazan bayramı ərəfəsində istirahət günləri aşağıdakı kimi olacaq:

Novruz bayramı: 20, 21, 22, 23, 24, 25 mart tarixləri (6 gün);

Ramazan bayramı: 30, 31 mart və 1 aprel tarixləri (3 gün).

## DİN vətəndaşlara müraciət edib

**Daxili İşlər Nazirliyi (DİN) vətəndaşlara müraciət edib.**

**Adalet.az xəbər verir ki, müraciətdə vətəndaşlara maksimum ehtiyatlı davranmaq, mina, partla-**




**mamış hərbi sursat və ya naməlum əşyalara toxunmamaq tövsiyə edilir.**

**"Təhlükəli sahələrə daxil olmayın, atılıb qalmış sursatlara toxunmayın, həyatınızı minaya qurban verməyin.**

**Heç vaxt mina, partlamamış hərbi sursat və ya naməlum əşyalara toxunmayın, əlinizə götürməyin.**

**Onlara müdaxilə etməyə çalışmayın", - DİN-in müraciətində qeyd olunur.**

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## ZELENSKİ UKRAYNANI ALDIĞI QİYMƏTDƏN DƏ AŞAĞI SATIR



**Zelenski Ağ Evdə Trampla görüşəndən sonra Böyük Britaniyaya, ordan da Vətəninə qalib kimi gəldi: "Gördünüz də Trampa nə cavablar verdim".**

**İki nəfər dalaşırmış. Biri o birisini yerə yıxıb həm döyürmüş, həm də ağlayırmış. Qıraqdan baxanlar deyir:**

**- Ə, qaqa, həm döyürsən, həm ağlayırsan.**

**- Bunun ayağı sürüşüb yıxılıb ey, qalxandan sonra əhədimi kəsəcək.**

**İndi Zelenskinin də Trampa verdiyi cavablar həmin ağlayan adam kimidir.**

Bax:səh-3

## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı kafedə oturub özü üçün bala-bala yüz-yüz vurur. Birdən yolnan dəfn mərasimi keçir. Vəli ofisanta:

**- Qağa bu rəhmətə gedən kim olub?**

Ofisant:

**- Postayyanı yeyib-içən, sağa-sola gəzən bir kişi olub.**

Aradan 20 dəqiqə keçir, yolnan daha bir dəfn mərasimi keçir.



Vəli:

**- Qağa, bəs bu rəhmətlik kim olub?**

Ofisant:

**- Bu ömründə işki içməyib, ağıllı, ailəcanlı bir kişi olub?**

Vəli, bir anlıq fikirə gedir və ofisanta:

**- Ə qağa, araqdan süz gəlsin, cəmisi iyirmi dəqiqə fərq eliyir.**

## Prezident XII Qlobal Bakı Forumunun açılış mərasimində



**Martın 13-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu işə başlayıb.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində çıxış edib.

## "Bəndlərin əksər hissəsi razılaşdırılıb"

### *İlham Əliyev sülh müqaviləsindən danışdı*

**Xocalı soyqırımında 613 insan - 100-dən artıq qadın, o cümlədən 60 uşaq qətlə yetirilmişdir. Lakin biz gələcəyə baxmalıyıq.**

Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında söyləyib. "Biz Cənubi Qafqazda sülh qurmalıyıq", - deyən dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan sülh prosesinə bağlıdır və əslində, həmin sülh müqaviləsinin (Ermənistana təqdim olunan - red.) müəllifidir.

Bildirib ki, sülh müqaviləsi Ermənistanla Azərbaycan arasında müzakirə edilir və demək olar bəndlərin artıq əksər hissəsi razılaşdırılıb.

## "İşğal illərini yaddan çıxarmayacağıq"

**Ermənistan-Azərbaycan prosesinə gəldikdə, biz işğal illərini yaddan çıxara bilmərik və çıxarmayacağıq.**

Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bildirib. "Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri və Ermənistanın təcavüzünün məhz bizə verdiyi ziyanı bilirik. Biz azad olunmuş ərazilərimizdə görürük ki, barbarlığın səviyyəsi nə yerdədir. Bütün şəhərlər, kəndlər yerlə-yeksan olunub və onlar bizim kəndlərimizə, şəhərlərimizə, bizim dinimizə və tarixi irsimizə qarşı bilərəkdən belə hərəkətlər etmişlər. 65 məscidi dağıtmışdılar", - deyə dövlətimizin başçısı əlavə edib.

## "Torpaqlarımızı güc vasitəsilə azad etməsəydik, növbəti 27 il də belə qalacaqdı"

**Biz beynəlxalq hüquq əsasında öz ləyaqətimiz üçün mübarizə apardıq. BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri 27 il kağız üzərində qaldı. Əgər biz öz torpaqlarımızı güc vasitəsilə azad etməsəydik, növbəti 27 il də belə qalacaqdı.**

Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında bildirib. Dövlətimizin başçısı vurğulayıb ki, bəzən sülhə nail olmaq, ədaləti bərpa etmək üçün gücdən istifadə etməlisiniz. "Biz görürük ki, bu gün Avropa İttifaqı daha güclü hərbi potensial qurmaq üçün siyasətini necə dəyişir. Biz görürük ki, bəzi ölkələr öz resurslarını hərbi potensialının, infrastrukturunun gücləndirilməsi üçün sərf edir. Biz bunu ən azı 20 ildir edirik - 2005-ci ildən etibarən.

Həmin vaxtdan etibarən güclü ordu yaratdıq. O ordu əraziləri azad etdi, separatçılığa son qoydu və beləliklə, ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olunub. Bu, həm də Azərbaycan xalqının güclü iradəsinin təzahürüdür, o cümlədən bu, beynəlxalq ədaləti nümayiş etdirir", - deyə Prezident əlavə edib.

## Sahibə Qafarova Gürcüstan prezidenti ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova Gürcüstana rəsmi səfəri çərçivəsində Prezident Mixeil Kavelaşvili ilə görüşüb.**

Adalet.az xəbər verir ki, Gürcüstan prezidenti bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə dost ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin müxtəlif aspektləri haqqında fikir mübadiləsi



aparılıb, möhkəm, tarixi əsaslara malik olan münasibətlərin dinamik inkişafından razılıq ifadə olunub.

Göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin sədri Sahibə Qafarova, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstan Prezidenti Mixeil Kavelaşviliyə çatdırıb.

Gürcüstan Prezidenti səmimi salamlarına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirərək, onun da salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş edib.

Ölkələr arasında münasibətlərin inkişafında parlamentlərin xüsusi rolu qeyd olunaraq, iki ölkənin qanunvericilik orqanları arasında əlaqələrin ölkələrimiz arasında münasibətlərin ruhuna uyğun olaraq genişlənməsindən məmnunluq ifadə edilib. Spiker Sahibə Qafarova dünən iki ölkənin parlamentləri arasında imzalanan əməkdaşlıq memorandumunun əhəmiyyətini qeyd edərək, bu sənədin əlaqələrimizin daha da genişlənməsinə töhfə verəcəyinə inamını ifadə edib. Söhbət zamanı beynəlxalq və regional formatda uğurlu əməkdaşlıq məsələlərinə xüsusi diqqət yetirilib. Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ölkəsinə göstərilən dəstəyə görə Azərbaycana öz minnətdarlığını bildirib.

Görüşdə, həmçinin ölkələrimizin üçtərəfli formatda da uğurlu əməkdaşlıq əlaqələrinin olduğu diqqətə çatdırılaraq, Azərbaycan-Türkiyə-Gürcüstan üçtərəfli əməkdaşlıq formatının həm ölkələrimizə, həm də regiona qazandırdığı faydalar ifadə edilib.

Söhbət zamanı, həmçinin regionda vəziyyət barədə də fikir mübadiləsi aparılıb. Tərəflər regionda sülh və sabitliyin təmin olunmasının əhəmiyyətini vurğulayıblar.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

**Nicat Novruzoğlu**

## Bu təqaüdlər artırıldı



**"Minimum əmək haqqı artımından sonra bir sıra müavinət və təqaüdlərdə artımlar qeydə alınmaqdadır. Belə ki, bu ildən artımların reallaşdığı təqaüdlərdən biri də peşə hazırlığına cəlb olunmuş şəxslərə ödənilən vəsaitlərdir". Adalet.az xəbər verir ki, bu sözləri iqtisadçı deputat Vüqar Bayramov deyib.**

O bildirib ki, "Məşğulluq haqqında" Qanuna əsasən, Azərbaycanda peşə hazırlığına cəlb olunmuş şəxslərə minimum əməkhaqqının 50 faizi məbləğində təqaüd verilir:

"2025-ci ilin yanvar ayından minimum əmək haqqı 325 manatdan 400 manatadək yüksəldiyindən bu təqaüdün məbləği də artırılıb. Belə ki, əvvəllər həmin vətəndaşlarımıza ödənilən aylıq məbləğ 162.5 manat idisə, indi həmin təqaud artırılaraq 200 manat olub. Bu o deməkdir, peşə hazırlığına cəlb olunmuş şəxslərə verilən təqaüd məbləği 14 faiz artırılıb.

Digər bir sıra təqaüdlərdə artımlar ilə bağlı təkliflər hazırda Nazirlər Kabineti tərəfindən hazırlanır. Təkliflərin bu ayın ikinci yarısında dövlət başçısına təqdim edilməsi gözlənilir. Bu o deməkdir, yaxın zamanlarda bir sıra digər müavinət və təqaüdlərdə də artımlar olacaq".

**Nicat Novruzoğlu**

*Rüstəm Hacıyev*



## Ukrayna atəşi dayandırır, bəs Rusiya?

*ABŞ dövlət katibi Marko Rubio bəyan edib ki, Ukrayna ABŞ-ın atəşi dayandırmaq təklifiylə razılaşıb. "Bu gün biz təklif etdik, Ukrayna münaqişəyə son qoyulması naminə, uzun müddətli, dayanıqlı və onların maraqlarına, təhlükəsizliyinə, millət kimi inkişaf etmələrinə cavab verən, atəşin dayandırılması ilə bağlı razılaşma bağlamağa və tez bir zamanda danışıqlara başlamağa hazır olduğunu bildirdi"-deyə Dövlət katibi bildirib.*

*Ukrayna prezidenti Volodimir Zelenski, danışıqları şərh edərək bildirib ki, "Bu görüşdə bizim üç təklifimiz var idi. Səmada sakitlik- raketlər, mərmilər, uzaq məsafəli dronlar, dənizdə sakitlik və bütün vəziyyətlər üzrə inamın təmin olunması. Diplomatiya davam edir, ən əsası əsirlər azad edilir. Amerika tərəfi bizim arqumentləri başa düşür, bizim təkliflərimizi anlayışla qarşılayır. Mən, bizim komandalarımızın konstruktiv danışıqlar aparması üçün şərait yaradan prezident Trampa təşəkkür etmək istəyirəm... Biz bu addımı atmağa hazırıq. Birləşmiş Ştatlar Rusiyanı da belə bir addım atmağa əmin etməlidir. Əgər ruslar razılaşarlarsa, həmin andan sakitlik hökm sürəcək".*

*Bax əsl problem elə bu "əgər"dədir. Düşünürük ki, Rusiya prezidenti Vladimir Putin, çətin ki, ona sərf etməyən şərtlərlə razılaşsın. Çox güman ki, Rusiya tərəfi özünü elə aparacaq ki, guya prinsipcə atəşin dayandırılmasına və danışıqlara başlanmasına Moskva da hazırdır, lakin çix güman ki, yenə də legitim saymadıqları "Zelenskiylə danışıqlar masasna oturmayacağını" bəhanə edərək, atəşin dayandırılmasından imtina edəcək.*

*Hər bir halda, yəqin ki, bu gün və ya sabah bütün məsələlərə aydınlıq gətiriləcək. Ukraynanın birinci mərhələdə 30 günlük atəşkəsin elan edilməsinə razılq verdikdən sonra, Donald Tramp tez bir zamanda Rusiya tərəfi ilə görüşəcəyini bəyan edib.*

*Dövlət katibi Marko Rubio da, atəşin dayandırılması təklifinə Rusiya tərəfinin də, tezliklə "hə" deyəcəyinə ümid edir.*

*Ümid etmək yaxşı şeydir, təki olsun. Amma bəzən "ümidi əkirsən" bitmir. Xüsusiylə də, qarşı tərəfdə, imperiyanın bərpası iddiaları ilə yaşayan Rusiyadırsa...*

*Rusiya-Ukrayna münaqişəsiylə bağlı yüzlərlə fikir səsləndirilir, yüzlərlə proqnozlar verilir. Təbii ki, verilən proqnozların, söylənilən fikirlərin hər biri diqqətə layiqdir. Vəziyyət o qədər sürətlə inkişaf edir ki...*

*Ukraynada isə, hələlik müharibə şiddətlə davam edir. Qarşılıqlı hava hücumları, raket, artekeriya, dron zərbələri. Şəhərlər, kəndlər dağlır, yüzlərlə insan hegemon dövlətlərin maraqlarına qurban gedir...*

*P.S. Bu arada ABŞ prezidenti Donald Tramp Ukrayna prezidenti Volodimir Zelenskini yenidən Ağ Evə dəvət etdiyini bəyan edib.*

## *Deputat: "Ermənistan ictimaiyyəti və hakimiyyəti sülhə hazır deyil"*



**"Ermənistan ictimaiyyəti və hakimiyyəti bu gün sülhə hazır deyil. Gec-tez bu sülh olmalıdır. Biz də qalib tərəf kimi daha çox ictimaiyyəti, o cümlədən erməni ictimaiyyətini bu istiqamətə hədəfləməliyik".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin keçirdiyi ictimai dinləmədə parlamentin Əmək və sosial siyasət komitəsinin sədri, deputat Musa Quliyev deyib.

"Ermənistan ictimaiyyətinə çatdırmalıyıq ki, gəlib sizin ərazi bütövlüyünüzə və s. müdaxiləmiz yoxdur. Biz oraya qayıtmaq, lazımdırsa orada yaşamaq, fəaliyyət göstərmək və yaxud ən azı dədə-baba yurdlarımızı, məscidlərimizi, qəbirlərimizi ziyarət, bərpa etmək və s. ilkin hədəflərimizdir", - deyə komitə sədri bildirib.

## *İcma sədri: "Qərbi Azərbaycana dinc yolla qayıtmalıyıq"*



**"Tarixi torpaqlarımız olan Qərbi Azərbaycana dinc yolla qayıtmalıyıq".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin keçirdiyi ictimai dinləmədə Qərbi Azərbaycan icmasının İdarə heyətinin sədri, deputat Əziz Ələkbərli deyib. "İndi artıq arsenalımızda formalaşmaqda olan yox, kifayət qədər formalaşmış, həm ölkə daxilində, həm də xaricdə lazımi qədər fəaliyyəti olan QHT ordusu durur. Yetər ki, o ordu əsas hədəfə yönəldilsin", - deyə icma sədri bildirib.

**Nicat**

# EHH, HABİL QURBANOV...

*Bu da 70! Bu 70 ilin 30 ilini yaşamadıq ki. Hər gün çərlədik, öldük, dirildik. Qarabağ dərdi, Vətən dərdi...*

*Amma min şükür, 30 il çərləsək də, axırı yaxşı oldu. Qələbəmizi gördük, Şuşanı, Xankəndini gördük, Ağdamı gördük. Adamlar dilxor olurdu ki, Ağdamda bir dənə daş daş üstə qalmayıb, yazıçı Vahid Qazinin yazdığı kimi, "Ruhlar şəhəri"di. Amma mən də həmişə deyirdim ki, evdi də, dağıdıblar təzəsini tikəcəyik, torpağı ki daşıyıb aparmayıblar. Özü də hər daşını sevinc göz yaşlarıyla qoyacağıq. Bizim sevinc göz yaşlarımızdan daşlar da çiçək açacaq.*

*Üç-dörd gün bundan qabaq getmişdim. Elə bir şəhər tikirlər ki, bəlkə də Azərbaycanda o gözəllikdə şəhər olmayacaq.*

*Professor, heç vaxt yadımdan çıxmaz, Ağdamın işğalından bir gün sonra sənin dostlarla bir yerdə camaata ərzaq aparmağımız. O dəhşətli bir mənzərə idi. İki gün idi camaat yolların kənarında, işıq yox, su yox, ac-yalavac. Mənim payıma da çörək düşmüşdü - beş min çörək. Maşını saxlayıb çörəyi paylamadım, elə əsgərlərlə maşının arxasına çıxıb gedə-gedə çörəkləri yolun kənarındakı camaata atırdıq. Ağdam camaatına ey, ömür boyu kef içində yaşamış Ağdam camaatına. Çörəyi havada tuturdular. Mən həyatımda bundan böyük faciə görməmişəm. İndi də yadıma düşəndə ağlayıram. Elə yazını yazanda da özümü saxlaya bilmədim. Allah bir də millətimizə belə günlər göstərməsin.*

*Müharibə vaxtı da, işğaldan sonra da səninlə, dostlarımla tez-tez gedirdik Ağdama, təbii ki, dolu maşınlarla.*

*Yadımdadı, bir dəfə girdik bir bahalı mağazaya. Bir kostyumu seçdin, tufli, köynək, qalstuk aldın. Səhər Ağdama gedəsiydik.*

*Dedim ki, Qurbanov, bunları neyləyirsən?*

*- Səyavuş müəllimə hədiyyə aparıram. Qoy Bakıya iclaslara çağırılanda*



*bu bahalı kostyumu geyinsin, deməsinlər Ağdam yoxdu deyin, başçı belə kasıb geyinib.*

*Onda hələ Qərvənd işğal olunmamışdı, rayon icra hakimiyyəti bu kənddə yerləşirdi. Sənin aldığın geyim-gecimi görən Səyavuş müəllim çaşdı, bilmədi nə desin.*

*Sən isə:*

*- Qardaş, iclasa gedəndə bunu geyinərsən.*

*Tez-tez gedirdik. Adik Mehdiyev də komandir idi, qərargahı da Mahrızlıda. Hər gedəndə də əsgərlərimiz üçün təzə yorğan üzü, döşək üzü, balış üzü, odeyallar aparırdıq.*

*Yolda heç bir yeməkxanada saxlayıb çörək yemirdik. Məktəbdə oxuyanda pambığa gedənlər kimi yol azuqəmizi özümüzlə götürürdük, maşınların kapotu üstünə düzüb yeyirdik ki, vaxt itirməyək.*

*İndi o günlər arxada qalıb. Möhtərəm prezidentimiz Həzrət Əli qılıncı ilə Qordi düyününü kəsib atdı. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə də can sağlığı versin.*

*İndi sən də, mən də Ağdamı su yolu etmişik.*

*Atan Surxay Qurbanovun direktor işlədiyi 3 nömrəli məktəb bir az çəpəki tikilmişdi. Evimizə yaxın olduğundan hər dəfə gedəndə məktəbə gedib Surxay müəllimi yad edirdim. Məktəbin iki divarı qalmışdı. İndi Allaha şükür, 3 nömrəli məktəbi yenidən Surxay müəllimin adına layiq tikirlər.*

*Allah qoysa, Ağdama köçərsən, nəvələrin də babalarının məktəbində oxuyar. Hərçənd ki sən özün atanın məktəbində yox, 1 nömrəlidə oxumuşdun, Süleyman müəllimin məktəbində. Görmüsən də, Süleyman müəllimin məktəbini necə tikiblər?!*

*Ehh, Habil Qurbanov, gəldin çatdın 70-ə! Mən 70-i iki ildi başa vurmuşam.*

*Ürəyimdə bircə arzu qalıb, xanımımla da razılaşmışam, şəhərə ilk köç başlayanda köçəcəm Ağdama. Yarım qalan ömrümü doğma şəhərimizdə keçirəcəm.*

*Bunu sənə də arzulayıram.*

# ZELENSKİ UKRAYNANI ALDIĞI QİYMƏTDƏN DƏ AŞAĞI SATIR



Zelenski Ağ Evdə Trampla görüşəndən sonra Böyük Britaniyaya, ordan da Vətəninə qalib kimi gəldi: "Gördünüz də Trampa nə cavablar verdim".

İki nəfər dalaşırmış. Biri o birisini yerə yıxıb həm döyürmüş, həm də ağlayırmış. Qıraqdan baxanlar deyir:

- Ə, qaqa, həm döyürsən, həm ağlayırsan.

- Bunun ayağı sürüşüb yıxılıb ey, qalxandan sonra əhədimi kəsəcək.

İndi Zelenskinin də Trampa verdiyi cavablar həmin ağlayan adam kimidi.

Gələndən sonra başa düşdü ki, çox böyük səhv edib, həmin döyədöyə ağlayan oğlanın günündədi.

Amerikalılarla görüşmək üçün minnətçi saldı ki, nə deyirsiz razıyam, indi Səudiyyə Ərəbistanında yenidən ukraynalılarla amerikalılar görüşəcək.

Bildiyiniz kimi, Tramp Zelenskidən Ukraynanın yeraltı və yerüstü sərvətlərini almaq istəmişdi. Uzun illər bundan öncə qəzetdə rayonlardan birinin icra başçısının zarafatla dediyi, bəlkə də həqiqətən dediyi bir fikrini yazmışdım:

- Qardaş, rayonu otuz iki min əhalisi ilə bir yerdə aldığım qiymətə satıram. Bəlkə bir adam tapasan?!

Əhalinin sayına görə Prezident Aparatında həmin rayonu tapmışdılar, icra başçısını çağırıb nə demişdilər-deməmişdilər, and-aman eləmişdi ki, mən elə bir söz deməmişəm, Aqil Abbas özündən yazıb.

Aparatdan mənə də zəng etdilər, mən də day icra başçısını satmadım, dedim ki, Mirzə Cəlilsayağı yazmışam, rayon əhalisinin üst-üstə düşməyi də təsadüfdü.

İndi hadisələr göstərir ki, Zelenski Ukraynanın yeraltı, yerüstü sərvətini 30 milyon əhalisi ilə birlikdə aldığı qiymətdən də aşağı Trampa satacaq.

Zelenski yəqin dünyada yeganə yəhudidir ki, ticarətində zərər eləyir. Bu da belə.



*İllər öncə, yəni Sovet vaxtı Allahverdi Bağırov "Qarabağ"ın məşqçisi işləyəndə Bakıdan bir teleqram gəlir ki, respublika "Məhsul" idman cəmiyyəti rayonlararası yarış keçirir. Və məktubda qeyd edilir ki, bu oyunlar avqustun 5-i Bakıda indiki "Şəfa" stadionunda keçiriləcək, o vaxtkı adı yadımdan çıxıb. Və əgər yarışa komanda çıxartmasanız klubunuz cəzalanacaq.*

*Allahverdi qalır belə. Yay, bütün futbolçular ya Şuşada, ya Kəlbəcərdə, ya da Rusiyanın hansısa şəhərlərində həm gəzməyə, həm də alverə gediblər. Və həm də istəmir ki, komanda cəzalansın.*

*Gəlir Fazil müəllimin kinoteatrının arxasındakı çayxanaya. Baxır çoxlu cavan uşaqlar var, deyir:*



# ÇAYXANALARDAN YIĞILAN FUTBOLÇULAR

*- Kim futbol oynaya bilirsə əl qaldırsın.*

*15-16 nəfər qalxır ayağa.*

*Allahverdi Bağırov:*

*- Axşam yığışın İmarətə, iki gündən sonra gedəcəyik Bakıya futbol oynamağa. Bir həftə yeyib-içməyiniz də mənlik, qalmağınız da mənlik, uduzsaq da vecinizə almayın.*

*Ayın 5-də eşitdik ki, Ağdam gəlib futbola, dostlar yığışıb getdik.*

*Onda Elbrus Abbasov "Neftçi"nin əsas hücumçusu, Saşa (Hüseyn Əhmədov) "Neftçi"nin əvəzedici heyətinin qapıçısı idi.*

*Getdik gördük ki, onlar da stadiondadı, hələ Adil Nadirov da eşidib gəlib.*

*Hə, oyun başladı. Saşa durub qapının arxasında qapıçıya harda dayanmağı, divarı necə qurmağı, küncdən gələn topa necə çıxmağı, hansı müdafiəçini hansı hücumçunun üstünə qoymağı tez-tez tapşırır, hətta gələn toplara qapının arxasından özü reaksiya verib sıçrayırdı.*

*Elbrus Abbasov hücumçulara çığırır:*

*- Topu filankəsə at, qapıya ötürmə elə, sol tərəf boşdu*

*Və sair və ilaxır.*

*Adil Nadirov həmişə "Qarabağ"ın dispetçeri olmuşdu, o da yenə kənardan bağıraraq dispetçerlik edirdi. Maraqlı və gülməli bir oyun idi. Kənardan peşəkar futbolçuların verdikləri göstərişləri çayxanadan yığılıb gələnlər həvəslə yerinə yetirirdilər. Və həmin oyunda ağdamlılar qalib gəldi.*

*İndi həm yüksək liqada, həm də birinci liqada bəlkə 150-dən çox əcnəbi futbolçular var. Bir-iki klubu çıxmaq şərtilə, qalan komandaların əcnəbi futbolçularını elə bil Braziliyanın, Afrikanın və ya hansısa ölkənin çayxanalarından yığıb gətiriblər. Elə Allahverdi Bağırovun o vaxt Ağdamdakı çayxanadan yığıb gətirdiyi futbolçular kimi bir şeydi. Nə oyun qura bilirlər, nə də bir oyun göstərə bilirlər. Çoxu da mövsümün yarısından klubdan kənarlaşdırılır, təzminatını da ödəyib yola salırlar. Sadəcə olaraq, arada böyük pul oynayır, futbol yox ey, pul.*

*Bir ara "Neftçi"də rus futbol məktəbinin yetişdirməsi İqor Netto adlı bir italiyalı məşqçi var idi. Adı elə gurultulu səslənirdi ki, meydançaya çıxanda camaat onu ayaq üstə alqışlayırdı. Oyununu yox ey, adını. Əzəmətli İqor Netto - əzəmətli səslənir axı. İndi əcnəbi futbolçuların da adı çəkiləndə alqışlayırıq, yəni adları futbolçu adıdı, özləri çayxana uşağı.*



Elxan Şükürlü

# "Ədalət" nədir?

**İctimai-siyasi həyatımızda ən çox işlənən anlayışlardan biri ”ədalət”dir. Çünki ”ədalət” daha çox ”zülm”ün əksi olaraq qəbul edildiyindən, həmişə nizamın əsas və qalıcı meyarı sayılıb.**

**İstər Qərb, istərsə də Şərq filosofları bu anlayışın izahına və onun idarəetmədə, insan münasibətlərində roluna dair indiyədək xeyli kitablar, əsərlər yazıblar.**

**Hətta bəşəriyyətin yolgöstəricisi olan ”Qurani-Kərim”də belə, peyğəmbərlərin yer üzünə göndərilməsi məhz insanların bir-biriylə ədalətlə rəftar etməsinə nail olmaq məqsədiylə izah edilir: ”And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar (möcüzələrlə) dəlillərlə göndərdik. Biz onlarla birlikdə kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar (bir-biriylə) ədalətlə rəftar etsinlər...” (”Hədid”, 25)**

**Bəs, ”ədalət” nədir?**

**Müəllimi azərbaycanlı alim Məmmədhüseyn Təbatəbai olan, düşüncələri və təsirli çıxışlarıyla 1979-cu ildəki İran inqilabına böyük töhfələr vermiş, Şahın devrilməsi prosesinin əsas ideoloji yükünü öz çiyinləri üzərinə götürmüş və inqilabdan az sonra qətlə yetirilmiş məşhur İslam filosofu, vəhdətçi alim Mürtəza Mütəhhərinin ”İlahi ədalət” kitabı, fikrimcə, bu suala cavab axtaranlar üçün qiymətli bir tapıntı, xəzinədir.**

**Kitabı oxuduqdan sonra gəldiyim nəticə budur: ”Ədalət” hər kəsə bərabər münasibət deyil, hər kəsi və hər şeyi öz yerinə qoymaqdır!**

**Kitabda Mövlanənin ”Məsnəvi”sindən gətirilən bu sitat isə nizam-tərəzisi itmiş cəmiyyətlərin halına işıq tutan ən yaxşı kəlamlardandır: ”...Şahmatda Şahı Topun yerinə qoysan, hər şeyi viran edərsən. Şahın yerinə Fili qoymaq da nadanlıqdır”.**

**Gerçəkdən də, o cəmiyyətlər və dövlətlər xoşbəxt yaşayar ki, orada hər kəs və hər şey öz yerində olsun!**

**Deməli, hər şey, ilk növbədə, ÖZ YERİNİ BİLƏN insanın mövcudluğundan başlayır! Yerinibilməz insan evinə də fəlakət gətirər, ətrafına, ölkəsinə, xalqına da...**

**Bu, həm də ləyaqət məsələsidir! Ləyaqətli adam özünütanıyan və yerinibiləndir, haqqı çatmayanı istəməz, ondan imtina etməyi bacarar! Ləyaqətsiz isə nə özünü bilər, nə yerini!**

**Ədalətli dövlət də o dövlət sayılar ki, onun gücü hər kəsi və hər şeyi öz yerinə qoymağa sərf olunsun, ləyaqətsizlərin, özünütanımazların ləyaqətlilər, mənəviyyatlılar üzərində hökmranlığına imkan verməsin; pislikdən çəkindirsin, yalnız yaxşılığı təşviq və əmr etsin!**

**Mütənasiblik, nizam, sabitlik və inkişaf yalnız ədalətdədir!**

**İnananlar, mənəvi azad insanlar üçünsə bu, eyni zamanda Allahın qəti hökmüdür: ”De: ”Allah ədaləti (insafı) əmr etdi...”” (”Əraf”, 29)**

## *"Sky News": "Ukrayna bəzi ərazilərdən imtina etməli olacaq"*



**Xəbər vermişdik ki, Ciddədə (Səudiyyə Ərəbistanı) ABŞ-Ukrayna danışıqları 11 martda baş tutub və tərəflər birgə bəyanat qəbul ediblər. Danışıqlar məhsuldar keçdiyi üçün 12 martda müzakirələrin davam etdirilməsinə ehtiyac qalmayıb.**

Adalet.az xəbər verir ki, Böyük Britaniyanın ”Sky News” telekanalı iddia edib ki, Ukrayna sülh naminə bəzi ərazilərdən imtina etməli olacaq.

Nəşrin müxbiri, jurnalist Aleks Rossi bildirib ki, ABŞ qapalı görüşlərdə Ukraynanın 2014 və ya 2022-ci il sərhədlərini bərpa etməsi barədə eşitmək istəmədiyini bildirib.

Atəşkəsin bərqərar olması üçün Ukrayna bəzi ərazilərdən imtina edərək ağrılı güzəştlərə getməli ola bilər.

Qeyd edək ki, ”Maş” Teleqram kanalı məlumat yayıb ki, Rusiya ordusu Kursk vilayətinin Suca şəhərinə daxil olub. Ukrayna hərbçiləri şəhəri tərk edərək Sum vilayəti istiqamətinə geri çəkiliblər.

**Əntiqə Aslan**

# Qazilərə "Özünüzü adam kimi aparın" deyən şair Eminqueyə Əntiqə Rəşiddən cavab

**Oturub dinməz-dinməz işimlə məşğul olurdum ki, qəflətən qarşıma keçmiş əməkdaşımız, hazırda Kulis.azda fəaliyyət göstərən Eminquey Akifin adıgedən saytda bir məqaləsi çıxdı. Mənə deyən gərək ay Əntiqə, qələminə bələd olduğun Eminqueyin məqaləsini oxumaq sənə lazım idi?**

Oxudum və həddindən çox əsəbləşdim... Əvvəlcə bilmədim bu müəllifi dünəninə xor baxan gənclik adlandırım, yoxsa, burnuna barıt qoxusu dəyməyən kişimi deyim, müharibə vaxtı nəinki döyüşdə olmayıb, heç müxbir kimi o ərazilərə tərəf ”fırlanmayan” yazar deyim, tamamlanmamış insan tipimi deyim? Nə deyim, bilmədim!

15 ildir bir qazinin qulluqçusu olduğum üçün müəllifə cavab verməsəm, düz olmaz!İnanıram ki, 10 minlərlə qazimizin yaxınları da mən çəkənləri çəkir. Havalar soyuyandan ta yay girənəcən ufultu”su ürək yaxır. Vaxtında müalicə almayanda ”dəli”yə dönür, dünyası gözündə sönür. Hər gün Allahdan özünə ölüm arzulayır. Utanır həm də ona cani-dildən qulluq etdiyimə görə! Bədəninin hər bölgəsində gizlənmiş 23-dən çox qəlpənin verdiyi ağrı , ürəyinin 3 millisindəki çarpanaqlı qəlpənin acısı, qazimi müharibədən illər keçsə də tərk etməyib.

O qədər olub ki, səhər yuxudan oyananda diqqətlə ”dinşəyirəm ki, görüm axşamkı ağrıdan sonra sağdırmı? Ölməyib ki? Sağ olduğunu görəndə sevindiyimdən ağlamaq məni tutur. Şükür etməyə başlayıram ki bu gün də sağdı, yaşayır! Belə təsəvvür edin: 15 ildir qazimlə birgə eyni ağrıları çəkirəm, eyni acıları çəkirəm, hər gün onu itirmək qorxusu məni didib- parçalayır. Atası-qardaşı olmayan biri üçün böyük itki olar deyib Allaha sarılıram, yalvarıram, ağlayıram ki, ona bir şey olmasın! Nə isə.. Qazilərin çəkdiyi acılara şahid biri kimi həmkarıma cavab verməliyəm!

Eminquey Akif yazır, yaxşı edir, amma düz eləmir...

Bizim qoçaq ”Qələbəmizi urvatdan salan qazilər” başlıqlı bir məqalə çap etdirib, başlığın əvvəlinə də oxunması, reytinq qazanması üçün də ”500 manata görüşürəm...” yarım başlığı qoyub.

Mövzu belədir ki, sosial şəbəkə istifadəçisi olan bir qazi oradan bir qız profilini ələ keçirib və onun fotolarının üzərinə ”500 manata görüşürəm...” yazaraq paylaşım edib. Qız bu qazini tapıb və polisə şikayət edib. Polis də qazini saxlayıb. Guya bu qızın bu hadisə səbəbi ilə nişanı qayıdıb, üstəlik işindən kənarlaşdırılıb. Təbii ki, DİN də lazımı prosedurları həyata keçirib. Qazi cəzasını alıb. Bura qədər əla! İndi müəllif bu nöqtədən sonra ”bəzi həqiqətləri cəmiyyətin üzünə çırpasan”deyib başlayır qazilərin üzərinə yeriməyə:

”Bu beş ildə özünü yandıran qazi görük, maşını nömrəsiz sürüb ”mən qaziyəm, mənə olar” deyən qazi gördük, oğurluq edən qazi gördük, TikTok-da pul dilənən qazi gördük, gic-gic hərəkətlər edən qazi gördük, amma hər dəfə susduq. Guya susduğumuz tək qazilərdirmi?! ”Onların üstündə barıt qoxusu, şəhid əllərinin izi var” dedik. ”Onlar yaşayan şəhidlərdir” dedik. Daha bu qədər də olmaz ki”.

İttihamlardan ürəyi soyumayan yazar bu dəfə əməlli -başlı təklif də irəli sürür:”Bax, elə bu hadisədən sonra ”qazi” statusu haqqında düşünmək lazımdır. Artıq bu ad eşidiləndə əksəriyyət ağız büzür, üzünü o yana çevirir. Ona görə ki, qazi adını gözdən saldılar”.

Hörmətli Eminquey müəllim, müharibəni kinolardan izlədiyin üçün qazilərin savaş meydanlarında hansı psixoloji duruma düşdüyünü anlamadığın bəllidir.

Bir yerdə yemək yediyi, bir kazarmada hər gün üz-üzə gəldiyi, min bir arzulu səngər yoldaşlarının parçalara bölünmüş bədənini görən, öz ölümünün hər an baş verəcəyini gözləyən, əsir düşmək təhlükəsi ilə döyüşün ən gərgin nöqtəsinə hərəkət edən qazinin keçirdiyi hissləri, aldığı psixoloji travmanın acısını ömründə bir dəfə canlı-canlı yaşaya bilmisənmi? Cavabını bilirəm! Təbii ki, YOX!

Eminquey yazır:”Müharibədə döyüşmüsünüz, sağ olun, amma müharibə bitib! Əlinizdə silah yoxdur, altınızda tank yoxdur, qarşınızda erməni yoxdur. Çıxın bu eyforiyadan. Siz artıq bu ölkənin vətəndaşısınız. Hamı kimi! Özünüzü adam kimi aparmağa məcbursunuz. Özü də bizdən daha çox. Çünki siz qazisiniz. Məmur özbaşınalığına, həkim səhvinə göz yummaq olar, amma sizin səhvlərinizə yox. Niyə? Çünki siz belə istəmisiniz. Siz özünüzü müqəddəsləşdirmisiniz”.

Canları bahasına qələbəni təmin edən bu diri şəhidlər gərək əllər üstündə saxlanaydı, Eminquey müəllim, gərək onların heç bir tələbi, arzusu yerdə qalmayaydı. İşlə, evlə, şəraitlə təmin ediləydilər.Məclislərdə yuxarı başa keçiriləydi. Bir qazinin tutqun baxışına bütün Azərbaycan ayağa qalxaydı və onun haqqını müdafiə edəydi.



Niyə? Çünki sən evində pult əlində televizora baxanda, tik-tokda ağlına gələni danışanda onlar erməni, rus, fransız və daha nəbilim hansı qruplaşmaların, terror təşkilatlarımnın qarşısında kişilik imtahanı verirdilər.

”Özünüzü adam kimi aparmağa məcbursunuz” nə deməkdir? Adam kimi aparmırlarsa, sən onları hansı formada görürsən?Onlar Azərbaycan xalqı olaraq bizim başımızı, ayaqlar altındakı qeyrətimizi məhv olmuş, kəsilmiş, yox olmuş, parçalanmış əzaları ilə yerdən qaldırıblar. Biz ölənədək onların istəklərinin qulu olmalıyıq, başqa cür düşünmək isə ancaq döyüş, müharibə görməyənlərə, fərarilərə məxsusdur.

***Eminquey:”Biz şəhidləri cənnətlik bilmişik, Allahın onların səhvlərinə göz yumduğunu qəbul etmişik, sizi isə onların yarısı - canlı şəhid hesab etmişik. Yenə deyirəm, həm də siz belə istəmisiniz. Ona görə də bu adı daşıyırsınızsa, ”mən qaziyəm” deyirsinizsə, ömrünüzün sonuna kimi bu ada layiq yaşamalısınız”.***

Eminquey, niyə bir dəfə, 100-dən çox intihar edən qazini müdafiə edəcək, intihar səbəblərinə etiraz edən bir cümlə yazmadın, bu 5 ildə? Onları incidənlərə qarşı niyə bir dəfə bir şair olaraq səsini çıxartmadın? İndi bir qazi səhv edibsə (Hərçəndi mən bu yazdığın nağıla da inanmıram, çünki doğru olsaydı, ad- soyad yazardın, rayonun göstərərdin. Demək ki, özündən nağıl düzəltmisən, qazilərə hücum etmək üçün) kimin göstərişlə onlara hücuma keçmisən! Əslində sənin bu hücunla , yol kənarlarına bərkidilmiş şəhid plakatlarını sökən qara fəhlələrlə heç bir fərqin yoxdur. Ona da əmr gəlib, sənə də! O da əmri yetirir, sən də! Və təssüf ki, etdiyinizin necə bir günah, səhv, pis örnək olduğunu anlamırsınız.

***Eminquey:”Ya da, ümumiyyətlə, bu ad ləğv edilməlidir. Amma niyə pis adamların ucbatından təmiz adamların adına ləkə düşməlidir? Mənim tanıdığım qazilər var ki, indi də hərbi xidmətinə davam edir və heç kim onlar barədə nə bir mənfi söz eşidib, nə də onlar adlarına ləkə salacaq bir iş görürlər. Necə ola bilər ki, ermənin qarşısına çıxan, ”biz ana-bacılarımıza görə döyüşmüşük” deyən bir qazi səngərin bu üzündə, öz Vətənində həmin ana-bacısına qarşı bu cür hərəkət etsin?”***

Sənin dərdin qazilərlə nədir Eminquey Akif?Azərbaycanda tənqid etməyə, hücuma keçməyə, nöqsanını üzünə deməyə adammı yoxdu?

**Həkimlərin hamısı tamahkar deyil, müəllimlərin hamısı rüşvətxor deyil, jurnalistlərin hamısı savadsız deyil, qazilərin də hamısı sənin dediyin kimi ”adamlıqdan kənar” deyil. Qazilər bizim yeriyən şəhidlərimizdir, onlara hörmətlə yanaşmalıyıq! Borcumuzdur!Bir- iki səhv yolda olan qaziyə görə, ictimaiyyətdə onlara qarşı mənfi münasibət yaratmaq qəbuledilməzdir! Bunu ancaq əsgərliyə getməyən, burnuna barit qoxusu dəyməyənlər edə bilər! Ümumiyyətlə, sizin nəsildə neçə qazi var? Əmin oğlu, xalan oğlu, bibin oğlu, dayın oğlu? Məncə yoxdu! Yazanda çalış bildiyin mövzulardan yaz!**

# Suriya Prezidenti kürdlərlə razılığa gəldi

**Suriya hökuməti ilə ölkənin şimal-şərqinə nəzarət edən YPG terror qruplaşması arasında razılıq sənədi imzalanıb.**

Adalet.az xəbər verir ki, bu barədə Suriyanın Prezident Administrasiyası məlumat yayıb. Sənəd səkkiz maddədən ibarətdir.

Bildirilir ki, dini və etnik mənsubiyyətindən asılı olmayaraq bütün suriyalıların dövlət qurumlarında təmsil olunmaq və səlahiyyətləri əsasında siyasi proseslərdə iştirak etmək hüquqlarının təmin edilməlidir.

Həmçinin qeyd olunub ki, kürd icması Suriya dövlətində vacib bir cəmiyyətdir və Suriya dövləti kürd icmasının vətəndaşlıq hüquqlarını və bütün konstitusiya hüquqlarını təmin edir. Razılığa görə, bütün Suriya ərazisində atəşkəs təmin olunmalıdır. Suriyanın şimal-şərqindəki bütün mülki və hərbi qurumların sərhəd qapıları, hava limanları, neft və qaz yataqları daxil olmaqla, Suriya dövlətinin idarəçiliyinə inteqrasiya olunmalıdır.

Eyni zamanda, qaçqın suriyalıların kənd və qəsəbələrinə qayıtmaları təmin edilməsi, Suriya dövləti onların təhlükəsizliyini təmin etməlidir. Keçmiş prezident Bəşər Əsəd rejiminin qalıqları və ölkənin birliyini təhdid edən bütün təhlükələrlə mübarizədə Suriya dövlətinə dəstək verilməlidir.

Sənədi imzalayan tərəflər - YPG rəhbəri Mazlum Abdi Şahin və Suriya Prezidenti əş-Şaraa cəmiyyətin bütün təbəqələri arasında parçalanma, nifrət nitqini rədd ediblər. İcra komitələri bu müqavilənin həyata keçirilməsi üçün cari ilin sonunadək çalışacaqlar.

# İspaniyalı deputatın "Qərbi Azərbaycan" sancısı: "Artsax "ağlaşması

**Bütün çıxışlarında Ermənistanı müdafiə edən və "Ermənistanın yeri Avropa İttifaqıdır" deyən ispaniyalı deputat Con İnarritu növbəti dəfə Azərbaycana "hücum" edib.**

Adalet.az xəbər verir ki, İnarritunu Azərbaycanın qaldırdığı "Qərbi Azərbaycan" mövzusu xeyli qəzəbləndirib və o mövzu ilə bağlı erməni mediasına açıqlama verməyi özünə borc bilib. İspaniyalı deputatın 1988-89-cu illərdə azərbaycanlıların Ermənistan ərazisindəki torpaqlarından deportasiya edilməsindən xəbəri yoxmuş kimi bu fikirləri söyləyib:"Azərbaycanın təbliğ etdiyi qondarma "Qərbi Azərbaycan" ssenarisi tarixi yenidən yazmaq, Dağlıq Qarabağın erməni əhalisinə qarşı həyata keçirilən etnik təmizləməyə haqq qazandırmaq və Ermənistandan yeni əraziləri işğal etmək məqsədi daşıyır".

Erməni lobbisinin peşkəş verdiyi maliyyənin təsiri altında böhtan və şər söyləməkdən çəkinməyən deputat Con 1988-90-cı il erməni işğalından sonra yaratdıqları qondarma "artsax respublikası"nı daha qədim hesab edərək deyir: "Məlum olduğu kimi, Azərbaycan Ermənistanın demək olar ki, bütün ərazisini özündə birləşdirən "Qərbi Azərbaycan" deyilən iddia ilə tarixi yenidən yazmağa çalışaraq erməni torpaqlarını "tarixi Azərbaycan" adlandırır. Azərbaycan bu cür bəyanatlarla Avropa İtti-




faqına diplomatik və siyasi təzyiq göstərmək məqsədi daşıyır.

Çox aydındır ki, bu bəyanatların son məqsədi Aİ-yə diplomatik təzyiq göstərmək, strukturun fəaliyyətini Azərbaycanın maraqları ilə daha sıx uyğunlaşdırmağa çalışmaq, çox vaxt enerji sövdələşmələrindən istifadə etməkdir"

İspan deputat "xüsusi canıyananlıqla" Aİ Monitorinq Missiyasının Ermənistan-Azərbaycan sərhədində vəziyyətin monitorinqinə, sabitliyin təşviqinə və gələcək münaqişələrin qarşısının alınması üçün beynəlxalq müqavilələrə riayət edilməsinə də diqqət yetirir:

"Bu baxımdan Azərbaycanın missiya ilə bağlı narahatlığını anlamaq çətindir, xüsusən də sülh sazişinin imzalanmasına can atan bir ölkə üçün", - deputat qeyd edib.

Onun müşahidəsinə görə, Azərbaycanın Aİ-nin monitorinq missiyasına qarşı şikayətləri də üçüncü dövlətlərin, xüsusilə Türkiyə və ya Rusiyanın təzyiqləri nəticəsində yarana bilər.

Xatırladaq ki, bu həmin İspaniya parlamentinin üzvü Con İnarritudur ki, absurd açıqlamaları ilə Azərbaycanı ötən il az qala cinayətkar çıxarırdı:" "Zorakılıq və təqiblərdən xilas olmaq üçün evlərini tərk etməyə məcbur olmuş 100 mindən çox köçkün artsax ermənisinin hüquqlarını və təhlükəsizliyini təmin etmək üçün beynəlxalq ictimaiyyətin müdaxiləsinə təcili ehtiyac var".

Halbuki, onun bu fikirləri tamamilə absurddur. Çünki artıq bütün dünya da bilir ki, onlar Qarabağı könüllü tərk ediblər.

Bunu Paşinyan da etiraf edib, BMT də. Həmin ermənilərin sayı da onun dediyi qədər deyil. Şübhəsiz, bu, təkcə rəqəmlərlə bağlı manipulyasiya deyil, həm də Azərbaycana qarşı əsassız ittihamdır.

***P.S.* "Allah şəfa versin" deyəcəksən, sağalası deyil, erməni uydurmaları ilə yaxalanmış beyni, erməni lobbisinin pulları ilə tutulmuş gözləri açılası deyil. "Allah şəfa verməsin" yazacaqsan, Ermənistanda ağlaşma quran Nensi Pelosi kimi özünü qoyacaqsonuncu varianta, daha pis nəticələr olacaq. Ən yaxşısı yazaq ki, Allah ölüm versin! Dünya qurtulsun!**

**Əntiqə Rəşid**

# Məcəllə təsdiq olundu: Kimlər pulsuz ev alacaqlar?



**Prezident İlham Əliyev Mənzil Məcəlləsinə olunan dəyişiklikləri təsdiq edib. Sənədə əsasən, sosial kirayə müqavilələri əsasında qanunvericiliklə müəyyən edilən kateqoriyadan olan vətəndaşlara dövlət və ya bələdiyyə mənzil fondunun yaşayış sahələri veriləcək.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayraçov deyib. O bildirib ki, qanunvericiliyə əsasən, dövlət dəstəyi ilə bir sıra ailələr və vətəndaşlarımız pulsuz evə sahib olurlar:

"Mövcud qanunvericiliyə əsasən, şəhid ailələri, müharibə qaziləri, Çernobıl qəzasında əlilliyi olan şəxslər və valdeyinlərini itirmiş vətəndaşlarımıza sosial mənzil fondundan istifadə etmə şəraiti yaradılır. Yeni dəyişikliklərə, yaşayış sahəsinə ehtiyacı olan ailələrin uçota alınması, onların sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri ilə təmin edilməsi daxildir. Bu pulsuz mənzillərə əlçatanlığı daha da artıracaq.

Yeni qaydalara əsasən, sosial Mənzil Məcəlləsinin 48-ci maddəsində dəyişikliklər təsdiq edilib. Bu sosial kirayə müqaviləsi əsasında verilən yaşayış sahələri ilə bağlı maddədir. Qanuna əsasən, sosial kirayə müqaviləsi əsasında dövlət mənzil fondunun yaşayış sahəsini əldə etmək məqsədilə yalnız bir dəfə yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alına bilərlər".

**Nicat Novruzoğlu**

# Faciəmizin qorxunc üzü: Kəndli kənddən qaçır, kəndlər boşalır...

**Deməli, Qarabağ müharibəsindən əvvəl Baş Qərvənd kəndi inzibati ərazisinə Ayaqqərvənd , Orta Qərvənd, Şıxlar və Baş Qərvənd kəndləri daxil idi. Sovet rejiminin göstəri məqsədli planına əsasən yol kənarında olduğu üçün Baş Qərvənd yaxşı inkişaf etmişdi. Kənddə ən müasir standartlara uyğun 2 mərtəbəli məktəb, peşə yönümlü istehsalat məktəbi, ikimərtəbəli xəstəxana, 1941-45-in ən müasir tipli abidə kompleksi, 2 mərtəbəli alternativi Ağdamda belə olmayan çox prinsipli , dəbdəbəli mədəniyyət evi, kolxoz idarə binası, 2 uşaq baxçası, 3-4 kafe, yeməkxana tipli məişət obyektləri və digər xidmət obyektləri də vrdı. (bura 10-a yaxın mağaza, aptek, bərbərxana, ayaqqabı təmiri, dərzilik, avtomobil təmiri və s xidmətlər də daxil idi ).**

Üstəlik, yolun kənarında, kəndin girəcəyində bütün Qarabağda tayıbərabəri olmayan "Günbəz" adlı bir restoran, Xaçın çayının sahilində isə 1 ədəd restoran-otel fəaliyyət göstərirdi. Yolların kənarına əkilən meyvə ağacları , gül kolları isə bir ayrı aləm idi. Ümumiyyətlə kənd elə qurulmuşdu ki, Ağdama ilk dəfə səfər edənlər yolun üstündəki Baş Qərvənddən keçəndə elə düşünürdülər ki, artıq Ağdam şəhərinə daxil olublar.

İndi keçək, Şıxlar kəndinə! Kənd Bərdədən gələndə sol tərəfə dönəndən sonra, bir az içəridə yerləşirdi. Yəni, kənd yol kənarında olmadığı üçün sovet hökümətinin layiqli namizədi , kolxoz sədri Xuraman Abbasova Şıxlara elə də ürək yandırmazdı, nə də olmasa əsas yoldan kənarda yerləşirdi və baxmayaraq ki, əhalisi elə Baş Qərvəndin əhalisi qədər idi. Kəndin mədəniyyət klubu da yaxşı vəziyyətdə deyildi, 10 illik məktəbi, uşaq baxçasıda eyni vəziyyətdə idi. Orta Qərvənd və Ayaq Qərvənddəki inkişafdan isə danışmağına dəyməzdi. Hər kənddə bir mağazadan başqa heç bir məişət xidməti obyekti yox idi. Ayaq Qərvənddə uşaqlar ancaq 4-cü sinfə qədər dərs ala bilərdilər və artıq 5-ci sinfi oxumaq üçün bu kənddən ən azı 10 km məsafədə yerləşən Şıxlar kənd məktəbinə getmək məcburiyyətində idilər. Eyni olayı Orta Qərvəndin uşaqları da yaşayırdılar.

Baş Qərvənd və Şıxlar kəndləri işğala məruz qalandan sonra da bu kəndlərdə yenə inkişaf baş vermədi. Bu dəfə də kənd yenə əldənayaqdan uzaq bir yer olaraq qaldı.

Sovet adət-ənənəsinin bir çoxundan qurtula bilməyən Azərbaycanın bu tip kəndlərində əhali artıq yaşamağı özünə rəva görmür. Baxımsızlıq problemləri olduğu kimi bu gün də saxlayır.

***Problemə statistik yanaşma, gülməli "çözüm"***

Dünən "Xəzər Xəbər"də Azərbaycanda kiçik kəndlərin birləşdirilə biləcəyi ilə bağlı bir süjet diqqətimi çəkdi. Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycanda ötən il 4244 kənd yaşayış məntəqəsi olub. Kəndlərin 514-də əhalinin sayı 100 nəfərdən azdır, 94 kənddə isə əhalinin sayı 5000-dən çoxdur.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bildirir ki, Azərbaycanda kiçik kəndlərin birləşdirilməsi iqtisadiyyatın inkişafı, infrastrukturun təkmilləşdirilməsi, təhsil və səhiyyə xidmətlərinin yaxşılaşdırılması, eyni zamanda təbii resursların səmərəli istifadəsi baxımından müsbət nəticələr verə bilər.

Əslində belə baxanda qeyri-adi heç nə yoxdu. Kiçik və yaxud əhalisi az olan kəndləri birləşdirmək infrastrukturu yenidən və standartlara uyğun qurmaq daha cəlbedici və səmərəli hesab edilə bilər.

***Amma bu süjet yeni bir faciəmizin var oduğunu sanki yadımıza saldı***

Hər kəs istəyir ki, yaşadığı ömrü xırda problemlərlə çarpışaraq keçirməsin. Heç olmazsa az problem yaşasın. Xüsusən, heç kim ən adi



halın problem kimi ürəyini üzməsini istəmir. Təsəvvür edin kənddəsiniz, qışdır, işıqlar kəsilir, istilik yox səviyyəsindədir, artezianlar işləmir, sular gəlmir, üstəlik iş yerləri yoxdu, kənd təsərrüfatı ilə məşğul olmaq üçün nə şərait var , nə imkan ... Böyük şəhərlərdə rahat həyat varkən kim ömrünü problem və çətinliklərin tüğyan etdiyi belə bir yerdə çürütmək istəyər?

Bir neçə il əvvəl məhsul yığımının gedişatını izləmək, problem və çətinlikləri yaxından görmək üçün rayonlardan birinə getdim. Kəndlilər, necə deyərlər, qan ağlayırdılar. Deyir ki, bazardan "od qiymətinə" soğan toxumu aldım. Sahəni öz cibimin pulu ilə şumlatdırdım, fəhlə tutub səpin etdim. Suçu tutub sulatdırdım. Boğazımdan kəsdim, nəisəki elətdirdim. Soğanlar boy atmağa başlayanda dedilər su yoxdu. Gərək pulunu verəsən, soğanına su gəlsin. Soğan yazda-yayda çoxlu su içir. İndi mən nə qədər öz cibimdən pul ödəyim ki, soğanı satışa yararlı hala gətirim? Su vaxtlı-vaxtında olmadığı üçün sahəyə qoyduğum bütün maliyyəm,əziyyətim məhv oldu. Lap tutaq ki, başa gətirdim, bunun sahədən yığılmasına, satışa çıxarılmasına da pul lazımdır axı... Əlavə xərcləri demirəm..."

Yeri gəlmişkən, həmin rayonun bir ədəd kombayanı olduğu üçün həmin kombayn əvvəl vəzifəli şəxslərin icarəyə götürdüyü pambıq sahələrində məhsul yığır, sonra kasıb təbəqənin sahəsinə gedir. Həmin vaxtda da ya pambıq yağış və küləkdən xarab olur, ya da yerlərə tökülüb zay olur. Məntəqələrdə belə pambığı 2-ci ya da 3-cü sort kimi qəbul edirlər ki, bu da qoyulan maliyyəni ödəmir.

Kəndçi necə deyərlər , kirpiyi ilə od götürməkdən də, min bir təbii və süni əngəllərə dözməkdən də, sonda əlləri boş qalaraq üzülməkdən cana yığılır və doğma el-obasını tərk edib böyük şəhərlərə axnaşır.

***Yurdunu tərk edənlərin dərdinə çarə tapın!***

Elə bu yerdə mediamız kömeyimə çatır . Deməli hələ bu məlumat 2019-da qeydə alınıb, indi Allah bilir vəziyyət necədir: "Siyahıyaalmadakı bilgilərdən aydın olur ki, ərazisi işğala məruz qalan rayonlar çıxılsa, ən çox tərk edilən rayon Qaxdır. Siyahıyaalmanın aparıldığı 2019-cu ilin sonunda burada 57 min 200 nəfər sakinin yaşadığı açıqlanmışdı. Siyahıyaalma zamanı rayonda 51 min 519 nəfərin olduğu bilinib. Başqa deyimlə, 5 min 681 sakin rayonu tərk edibmiş.

Bu, Qaxın bütün əhalisinin 10 faizi deməkdir. Bu rayonla bağlı bir statistika da diqqət çəkir. Ötən ilin yekunlarına görə, ölkədə orta aylıq əməkhaqqının ən aşağı olduğu rayon məhz Qaxdır".

Amma 2024-cü ilin məlumatları da adamın canına dərd salır: Tovuzun dağ kəndlərində sakinlər evlərini buraxaraq şəhərə axın edirlər. Kəndlərdə demək olar ki, əksər evlər boş qalıb. Söhbət rayonun Qəribli inzibati dairəsinə məxsus olan evlərdən gedir. Sakinlərin sözlərinə görə, buna əsas səbəb kəndlərdə təbii qazın olmaması, elektrik enerjisinin verilməsində fasilələrin yaranması və odun yanacağının həddindən artıq baha olmasıdır.

Sos siqnallarının ardı-arası kəsilmir: Şamaxının tərk edilmiş Ülgüc kəndi, Ismayilli rayonunun Bağəli kəndi, Şabranın Zöhrabkənd, Çuxurazəm, Qaxın Sarıbaş və minərlə dağ kənd ölü kəndə çevrilməkdədir

**Əslində bu mövzuda olan məlumatları bir yerə toplayanda görünən odur ki, tək dağlıq rayonlarda deyil, aran rayonlarının kəndləri də boşalır. Azərbaycanda faciəli və gələcəyi çox mürəkkəb olan bir proses artıq sürətlə davam edir. "Davam edir" sözü də bu prosesi təsvir etmir. Əslində olay həddini aşıb, qarşısıalınmaz bir prosesə çevrilib. Dövlətçiliyimizi təhlükə altına alır.**

**Əntiqə Aslan**



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Qarlı bir gündə...

... Çox gözəl havaydı. Qar yağırdı və hava da tərtəmiz idi. Belə hava Bakıda son aylar olmamışdı...

Adam təmiz havanı ciyərlərinə çəkdikcə rahat nəfəs alır və özünü daha yaxşı hiss edirdi. Biz bir neçə dost hər axşam Yeni Günəşlidəki parkda həm gəzir, həm də təmiz hava qəbul edirik. Amma həmin gün Bakıya möhkəm qar yağdığından və hava da küləkli olduğundan orda bir-iki adam gözə dəyirdi. Və o bir-iki adamdan biri də bəndəniz idi...

... Artıq evə qayıtmaq istəyirdim. Elə dönüb getmək istəyirdim ki, köhnə dostlarımdan biri, Borçalı elinin böyük ziyalısı, mənim dostum və qardaşım filologiya elmləri doktoru, professor Şahbaz Musayevi gördüm. O Şahbaz müəllimi ki, ötən əsrin 90-cı illərinin əvvəlində onunla hər gün "Azərbaycan" Nəşriyyatında görüşərdik. Şahbaz qardaşımız "Yurddaş" mətbuat orqanında məsul vəzifədə işləyirdi, bu sətirlərin müəllifi isə "Ədalət"də! Qarlı havada görüşəndə hər ikimizin gözlərinə işıq gəldi. Görüşüb hal-əhval tutduqdan sonra gəzməyə başladıq. Və Şahbaz müəllim dedi ki, Faiq, Bakıda belə gözəl hava çox nadir halda olur. Sonra da parkın içindəki qızılgüllərin bir neçə gün əvvəl tumurcuqladığını, indi isə şaxtadan, qardan don vurub büzüşdüyünü dedi.



Hətta kolların birinə yaxınlaşıb büzüşən tumurcuğu göstərdi. Orda onun şəklini də çəkdim. Gördüm ki, müəllimin bu mənzərədən qanı qaraldı. Ona təsəlli verib dedim ki, müəllim, qəm eləmə, tezliklə havalar qızar, o tumurcuqlar da gül açar! Deyəsən, fikrim onu sakitləşdirdi. Ayaqlarımızın altında qalan qar xarıldadıqca biz qarın gözəlliyini hiss edirdik. Bir anlıq xatirələr bizi 35 il bundan əvvələ apardı. Nəşriyyatın birinci mərtəbəsindən doqquzuncu mərtəbəsinə qədər hər şeyi yada saldıq. Elə bir dostumuz və tanıdığımız yazar olmadı ki, onları xatırlamayaq.

Hətta nəşriyyatda yeməkxanada işləyən Elmira xanımı və digər texniki əməkdaşları belə yaddan çıxarmadıq. "Qaryaçı" sexdə əlimizin biləyə qədər mazuta batmasını və onun qoxusundan ləzzət almağımızı dönə-dönə xatırladıq!

Şahbaz Musayev həm də çox istedadlı qəzetçi, jurnalist, yazıçı-publisistdir. Sonradan elmi fəaliyyətə keçdi və böyük uğurlar qazandı. Bu gün isə o, elmlər doktoru, professor olaraq Azərbaycan Slavyan Universitetinin jurnalistika fakültəsində dərs deyir. Belə istedadlı, təmiz, əqidəli və ədalətli ziyalıların ali məktəblərdə işləməsi təbii ki, o təhsil ocaqlarına hörmət və nüfuz gətirir.

... Və bir də Şahbaz Musayev harda calışıbsa, orda öz səmimiyyəti, sadəliyi və böyük ürəyi ilə hamıdan fərqlənib. Yeni Günəşlidə "müəllim" - deyəndə öncə, Şahbaz müəllimi, Səməndər müəllimi düşünürlər. Çünki onlar hamı tərəfindən sevilirlər. Və müəllim adından dünyada ikinci böyük ad yoxdur!..

## At və eşşək əti

**Dünyanın bir çox ölkələri var ki, orada at və eşşək əti bəh- bəhlə yeyilir və ona matah mal kimi baxırlar.**

Bununla yanaşı, eşşək əti və eşşək südü bir çox xəstəliklərin dərmanıdır. Biz uşaq olanda göy öskürək tutmuşduq və Hidayət həkim nə qədər dərman yazdı, hamısını qəbul eləsək də, amma öskürəyimiz kəsmədi. Axırda rəhmətlik anam Yüsür kişigilə gedib,eşşək südü aldı və bizə dedi ki, inəyimizin südüdür, için! Biz də üç qardaş o südü içdik və sağaldıq. Deyirlər ki, bu gün bir litr eşşək südünü 50 manata satırlar. Çünki o, min bir dərdin dərmanıdır. Bizdə də , at və eşşək ətinin satışı qadağan edilməyib. Sadəcə olaraq Orta Asiya ölkələrində həmin ətin üstünə yazılır ki, bu, satılan ət at və eşşək ətidir. Bizdə isə at və eşşək ətinin dana , inək əti altında satırlar. Özü də xəstə heyvanları.

Bu isə birmənalı olaraq qanun pozuntusudur. Və işi görən adamlar inzibati və cinayət məsuliyyəti daşıyırlar!Ona görə də at və eşşək əti satanlar onu öz adı ilə satışa çıxarmalıdırlar. Üstəlik də satışa çıxarılan at və eşşək əti sağlam olmalıdır. Təbii ki, belə hər şey aydın olanda kimin ürəyi həmin ətdən istəyirsə, ala bilər!

EMİL FAİQOĞLU

## Narazılıq



**Bu il on birinci sinifdə oxuyan şagirdlər daha tez buraxılış imtahanları verəcəklər.**

Artıq onların bir hissəsi martın 2- də imtahan verib. Digər on birincilər isə martın 9- da buraxılış imtahanına gedəcəklər. Yolları uğurlu olsun! Mənim də nəvəm həmin günü imtahan verəcək. Düzdür, bir qədər həyəcanlıdır, amma inanıram ki, istədiyi nəticəni əldə edəcək.Ona və qardaşım nəvəsinə bu imtahanda müvəffəqiyyət arzulayıram. Bizi və elecə də cəmiyyəti narahat edən məsələlər var.

Belə ki, dərs proqramı başa çatmamış buraxılış imtahanını keçirmək hardasa, bir ədalətsizlikdir. Çünki heç kim zəmanət vermir ki, imtahan suallarında keçirməyən mövzular olmayacaq. Aydındır ki, belə sualların düşmək ehtimalı da az deyil. Şübhəsiz belə olsa, bu, toplanan ballara öz mənfi təsirini göstərəcək.Proqramı başa çatdırıb imtahan təşkil edilsəydi, onda bu problemlər yaranmazdı.

Bax , bu barədə Qəbul Komissiyası öncədən düşünməli idi. Təəssüf ki, düşünməyib və ona görə də valideynlər, şagirdlər və ictimaiyyət bu imtahanlarla bağlı narazılıq edir! Və bir də ki, imtahanlardan sonra on birincilərin əksəriyyəti dərsə gəlməyəcək və deyəcəklər ki, biz əsas məsələni həll etmişik, məktəbə getməyə elə bir ehtiyac qalmır.

Bəli, on birincilər düz düşünürlər və birinci mərhələdə keçirilən imtahandan sonra daha dərsə getməyə elə bir ehtiyac qalmır. Qoy , bu barədə Qəbul Komissiyası , Elm və Təhsil Nazirliyi götür- qoy etsin , çıxış yolu tapsın!

## Onlara ən yüksək maaş verilməlidir

**Elə peşə sahibləri var ki, hamıdan çox əziyyət çəkir və hamıdan da az maaş alır.**



Təbii ki, biz hər gün onları görürük. Sadəcə olaraq kömək edə bilmirik. Hər səhər biz görürük ki, onlar yolları təmizləyir, süpürür və hər cür əziyyətə qatlaşırlar.Çəkdikləri əziyyətin isə bəhrəsini görə bilmirlər. Hələ biz yolları süpürərkən hansı təhlükəli anlar yaşadıqlarını demirik, çünki dəfələrlə məsuliyyətsiz sürücülər belə qadınları avtomobillə vuraraq öldürüb və hadisə yerindən qaçıblar.

Bu isə birmənalı olaraq cinayət deməkdir. Qəribəsi odur ki, sübh tezdən yolları təmizləyən bu süpürgəçilər çox az maaş alırlar. Ayda 400 manat əməkhaqqı alan bu insanların dolanışığını və həyatını fikirləşən yoxdur.İndiki bahalıq şəraitində bu pulla dolanmaq çox çətindir.Hələ üstəlik, Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisləri onlar mükafat yazarkən pulun çox hissəsini bu zəhmətkeş insanların əlindən alır.

Məsələn, Suraxanı rayon Mənzil Kommunal Təsərrüfatı Birliyinin rəisi Mais Məmmədovun fəaliyyətindən narazı qalanlar var. Hər halda, təmizlik işçilərinin haqqına heç kim görməməlidir!

## 90 manata iftar süfrəsi olarmı?!



**On bir ayın sultanı olan Ramazanda insanlar oruc tutur.**

Təbii ki, elə bayramında əsas şərti bu ayda oruc tutmaq, kasıblara kömək etmək və adamları sevindirməkdir. Bundan gözəl nə ola bilər?! Amma bizdə bəzi işbazlar var ki, bu gözəl Ramazan ayında da , pul qazanmaq istəyirlər.

Yaxşı qazanırlar, qazansınlar, amma insafların itirməsinlər. Məsələn, restoranlar var ki, Ramazanda iftar süfrəsin 70, 80, 90 manata açır. Nə olub, gərək bu əziz gündə də insanları soyasız?! Əgər sizin ürəyinizdə Allah sevgisi varsa, o süfrəni od qiymətinə deyil, 15- 20 manata açın! Və bir də iftarın açan adam su, xurma və yüngül yeməklər yeyir.

Əgər Allahı çox istəyirsinizsə, imkanı olmayan, oruc tutan adamlara pulsuz süfrə açsalar bu, daha gözəl olar.Bu addımı isə bəlkə kimlərsə, atıb, amma biz bilmirik. Bizcə, kasıb adamları orucluqda sevindirməkdən gözəl heç nə ola bilməz. Bax , qoy, restoranlar belə bir xeyirxahlıq etməklə yadda qalsınlar. Yoxsa qiymətləri bu əziz gündə dörd- beş dəfə qaldırmaqla Allah yanında böyük günaha batırlar!

## Özünü avtomobilin altına atanlar

**Bəzən ya sürücünün, ya da piyadanın məsuliyyətsizliyi üzündən yolu keçən adamın avtomobillə vurulması hadisəsi baş verir.**



Bunları başa düşmək olur. Amma onu başa düşmək olmur ki, kimlərəsə, məqsədli şəkildə pul qazanmaq üçün özlərini avtomobilin təkərləri altına atırlar. Yəni sürücünü şərləyib ondan pul qoparmaq istəyirlər. Və bəzən də onların bu hiyləsi baş tutur. Başqa sözlə demiş olsaq, baş ağrısı olmamaq üçün bir çox halda sürücülər onları maşından düşüb, təkərin altından çıxarır və " yaxşı qurtardım" - deyib istədikləri pulu verir.

Artıq bu cür adamlar sürücülərə şər atmağı özlərinə peşə seçir və bu çirkin yolu davam etdirirlər. Bu yaxınlarda televiziya kanallarının birində belə bir görüntü göstərildi. Belə ki, bir maşın çox aşağı sürətli hərəkət edir və yolun kənarında duran bir piyada isə qaçıb çox ehmalca təkərin altında uzanır. Heç avtomobil ona toxunmur da. Ətrafdakılardan isə kimsə, onu havadarlıq edir, daha doğrusu ona qahmar çıxır.

Sanki hər şey bir ssenari kimi qəbul əvvəlcədən qurulub və məlum olur ki, bu peşəkar adam şərləyib pul almaq istəyən piyadanın növbəti oyunudur.Artıq bu məsələlərlə bağlı hüquq-mühafizə orqanları da məlumatlıdır.Belə hallar təhqiqat və istintaq zamanı təsdiqini taparsa, onların özləri haqqında cinayət işi açılır.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, Toğrul Nəsirli deyir ki, avtomobil yollarında belə faktlar baş verəndə heç şübhəsiz həmin hadisə tam araşdırılır. Yəni günahın piyada da, yaxud da, sürücüdə olması konkret faktlar və dəlillər vasitəsilə aydınlaşdırılır və bundan sonra hadisəyə hüquqi qiymət verilir.Bir sözlə, əgər sübut edilsə ki, piyada sürücünü şərləyir, bax onda həmin şəxs cinayət məsuliyyətinə cəlb edilir.Təbii ki, T. Nəsirlinin dediklərini nəqliyyat ekspertlər də təsdiq edir!

## İtlər insanları parçalayır...

**Son vaxtlar Bakıda sahibsiz itlərlə bağlı şikayətlər çoxalıb.**



Bu itlər şəhərin mərkəzində çox görünməsə də, amma qəsəbələrdə və bir qədər uzaqda sürü ilə gəzirlər.Bu sürü ilə gəzən itlər insanlara hücum edir, onları tutur və bəzən də parçalayıb yeyir. Son bir neçə ayda Bakıda neçə-neçə belə xoşagəlməz hadisələr qeydə alınıb.Onlar xəstəxanaya çatdırılsa da, quduzluq əleyhinə lazımi peyvənd vurulsa belə zərərçəkmişlərin bəzilərinin həyatını xilas etmək mümkün olmayıb.

Bir dəfə Yeni Günəşlidə it sürüsünə rast gəldim. Tənbəllik etməyib itləri saydım. Düz, 18 it idi.Uşaqlar isə o itləri görüb, valideynlərinin yanına qaçdılar! Qarlı gündə Yeni Günəşlidə 13 nömrəli binanın arxasında səhər saat 6:45 dəqiqədə sahibsiz itlər bir qız uşağına hücum etmişdilər.

Onun səsinə qonşular özlərini uşağa çatdırdılar və uşağı itin ağzında çox çətinliklə aldılar.Qan içində olan qızı xəstəxanaya apardılar. Əgər bizim qonşular vaxtında özlərinə hadisə yerinə çatdırmasaydılar, itlər o qızı parçalayacaqdı. İtlərin hüquqları qorunur, amma insanların hüquqları qorunmur. Bütün bu təhlükədən qorunmaq üçün ya sahibsiz itlər öldürülməli, ya da şəhərin küçələrində yığışdırılıb xüsusi saxlanma yerlərinə aparılmalıdır. Bəlkə bundan sonra Bakıda camaatın canı dincələ!

EMİL FAİQOĞLU



# ZƏNGİN, XOŞ TƏƏSSÜRATLARIM

**Adın şərəfdir sənin ey qadın,**
**Dahilər anasi çağırılır adın!**

Bu yaxınlarda Bakıda dahi ümummilli Liderimiz Heydər Əliyevin adını daşıyan Sarayda 8 Mart-Beynəlxalq Qadınlar Gününə həsr edilmiş təntənəli tədbir keçirilmişdir. Mən bu sarayda ilk dəfə olaraq iştirak edirdim. Eyni zamanda mənimlə bərabər rayonumuzu təmsil edən 10 nəfər nümayəndə - Vüsalə Məmmədova, Çiçək Şirəliyeva, Günay Abdullayeva, Arzu Niftalıyeva, Rəna Abdullayeva, Samirə Xuduyeva, Aygün Kərimova, Xuraman İsmayılova və Röyalə Yaqubzadə bu möhtəşəm tədbirə qatılmışdılar.




İlk öncə sarayda minlərlə nümayəndələr kimi, bu tədbir mənə də xoş təsir bağışladı. Belə ki, billur kimi parlayan çılçıraqlar, müxtəlif rəngarəngdə olan pərdələr, rəngli kristollar və sair hamını valeh edirdi. Sarayda paytaxt sakinləri ilə bərabər, həm də Respublikamızın bütün bölgələrindən gəlmiş minlərlə nümayəndələr əyləşmişdilər. Çox keçmədi ki, tədbirin rəsmi hissəsi başladı. İlk öncə Dövlət Himni səsləndirildi. Qarabağ Vətən müharibəsində və Qazaxıstan Respublikasının Aktau şəhərində təyyarə qəzasında həlak olanların xatirəsi 1 dəqiqəlik sükutla yad edildi. Sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının humanitar siyasi məsələləri şöbəsinin müdiri Fərəh xanım Əliyeva möhtərəm Prezidentimiz İlham Əliyevin 8 Mart-Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrikini oxudu.



Prezidentin bu təbriki toplantı iştirakçıları tərəfindən hərarətlə qarşılandı. Ölkə Başçısı təbrikində dahilər anası yetişdirən analarımıza yüksək qiymət verərək demişdir:

”Azərbaycan qadınlarının dünyanın bir sıra qabaqcıl ölkələrinin qadınlarından daha əvvəl seçib-seçilmək hüququ qazanmaları yeni dövr tariximizin əlamətdar faktlarındandır. Mədəniyyət, elm, təhsil və səhiyyənin ən müxtəlifistiqamətləri üzrə müsəlman Şərqinin qadınları arasında ilk addımları atmaları onların yüksək yaradıcı potensialının nəticəsidir. Təqdirəlayiq haldır ki, müasir gənc xanımlarımız bu ənənələrə ehtiram bəsləyir, nəsillərin mənəvi varisliyi prinsipini lazımınca qoruyur,öz maarifpərvər, ziyalı sələflərinin yolunu uğurla davam etdirirlər.

”Çox yüksək səviyyədə keçirilən bu tədbirdə Azərbaycan Respublikasının Ailə, Qadın vo Usaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar xanım Muradova, ” Rəşadət” ordeni olan ilk xanım Aydan Rəhimli və başqaları çıxış edərək qeyd etdilər ki, ölkəmizdə qadınlara həmişə böyük hörmət və ehtiram göstərilir. İctimai-siyasi, iqtisadı, mədəni, ümümiyyətlə, həyatımızın elə birzoruri sahəsini tapmaq olmaz ki, qadınlar orada mühüm rol oynamasin, hoyatda foal mövqetutmasinlar. Bütün bunlar heç şübhəsiz ki, ölkə rəhbərinin böyük diqqət və qayğisinin bariztocəssümüdür.

Çıxışlarda o da vurğulandı ki, istər keçmişdə, istərsə də müasir həyatımızda qadınların rolu gündən-günə artmaqdadır.

Cəmiyyətimizin inkişafında onlar mühüm yer tuturlar. Yüksəliş və tərrəqqi onların başlıca həyat meyardir. Azərbaycan qadınları hər zaman möhtərəm Prezidentimizin xətti-hərəkətlərini ardıcıl məqsədyönlü şəkildə davam etdirir və ona sadiq qalmaqdadırlar. Onların da çıxışları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

**Tədbirin bədii hissəsi incəsənət ustalarının maraqlı və zəngin ifaları ilə yekunlaşdı.Sonra tədbir iştirakçıları bir-biri ilə xatirə şəkli çəkdirdilər. Bütün bunlar-xoş xatirələr, zəngin təəssuratlarım qəlbimdə abədi olaraq qalacaqdir.**

**Təranə Hüseynova,**
**Ağcabədi rayonu Avşar kənd**
**N.Abdullayev adına 2 nömrəli tam**
**orta məktəbin direktor əvəzi**

*Rüstəm Hacıyev*

# ABŞ Ukraynaya yeni prezident axtarır

***ABŞ prezidenti Donald Tramın administrasiyası, Ukrayna prezidenti Volodimir Zelenskini əvəzləmək üçün bir neçə namizəd arasında seçim edir. Bild qəzeti yazır ki, bu namizədlərin içərisində ”Batkovşina” partiyasının lideri Yulya Timoşenko və ”Avropa həmrəyliyi” partiyasının lideri Pyotr Paraşenko da yer alıb. Namizədlər içərisində, hazırda Ukraynanın Böyük Britaniyadakı səfiri Valeriy Zalujnıda var.***

***”ABŞ hakimiyyətinin dörd nümayəndəsi Paraşenko və Timoşenkoyla bununla bağlı söhbət aparıblar. Həmçinin Ukrayna hərbi qüvvələrinin keçmiş komandanı Zalujnunun namizədliyi də gözdən keçirilir”- deyə Bild qəzeti yazır.***

***”Demokratiyanın beşiyi” açıq şəkildə, Ukraynanı Ştatların administrasiyasının istəyinə tabe olmağa məcbur edir. Görünən odur ki, Tramp Zelenski hakimiyyətdən getməyənədək Ukraynaya göstərilən hərbi yardımları bərpa etməyəcək.***

***ABŞ, əslində Ukrayna münaqişəsi ilə bağlı, Rusiyaya qarşı tədbiq edilən sanksiyaların sərtləşdirilməsindən qaçmaq istəyir. Bu barədə ştatların dövlət katibi Marko Rubio bəyan edib. O, əlavə edib ki, ABŞ hələ ki, avropalı tətəfdaşları ilə, antirusiya sanksiyalarının yumşaldılması məsələsini müzakirə etməyib:***

***”Hamıya aydın olmalıdır ki, ABŞ Rusiyanın qarşısını almaq üçün bütün alətlərə malıkdir. Lakin biz ümid edirik ki, vəziyyət o həddə çatmayacaq”***

***Donald Tramp nəyin bahasına olursa olsun Moskva ilə Kiyevi danışıqlar masasına oturtmağa çalışır. Əslində, dəfələrlə qeyd etdiyimiz kimi, ABŞ prezidentini nə Rusiya, nə Ukrayna, nə işğal olunan ərazilər, nə həkak olan insanlar, dağılan şəhərlər və s. qətiyyən maraqlandırmır. Siyasətçidən daha çox bişnesmen olan Trampı Ukraynanın nadir yeraltı mineralları maraqlandırır.***

***Prezidentin administrasiyası yaxşı başa düşür ki, avropanın ciddi-cəhdlə müdafiə etdiyi Zelenski hakimiyyətdə qaldıqca tərəflərin danışıqlara başlamasının həyata keçirilməsi mümkün olmayacaq. İkinci bir tərəfdən Putin də, hazırda müharibənin dayandırılmasında maraqlı deyil, çünki əsas məqsədlərinə çatmayıb. Rusiya Ukraynada Medvedçuk tipli öz adamlarını hakimiyyətə gətirmək istəyir. Üçüncüsü, Avropa İttifaqı da, ABŞ-ın təkbaşına Ukraynanın sərvətlərinə sahib olmasını istəmir.***

***Onlar da bu müharibədən öz paylarını əldə etmək niyyətindədirlər. Ona görə də, son on gündə Brüsseldə artıq dörd dəfə ”sxodka” keçirib Zelenskinin hakimiyyətdə qalmasına necə dəstək ola biləcəklərini müzakitə edirlər.***

***Bir sözlə dünya qarışıb, sanki ac-yalavac ”yalquzaq sürüsü”, can vetməkdə olan ”leş”i ələ keçirmək uğrunda bir-birilərini didib parçalamağa hazırlaşırlar...***

## Ermənilər Trampa şikayət edəcək: "Bakı xristianları həbs edib"



**Ermənilər Azərbaycan xalqına qarşı çoxsaylı cinayətlərin törədilməsində təqsirləndirilən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, həmçinin terrorçuluq, terrorçuluğu maliyyələşdirməyə dair maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşları ilə bağlı növbəti addımı atmaq ərəfəsindədirlər.**

Adalet.az xəbər verir ki , bununla bağlı erməni mediası məlumat yayıb. Amerika xristian liderlərinin koalisiyası prezident Donald Trampa məktub yazıb. ABŞ liderinə Azərbaycan hakimiyyəti tərəfindən saxlanılan 24 xristian girovu, 23 erməni və bir xristianın azad edilməsi üçün qətiyyətli addımlar atmağa çağırıb. Məktubun başdan ayağa böhtan xarakterli olduğu elə müraciətin ilk cümləsindən bəlli olur.:

”Biz inanırıq ki, iki il əvvəl 120 mindən çox xristian ermənini (Qarabağı könüllü tərk etmiş ermənilər nəzərdə tutulur) siz xilas edəcəksiniz. lakin o vaxtdan bəri 23 xristian erməni və bir xristian girovu işgəncələrə məruz qalıb. Məktubda deyilir: ”Ona ölkəni tərk etmək əmri verilib”.

**Xatırladaq ki, Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən erməni əsilli vətəndaşların etirafları, eyni zamanda dövlət ittihamçılarının sualları davam edir.**

**Əntiqə Rəşid**

## Emin Məmmədov: “İmsakda hansı qidalara üstünlük verilməlidir?”

**”Ramazan ayında iftar və imsak saatlarında düzgün qidalanmaq həm bədənimizin, həm də həzm sistemimizin sağlamlığını qorumaqda böyük rol oynayır”.**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan ”Sağlam radio”da Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov açıqlayıb.

Onun sözlərinə görə, iftarı xurma ilə açmaq, mədəmizi yumşaq şəkildə yeməyə hazırlayır:

”Həmçinin, bol su və ya təbii meyvə şirəsi içmək bədənimizin itirilmiş mayeni bərpa etməyə kömək edir. Yüngül şorbalar, məsələn, toyuq və tərəvəz şorbası, həzm prosesini yavaş-yavaş başladaraq mədə-bağırsaq sisteminə yüngül bir yüklə daxil olur. Mədəmizin əzələ qatları genişlənməyibsə, onu yeməklə doldurmaq həzmi pozar və qida qəbulundan sonra mədədə ağırlıq hissi yaradar, həzm müddəti uzanar. Eyni zamanda, probiotiklərlə zəngin məhsullar - məsələn, yoğurt və kefir - bağırsaq florasının tarazlanmasına dəstək verir və həzm prosesini asanlaşdırır. İftarda meyvə və tərəvəzlərin rəngarəngliyi isə bədənimizin ehtiyacı olan vitamin, mineral və liflə təmin edir”.

Mütəxəssis-ekspert qeyd edib ki, imsakda isə gün boyu enerjimizi qorumaq üçün tam taxıllı məhsullara üstünlük vermək vacibdir:

”Kəpəkli çörək, yulaf və qəhvəyi düyü kimi kompleks karbohidratlar uzun müddət toxluq hissi yaradır. Bunun yanında, yumurta, az yağlı pendir və toyuq kimi asan həzm olunan zülal mənbələri enerjimizi yüksəldir. Sağlam yağlar, məsələn, zeytun yağı, avokado və qoz-fındıq, həm mədəmizi rahatladır, həm də ümumi sağlamlığımızı dəstəkləyir. Yeməkləri kiçik porsiyalarda qəbul etmək, yaxşı çeynəmək və çox ədviyyatlı, yağlı qidalardan uzaq durmaq həzm sistemimizin işini asanlaşdırır. Balanslı bir menyu seçərək, həm karbohidrat, həm zülal, həm də vitamin və minerallarla zəngin qidaları qəbul etmək bədənimiz üçün ideal şərait yaradır”. E.Məmmədov bildirib ki, Ramazan ayında iftar və imsak saatlarında həzm sistemini gücləndirmək üçün sadəcə doğru qidaları seçmək yetərli deyil, həm də bədənimizi dinləyərək, ehtiyac duyduğumuz zaman uyğun nizam-intizamla qidalanmaq önəmlidir.

## Qafqaz ölkələrinə səfər edən turistlərin sayı azalıb

**Qafqaz ölkələrinə səfər edən turistlərin sayında azalma var.**

Adalet.az xəbər verir ki, Dövlət Turizm Agentliyinin hesabatında bildirilir ki, bu ilin yanvar-fevral ayında Azərbaycana 338 min 621 xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs səfər edib. Bu da bu, ötən ilin eyni dövrü ilə müqayisədə 0,6 % azdır.

O da vurğulanıb ki, təkcə fevralda ölkəyə 165 968 nəfər xarici və vətəndaşlığı olmayan şəxs gəlib. Bu isə 1 il əvvələ nisbətən 5,1 % azdır.

Bu iki ayda ölkəmizi ən çox hansı ölkələrin vətəndaşı ziyarət edib? -deyə soruşsanız hesabatda buna da cavab verilib: Azərbaycana ən çox turist 79 329 nəfər olmaqla Rusiyadan gəlib. 2-ci yerdə Türkiyə (63 107 nəfər), 3-cü yerdə isə Hindistandan (33 663 nəfər) qərarlaşıb.

Bundan başqa, il ərzində İrandan 31,4 min, Gürcüstandan 17 min, Qazaxıstandan 11 min, Pakistandan 10,9 min, Birləşmiş Ərəb Əmirliklərindən 9,7 min, Səudiyyə Ərəbistandan 9,6 min, Özbəkistandan 5,8 min turist gəlib.

Saytımızın topladığı məlumata görə, elə bu gün Ermənistan Turizm Komitəsi də 025-ci ilin fevral ayında Ermənistana turist səfərlərinin sayını təqdim edib:”2025 Fevralda Ermənistana 117 372 turist səfər edib”.

Komitə bildirib ki, əvvəlki ildə , yeni, 2024 -cü ilin fevralında Ermənistana turist səfər edənlərin sayı 127,241 nəfər olub .

Ötən illə nisbətdə bu il -2025 fevralında turistlərin sayında azalma olub.

Ermənistana ən çox turist səfəri Rusiya (39%), Gürcüstan (15%) və İrandan (8%) qeydə alınıb.

**Əntiqə Rəşid**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Tağı Sadiq yadigarı "Bir ömrün işığı"

Bəzən deyirlər ki, etibarsız dünyada yaşayırıq və hətta bunun üçün dəlil, sübut da tökürlər ortalığa. Fələyi də, dövranı da qınayırlar, ittiham edirlər. Bütün bunlar anlaşılandır. Çünki insanlar görə-görə, yaşaya-yaşaya bu nəticəyə gəliblər. Ataların təbirincə desək, "başına gələn başmaqçı olur".

Bəli, mənim onunla elə də sıx təmasım olmayıb. Sadəcə dəfələrlə məclislərdə qarşılaşmışıq. Özü də daha çox ədəbiyyatla, musiqi ilə bağlı məclislərdə və bir də aradabir telefon söhbətlərimiz olub. Tam səmimiyyətlə deyirəm :

- Bir süfrədə nə çörək kəsmişik, nə də çay içmişik. Sadəcə mənim onun duyumuna, ədəbiyyata, musiqiyə və bir də bu sahənin adamlarına göstərdiyi diqqətə bir heyranlığım olub. Mətbuatda barəsində hər cür yazılara rast gəlmişəm. O yazılar da dediyim özəlliyi heç vaxt kölgəliyə bilməyib. Çünki göz şahidliyi buna imkan verməyib. Üstəlik mənim "Ədalət" qəzetində, eləcə də digər mətbu orqanlarıda işıq üzü görən yazılarımla bağlı həmişə münasibət bildirib. Özü də ütüsüz münasibət. Yəni özünün təbirincə desək, gördüyü, duyduğu kimi sözünü deyibdir.

Bax, bütün bunlara görə o dünyasını dəyişəndə təəssüflənənlərdən biri də mən oldum. Həmin vaxt ancaq mərasimdə iştirak edib, bir də "Ədalət" qəzetində başsağlığı yazmağı bacardım. İçimdə isə ona sağlığında demədiyim bir fikir, bir söz gəzişməkdə idi. Elə bil ki, onu iş dünyamda kimsə tutub saxlamışdı, işıqlı dünyaya çıxmağa imkan vermirdi. Günlərin birində isə bu imkan öz-özünə yarandı. Səbəbi də yenə onun özü oldu, daha doğrusu sözü

Yaxın günlərin söhbətidi. Dostlardan birinin iş otağında oturub söhbət edirdik. O nə iləsə əlaqədar otağı tərk etdi və mən də darıxmamaq üçün onun kitab rəfinin önünə gəldim.

Və burada gözüm onun kitabına sataşdı. İcazəsiz-filansız kitabı götürdüm. Elə oradaca vərəqlədim. Və yazı-pozuya o qədər də bağlılığı olmayan dostumdan bu kitabı özümlə götürmək istəyimə icazə verməsini rica etdim. Sözümü yerə salmadı

İndi həmin kitabla baş-başa qalmışam. Kitaba ön sözü şairə Fəridə Ləman yazıbdır.

Kitabın müəllifi də Tağı Sadiqdir. Azərbaycanda çoxları onu Bakı Metropolitenin rəisi Tağı Əhmədov kimi tanıyıb. Amma söz adamları, musiqiçilər isə onu incə ruhlu, nəğməkar şair kimi də yaddaşlarına qeyd ediblər.

Respublikanın xalq artisti Mələkxanım Əyyubova və digər neçə-neçə tanınmış ifaçılarımız onun sözlərinə bəstələnmiş mahnıları həmişə böyük şövqlə ifa ediblər və edirlər. Mən də o mahnılardakı sadə, amma ruh oxşayan ritmi, ahəngi, eləcə də gənclik ovqatlı misraları həmişə maraqla dinləmişəm.

Hətta inanın ki, mahnının sözlərinin müəllifinin adı deyilməyəndə hansısa bir daxili instinklə onun məhz Tağı Sadiqə aid olduğunu hiss etmişəm. Elə indi oxuduğum kitabdakı şeirlər də mənim instinktimdə yanılmadığıma bir sübutdur. Çünki kitabdakı şeirlər eyni ruhun və həyata həmin o ruhun nəzərləri




ilə baxan, yanaşan bir ürəyin barı, bəhəridir. Lap sadə şəkildə desəm, sanki bu şeirlərin hamısı eyni qələmlə, eyni gündə, eyni saatda, eyni əllə, eyni ürəyin pıçıltıları kimi kağıza köçürülübdür. Həmin kağız üzərində olanları oxuyanda əvvəldə vurğuladığım gənclik eşqi dərhal boy göstərir. Sanki deyir ki, baxın, mən burdayam:

*Sənsizlik bilirsən necə çətindir,*
*Ürəyin nigaran qalmasın, gülüm.*
*Mənli olmaq sənin səadətindir,*
*Qaynasın bulaqlar, donmasın, gülüm.*

*Həyatın enişi, yoxuşu da var,*
*Hara getsən məni özünlə apar.*
*Sevənlər bir yerdə səadət tapar,*
*Sevən qəlblər heç vaxt solmasın, gülüm.*

*Boyu çinar kimi, sinəsi mərmər,*
*Sinədə bir cüt nar, o da təzə-tər.*
*Belin üzük kimi, görünmür kəmər,*
*Üstünü qocalıq almasın, gülüm.*

*Sadiqin həyatı sənə bağlıdır,*
*Çox əzab çəkibdir, sinədağlıdır.*
*Onu valeh edən sənli ağlıdır,*
*Sənsiz bircə günü olmasın, gülüm.*

Yəqin ki, şeiri oxudunuz və bu misraların müəllifini gözünüzün önünə gətirəndə bəlkə də bu şeiri həmin insanın görünüşü ilə nə qədər ziddiyyət təşkil etdiyini düşündünüz. Əslində isə Allah hər kəsin içində sevginin, xeyirxahlığın, lap böyük anlamda insanlığın cücərtilərini yaşadır. Sadəcə o cücərtiləri böyütmək, pöhrələndirmək isə şəxslərin özlərindən daha çox asılı olur.

Mən də tanıdığım Tağı Sadiqin həmin ruhun sahibi olduğuna birmənalı şəkildə əminəm və etdiyimiz söhbətlərdə onun ədəbi camiənin bəzən çözmədiyi, bəzən əhəmiyyət vermədiyi mövzuları da, yazıları da, özünəməxsus şəkildə necə incələdiyini bu gün də xatırlayıram. Hələ o vaxtlar özünə deməsəm də, düşünürdüm ki, Tağı Əhmədov əgər Tağı Sadiq olmasaydı, bəlkə də o məmur kimi daha sərt olardı. Görünür, uca yaradan onu Tağı Sadiq etməklə hardasa məmurluğu bir az yumşaldıb. Poeziya və musiqi onu sözün böyük mənasında insanlıqdan uzaqlaşmağa və yaxud insanlığı ucuzlaşdırmağa imkan verməyibdir. İnanmırsınızsa, bu şeiri də oxuyun. Görün bu misraların müəllifi nə qədər duyğusal, nə qədər həlim və həssas imiş:

*Qara gözlər, xumar baxış süzülü,*
*Sədəf dişlər incə kimi düzülü.*
*Dərib iyləsəydim bu incə gülü*
*Can alırdı bu ceyranın gözləri,*
*Can alırdı gözəlimin sözləri.*

*Oğrun-oğrun, ahəstəcə baxırdı,*
*Gözlər süzgünləşib hərdən axırdı.*
*Sinəmi yandırıb, yaman yaxırdı,*
*Can alırdı bu ceyranın gözləri,*
*Can alırdı gözəlimin sözləri.*

*Köynək qabarmışdı altda bir cüt nar,*
*Qəsdən geyinmişdi köynəyini dar.*
*Baxıb kövrəlirdim edirdim qübar,*
*Can alırdı bu ceyranın gözləri,*
*Can alırdı gözəlimin sözləri.*

*Busəsi şirindi sözləri kimi,*
*Gözləri ceyranın gözləri kimi.*
*Burda gözəl yoxdu bu pəri kimi,*
*Can alırdı bu ceyranın gözləri,*
*Can alırdı gözəlimin sözləri.*

*Əlləri əlimdə, üzüm-üzündə,*
*Baxıram, doymuram gözüm-gözündə.*
*Hürkək ceyran təki deyil özündə,*
*Can alandı bu ceyranın gözləri,*
*Can alırdı gözəlimin sözləri.*

Və mən bu kitabdakı şeirlərin demək olar ki, hamısını oxudum və bir daha əmin oldum ki, bu şeirlər birbirini sanki tamamlayır. Bir-birinə sanki yaşıl işıq yandırır ki, o şeir də kağıza köçürülsün, o da oxucuya, dinləyiciyə çatdırılsın. Deməli, bu da onu göstərir ki, Tağı Sadiq sözlə, qələmlə baş-başa qalanda bir növü istirahət edirmiş, yüngülləşirmiş, təzələnirmiş. Ona görə də ancaq özünü, öz duyğularına, öz baxışlarını və öz sevgisini poeziya nümunəsinə çevirib.

Bu şeirlər müəllifin bizim hamımızın daha çox özünə yazdığı, özünə ünvanladığı məktublardı. Ona görə də mən kitabdakı şeirləri oxuyanda daxili bir əminliklə özümözümə pıçıldadım:

- Tağı Əhmədov məmur kimi, rəis kimi, valideyn kimi necə işləyib və nələr qazanıb, bunlar zaman-zaman unudulacaq. Amma Tağı Sadiqdən "Bir ömrün işığı" olan sözlərin hamısı da olmasa müəyyən hissəsi mütləq qalacaqdır. Çünki bu sözlər musiqilidir, düşündürücüdür, inandırıcıdır. Deməli, deyilən sözlər həqiqətən yadigardır. Yadigarlar isə unudulmur.

Aydın Bağırov

# Məşqçilərimizin on illərdir çarəsini tapa bilmədiyi dərd



Azərbaycan Premyer Liqasında komandaların turnir cədvəli ilə yanaşı bir siyahı da var ki, o da daim maraqla izlənilir.

Bombardirlərin siyahısı...

O siyahı həm də Azərbaycan futbolunun aynasıdır. Yəni ora bax və özünü gör. Bu gün futbol adına nə günə düşmüşük, özümüzə əl gəzdirmərsək, daha hansı kökə düşəcəyik, bax, bunun cavabı həm də o aynanın arxasında gizlənən suallardadır.

Mətləbə keçim.

Azərbaycanın yüksək liqasında bu gün axşam 26-cı tur arxada qalacaq. Yarışı keçirən Peşəkar Futbol Liqasının saytında indiki ana qədər bombardirlər siyahısında ən çox vuran (5-11 arası) 16 oyunçunun adı yer alıb.

O 16 oyunçu arasında isə cəmi-cümlətanı ikicə nəfər azərbaycanlı var...

16 nəfər arasında cəmi 2 azərbaycanlı...

Biri hücumçu Nəriman Axundzadədir ki, o da siyahıda 7 qolla yalnız 8-cidir, o birisi isə 5 qolla həm müdafiəçi, həm yarımmüdafiəçi olan Toral Bayramovdur ki, 11-ci yeri tutur

Siyahının ilk yeddi pilləsində bir nəfər də olsun azərbaycanlı futbolçunun adı yoxdur. Leandro, Sekidika, Felipe Santos, Coy-Lens Mikels, Davit Volkov, Salifu Suma, Pavol Safranko - göründüyü kimi, hamısı qeyri-azərbaycanlıdır...

Acınacaqlı və düşündürücü faktdır.

Statistikaya əsaslanıb fikir yürütsək, bu gün Premyer Liqamızda ən yaxşı hücumçumuz "Qarabağ"ın 20 yaşlı futbolçusu Nəriman Axundzadədir. Axundzadə bu mövsüm 7 qol vurmaqla yanaşı 8 qolun ötürməsi edib. Yəni 15 qolda birbaşa iştirakı olub. Bu, müsbət haldır. Amma o da qeyd edilməlidir ki, Azərbaycan çempionatı bir futbolçunun potensialının tam göstəricisi sayıla bilməz.

Elə həmin Nəriman son 1 ildə - bu mövsüm iştirak etdiyi 8 avrokubok oyununda nə 1 qol vura, nə də 1 qol ötürməsi edə bilib. Avrokubokda sonuncu dəfə ötən ilin fevralında "Braqa" ilə oyunda fərqlənib

Nə qədər ki, hələ çox gəncdir, xarakter nümayiş etdirib CV-sindəki bu neqativi düzəltməlidir. Yoxsa karyerasının sonuna qədər görüb-görəcəyi ən yaxşı çempionat elə Azərbaycan liqası olacaq.

Qeyd edilən bu bir fakt bir futbolçumuzun timsalında hücumçularımızın beynəlxalq səviyyəli yarışda qol vurmaq problemini göstərir.

Məsələn, digər "Qarabağ"lı Musa Qurbanlı. Azərbaycan karyerası uğurlu olsa da, İsveçdə möhkəmlənə bilməyib geri qayıtdı. Son oyunlar bir balaca toparlansa da, bumövsümkü statistikası (Premyer Liqada 15 oyun, 4 qol) hələlik gələcək üçün müsbət siqnal vermir. Amma bu mənfi gedişi düzəltmək bacarığına malik oyunçudur.

Daha təcrübəli olan Ramil Şeydayevin isə artıq hətta daxili yarışda belə komandasına ("Neftçi"yə) faydası dəymir. Bir vaxtlar Rusiya milliisi ilə Avropa çempionu (U-17) və Avropa finalçısı (U-19) olmuş 28 yaşlı hücumçu bu mövsüm 22 Premyer Liqa oyununda cəmi 3 qol vurub.

Daha nə deyəsən?

Əsas heyətdə niyə oynadasan?

Yerli hücumçularımız digər klublarımızda da var. Lakin adları çəkilən bu 3 oyunçu xüsusi ona görə vurğulandı ki, əsas milli komandanın oyunçularıdır.

Sabah DÇ-2026-nın seçmə mərhələsində Fransa/Xorvatiya, Ukrayna, İslandiya kimi rəqiblərimiz olacaq.

Hazırda legioner həyatı yaşayan Mahir Emreli isə bir vaxtlar Azərbaycanda olduğu kimi, indi Almaniyada bombardirlik uğrunda yarışmalı idi. Lakin onunla bağlı da durum yaxşı sayılmamalıdır. Bu il zədəsinin olmamasına baxmayaraq, 3 matçda "Nürnberq"in iştirak ərizəsinə düşməməsi, məşqçisi Kloze ilə arasında narazılıq olması barədə davamlı məlumatlar həm narahatlıq, həm də məyusluq yaradır.

Bütün bunlar, necə deyərlər, nöqsanların yalnız görünən tərəfləri - yəni nəticədir.

Səbəblər isə daha dərindir və Azərbaycan futbolunda onilliklərdir elə möhkəm kök salıb ki, yerli mütəxəssislərimiz də, futbol sistemi də onu həll etməkdə çarəsizdir. Söhbət həm uşaq futbolundakı, həm də peşəkar klublardakı məşqçilərdən və idarəçilərdən gedir...

Bəs, bu vəziyyəti AFFA-nın İnkişaf Strategiyası düzəldə bilərmi?

Şair demiş,
Bəlkə də hə,
bəlkə də yox.

Odur ki, illəri bir-birinə calaya-calaya yenə gözləyək.

İl demişkən. Bizim gənc futbolçularımızın həmyaşıdı 20 yaşlı özbək müdafiəçi Xusanov altıca ayın içində əvvəl Fransa Liqa-1-də möhkəmləndi, sonra da İngiltərə Premyer Liqasına getdi. 3-5 gün əvvəl isə "Mançester Siti"də fevral ayının ən yaxşı oyunçusu seçildi.

Özbək futbolunun yetirməsi olan hücumçu Eldor Şomurodov isə ötən 4-cü günü Avroliqanın 1/8 finalında qələbə qolu vurub.

Eldor "Roma"da oynayır, qəhrəmana çevrildiyi oyun isə "Atletik"lə matç idi...

Sağ olun.



*Əlisəfdər HÜSEYNOV*

# "GƏL, GÖR MƏNİ EŞQ NEYLƏDİ"

## (Maestro Niyazinin və Həcər xanımın unudulmaz xatirəsinə)

**(Sənədli hekayə)**

Həcər xanım içəri girməzdən əvvəl palatanın qapısını yavaşca döydü - bu, artıq vərdişə çevrilmiş bir jest idi: Niyazi öz hücrəsinə çəkilib nə iləsə məşğul olanda Həcər xanım həmin səmtə yön alırdısa bunu mütləq hansısa bir işarə ilə bildirirdi - ya boğazını arıtlayırdı, ya da qapını, yaxud divarı yüngülcə taqqıldadırdı. Bu dəfə Niyazinin icazə mesajını gözləmədən qapını açıb içəri keçdi, çünki buna lüzum görmədi: təxminən bir ay əvvəl qəfildən halı pisləşən, nəfəsi kəskin şəkildə daralan əri yenə də köməksiz uşaq kimi ona möhtac vəziyyətdə idi.

İçəri girən kimi əlindəki zənbili masanın üstünə qoyub, sol tərəfdəki çarpayıya tərəf gəldi, başını azca divara tərəf çevirərək yuxuya getmiş Niyazinin rəngi qaçmlş sifətinə, batıb az qala bir-birinə keçən ovurdlarına, arıqladığına görə sanki bir az uzanmış çənəsinə baxdı və dünyada bəlkə də hamıdan çox sevdiyi bu adamı neçə il əvvəl qəbirin qırağından geri qaytarıb ikinci həyat verdiyinə görə ürəyində Allaha növbəti dəfə təşəkkürünü bildirdi. Sonra uşaq vaxtı eşitdiyi nağıllardakı kimi əyilib sol əlini çarpayının özünə tərəf olan kənarına, sağ əlini o biri tərəfinə qoyaraq ərinin buz kimi soyuq yanağından öpdü

Birdən-birə nəyə görəsə uşaq kimi kövrəldi

Əmisi Üzeyir bəyin "Knyaz" deyə çağırdığı təkəbbürlü Niyazi yataqda xəstə və yuxulu vəziyyətdə məsum, köməksiz, aciz uşağa bənzəyirdi - həmişəki səbirsiz, cığal, yeri düşəndə lap elə Həcərin özünü də ilan kimi sancan Niyazidən əsər-əlamət qalmamışdı. Həcər xanım ağzı azca açıq vəziyyətdə ağır-ağır nəfəs alan ərinin üzündəki o məsum ifadəyə baxa-baxa fikirləşdi ki, adamlar yatmazdan əvvəl gün ərzində xoş-naxoş üzlərinə çəkdikləri maskaları soyunduqlarına görə sən demə yuxu insanların çöhrəsini durulaşdırırmış və kiminsə ürəyinin əslində necə olduğunu bilmək üçün onun sifətinə yatdığı yerdə baxmaq kifayət imiş.

Niyazi yuxuda yüngülcə qımıldandı və həmin o andaca neçə il əvvəl gənc Həcərin ağlını başından alan, ürəyinə ox kimi sancılan o uşaq təbəssümü yenə gəlib qondu sifətinə.

Ərinin ağır vərəmə tutulub ölümlə əlbyaxa qalması o vaxt çoxları üçün gözlənilməz olsa da, Həcər xanım bu dəhşətli olayı özünə xas olan bir soyuqqanlıqla qarşılamışdı, çünki sısqa bədənli Niyazi onun gözlərinin qabağında bəlkə də hər gün sağlamlığından misqal qədər nə isə itirirdi. Məgər qızeti bir neçə dəfə qatlayıb onun yırtıq ayaqqabılarının içinə qoyan, yeganə kostyumunun ora-burasını düzəldib ütüləməkdən rəngdənrəngə salan Həcər deyildimi? Niyazi cavanlığında ağrlıqqaldırma idmanı ilə məşğul olsa da, yağışa, soyuğa hassas, dözümsüz idi, üstəlik öz səhhətinə, yeyib-içməyinə də o qədər fikir verən deyildi. Gec-tez bunun fəsadları baş qaldırmalı idi. Qaldırdı da. Əvvəlcə aramslz öskürək, qızdırma, iştahsızlıq, halsızlıq, sonra da həmin o məşum gün - əl-üzünü yumaq üçün vanna otağına keçəndən az sonra içəridən gələn qeyri-adi öyümə, hayxırma səsləri Həcər xanım özünü vanna otağına atanda gördüyü mənzərədən dəhşətə gəldi - Niyazi əllərini əl-üzyuyanın vannasına dirəyib qalmışdı, döşəmə, vanna al qana boyanmışdı. Həcər xanım başa düşdü ki əri qan qusur. Özünü ayaq üstə zorla dayanmış, rəngi divarın rəngi kim ağarmış Niyaziyə çatdırlb qoluna girdi və demək olar ki, sürüyüb birtəhər çölə çıxartdı. Özünü itirmişdi, bilmirdi nə etsin. Yaxşı ki, hay-həşirə qonşular tökülüşüb gəldilər və xəstəni təcili



yardımla xəstəxanaya çatdırdılar. Səhəri gün müayinələrdən, rentgendən, analizlərdən sonra malum oldu ki, 23 yaşlı gənc vərəmin ən ağlr formasına tutulub.

O vaxt xəstəxana ilə ev arasında girinc qalan Həcərin nələr çəkdiyini bir Allah bilirdi.

Dava-dərmandan sonra Niyazinin vəziyyəti gah yaxşılaşır, gah da qəfildən pisləşirdi. Bir yandan da onun heç xəstəyə yaraşmayan clrtqozluğu, vasvasılğı. Həcər xanlm hiss edirdi ki, Niyazini dəhşətli xəstəlikdən daha çox, Həcərin ona münasibətinin dəyişəcəyi, özünü qorumaq üçün ondan uzaq dura biləcəyi ehtimalı narahat edir. Bunu heç gizlədə bilmirdi də - Həcəri yoxlamaq üçün zarafata salıb xahiş edirdi ki, gətirdiyi yeməkdən bir qaşıq ona verəndə bir qaşıq da öz ağzına qoysun.

Evə buraxılandan təxminən 3 həftə sonra Niyazinin halı yenə qəfildən pisləşdi. Bu dəfə işə yuxarıdan qarışdılar, onu təcili Moskvaya - Kreml xəstəxanasına göndərdilər. Oraya çatan kimi xəstəni əməliyyat stoluna uzadıb ağ ciyərinin çürüyərək funksiyasını tam itirmiş hissəsini kəsib götürdülər və bununla da onun başının üstünü kəsdirib son həmlə üçün girəvə axtaran ölüm kabusu çəkilib getdi. Amma həkimlər qəti şəkildə tapşırdılar ki, xəstə daim həkim nəzarətində olmalı, özünü soyuqdan qorumalı, yaxşı qidalanmalı, mütamadi şəkildə kurort-sanatoriya müalicəsi almalı və ən başllcası, suqareti tərgitməlidir

Həcər xanım əvvəl qolundakı saata, sonra masanın üstündəki zənbilə baxdı. İstədi səs-hənir salıb ərini oyatsın, amma qıymadı. Çönüb Niyazinin aşağı sürüşdürdüyü odeyalı onun barmaqları arasından ehmalca çıxardıb yuxarı çəkdi. Əyilib balışını rahatlamaq istəyəndə əli kağızla təmas duydu. Balışı azca qaldırıb bir neçə not kağızını və siqaret qutusu görəndə elə bil başına bur qazan qaynar su tökdülər. Hirsindən rəngi ağardı. Əvvəl istədi kağızları siqaret qutusu ilə bir yerdə əzib zibil qabına atsın. Özü də bunu elə eləsin ki, Niyazi ayılıb, necə deyərlər, cinayət başında yaxalandığını görsün. Amma dərhal da bu fikirdən vaz keçdi. Bu dünyada Niyazinin xasiyyətinə Həcər qədər dərindən bələd olan ikinci bir adam yox idi və yaxşı anlayırdı ki, belə vəziyyətdə Niyazi ilə zarafat eləmək olmaz, əri elə bir vay-şüvən sala bilər ki, xəstəxananın bütün personalı belə tökülüşüb gəlsə, "sülh sazişi" imzalamaq, Niyazinin tərs damarını avandlna çevirmək mümkün olmaz.

Masanın yanındakı stulda oturub yenə fikrə getdi

Niyazi sərt, prinsipial, opponentlərinin dili ilə deyilsə, qırmızı adam idi. Sözü açıq, birbaşa və kəskin şəkildə deməyi, qəfil, gözlənilməz gedişlər etməyi xoşlayırdı. Onu doğru saydığı yoldan, inandığı fikirdən döndərmək müşkül məsələ idi. Həcər bilirdi ku, 30-cu illərin axırlarından ərinə qarşı qarayaxma, böhtan kampaniyalarının başlamasında onun xarakterindəki bu xüsusiyyətlərin də payı var. Niyazi hamının xoşuna gəlmək üçün "rahat", "yaxşı", "xeyirxah" adam rolu oynaya-oynaya öz simasını itirənlərdən deyildi, sözü kimlərinsə xoşuna gəlmək üçün yox, fikrini, mövqeyini bildirmək üçün deyirdi.

Niyazinin düz sözü təbii ki, acı olur, çoxlarının ürəyinin başına bıçaq kimi batırdı, çünki onların saxta şöhrətə, xalturaya aparan yollarını kəsir, zəif əsərlərlə musiqimizi zibilləmək istəklərini, arzularını ürəklərində qoyurdu. İş bununla bitsəydi nə vardı ki? Amma bu dartışmaların sonu həm də o olurdu ki, "Niyazidən narazılar" müxalifəti kimi bir qaraguruh yaranır, formalaşırdı. Ondan əli yanıqlı qalan bu zavallılar intiqam almaq, hayıf çıxmaq üçün Niyazinin gündən-günə artan nüfuzunu, şöhrətini öz murdar caynaqları ilə cırmaqlamaq üçün hər yola əl atır, onun daxili azadlığına, sərtliyinə cürbəcür əcaib donlar geyindirib dövriyyəyə buraxır, hətta imzalı-imzasız üzü yuxarı yazırdılar: guya Niyazi paxıldır, heç kimi özündən qabağa buraxmır, işlədiyi kollektivlərdə ayrı-seçkilik sallr, milli ədavəti qızışdırır, erməni millətindən olanlara təzyiq göstərməklə xalqlar dostluğu ideyasına xəyanət edir. Niyazinin kölgəsindən belə çəkinən, nəinki Azərbaycan, ittifaq, hətta dünya miqyasında tanınmasını özlərinə dərd edən, "Adımı sənə qoyum, səni yana-yana qoyum" prinsipi ilə guya Niyazi ilə mübarizə apran bu çuğulçular müharibə illərində xüsusilə fəallaşdılar, onun Sovet ordusu tərkibində Cənubi Azərbaycanda olarkən orada yaşayan xalasına baş çəkməsinə, Bakı sovetində təşkil olunan konsertdə hərbi paltarda dirijorluq etməsinə siyasi don geyindirməkdən, içki düşkünü, gənc bəstəkar Fikrət Əmirovun bacısının ailəsini dağıdan məişət pozğunu kimi "ifşa" etməkdən həzz alırdıar. Bu şər, böhtan kampaniyası bir ara elə geniş vüsət aldı ki, Niyazinin işini yoxlamaq üçün xüsusi hökumət komissiyası yaradıldı və həmin komissiyanın hərtərəfli, obyektiv araşdırma aparmadan tələmtələsik gəldiyi şübhəli qərara əsasən Niyazi tutduğu bütün vəzifələrdən azad edildi, müxtəlif təşkilatlarla bağladığı müqavilələr ləğv olundu.

Niyazi xaraktercə möhkəm adam olsa da, hər halda ürəyi daşdan deyildi və bütün bu əvəzçıxma oyunları kövrək səhhətinə, sağlamlıq durumuna təsirsiz ötüşmürdü Həmin o çətin, ağır günlərin birində Həcərin yanlnda "Axı mən bunlara neyləmişəm? Məndən nə istəyirlər?" - deyə az qala inilti ilə şikayətlənəndə ürəyində dediyi sözləri Həcər xanım yaxşı xatırlayırdı: "Bunlar sının ruhunu gəmiririb məhv etmək istəyirlər, Niyazi. İstəmirlər sən indiki sən olasan, bu geniş, böyük dünyada yaşayasan".

Amma nə qədər əlləşsələr də Niyazini sındırlb bayram eləmək onlara nəsib olmurdu ki, olmurdu. Çünki qeyri-adi istedadı, bu istedadı ona verən Allahı və Həcəri vardı. O vaxtlar Həcər Niyazini tək buraxmır, mənəvi ağrılarını azaltmaq üçün müxtəlif, yeri gələndə hətta təlxək roluna girib ərinin fikrini yayındırır, ona ürək-dirək verirdi. Amma iş gəlib vulqar ifadələrlə Niyazini açıq-aşkar təhqir etmək məqamına çatanda dözə bilmədi, ərinin əsəb sistemini korlayan bütün bu oyunlara son qoymaq üçün axırıncı çarəyə əl atdı - gecə Niyazi yatandan sonra mətbəxdə oturub lampa işığında respublikanın birinci şəxsinə böyük bir məktub yazdı. Surətini saxlamasa da, az qala hər sözünü əzbər bildiyi o məktub öz işini gördü - Niyazinin qanına, canına susayan müxalifət geri otuzduruldu

Həcər xanım bilirdi ki, nə qədər əri ayaq üstədir və xasiyyətini dəyişməyəcək, bu "müxalifət" də gen dünyanı onun başına dar eləmək üçün altdan-altdan işini görəcək, yaranmış fasiləyə öz murdar caynaqlarını itiləmək şansı kimi baxacaq. Ona görə də hər vasitə ilə ərini qorumağa, rəftarı, xoş sözləri, zatafatları ilə Niyazinin ətraflnda bir sipər yaratmağa çalışırdı. Sonralar şöhrətin ən yüksək zirvəsinə yüksələndən, nəinki SSRİ-də, hətta dünyada ən yaxşı dirijorlardan biri kimi ad çıxarandan sonra belə Niyazi Həcərsiz ötüşə bilmirdi. Hamı bu xanıma xoşbəxt, bəxti gətirmiş qadın kimi baxırdı. Bir əhvalat heç vaxt yadından çıxmayacaqdı.

**(Ardı var)**

---

### *Türkiyə PKK və İŞİD-ə qarşı mübarizə mərkəzi yaradır*

**"Region ölkələri "İŞİD" terror qruplaşmasına qarşı birgə fəaliyyət göstərmək və bu məqsədlə əməliyyat mərkəzi yaratmaq barədə razılığa gəliblər".**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan deyib. Onun sözlərinə görə, terrorçulara qarşı birgə mübarizə vacibdir: "Biz region ölkələri olaraq İŞİD-ə qarşı mübarizədə qərarlıyıq. Türkiyə uzun müddətdir bu mübarizəni öz tərəfində aparır. İŞİD təkcə bir ölkəyə deyil, regionun bir çox dövlətinə zərər vurduğundan qruplaşma ilə təkbaşına mübarizə aparmaq çətindir. Ona görə də bizim bir araya gəlib güclü platforma yaratmağımız vacib idi. İndi biz bu platformanın yaradılması istiqamətində ilk addımı atmışıq. Bunun başlanğıcı birgə əməliyyat mərkəzinin yaradılması olacaq". Fidan əlavə edib ki, PKK regional problem olduğundan ona İŞİD-ə qarşı tətbiq olunan metodologiya və tədbirlərlə yanaşılmalıdır: "PKK Türkiyədə bir kvadrat metr əraziyə nəzarət etməsə də, Suriyanın üçdə birini işğal edib və enerji qaynaqlarına nəzarət edir. İraqda İraq Kürdüstanında 700 kəndi, Sincar bölgəsini və bəzi başqa əraziləri işğal ediblər. Yəni bu, təkcə Türkiyənin problemi deyil".

**Qeyd edək ki, birgə əməliyyat mərkəzinin yaradılmasında Türkiyə, Suriya, İordaniya, İraq və Livan iştirak edəcək.**

### *Vətəndaşlara geri qaytarılan ƏDV-nin məbləği açıqlandı*

**Bu ilin yanvar-fevral aylarında Azərbaycanda pərakəndə ticarət və yaxud ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərin göstərdiyi tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 30,7 milyon manatdan çox hissəsi fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**

Adalet.az bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir. Məlumata görə, "ƏDV geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib. Bundan başqa, "ƏDV geri al" layihəsinin əhatə dairəsinin genişləndirilməsi nəticəsində fiziki şəxs olan istehlakçıların ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada aldığı yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsinin qaytarılması prosesi də davam etdirilir. Ötən 2 ayda nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin qaytarılan məbləği 6,2 milyon manata yaxın olub.

## *Torpağı Vətən edir şəhidlər*

**Torpaq ucsuz-bucaqsız bir məkandır. Ancaq bu torpağa Şəhid qanı töküləndə, torpaq qanla yoğrulanda müqəddəsləşir, adı Vətən olur torpağın...**

Şəhidlər Vətən adlı torpağı sərhədsiz bir kişi sevgisi ilə sevirlər. Onların Vətənə olan sevgiləri Torpaqdan da böyük olur.

Şəhidlər ölmür, ölümü ayaq altına, yerə yıxırlar. Şəhidlər ölümün üstünə çıxırlar. Şəhidlər ölümü əzib, boynunu polad məngənə kimi bərk-bərk sıxırlar. Vətən, Torpaq yolunda dünyanın ən əziz neməti olan cavan candan keçir şəhidlər. Şəhidlər qanları ilə sərhəd çəkirlər, canlarında Vətən əkirlər...

Ölümsüz ölmə gedir şəhidlər. Onlar bilirlər ki, Torpaq üçün ömrə əlvida demək yox, əbədi yaşamdır bu. Şəhidlər qanları, canları ilə anlayırlar ki, sabah qoynunda əbədiyata qovuşacaqları Torpaq üçün ölməyə dəyər. Çünki bu ölüm qan bahasına, Torpağa olan sonsuz övlad sevgisindən irəli gəlir.

... Şəhidlərin anaları da əsl qəhrəmandırlar. Onlar göz qırpmadan, dünən bətnlərində isti yuvada bəslədikləri oğulları, bu gün savaşa, ölüm-dirim mübarizəsinə yollayırlar. Və sabah oğulları üçrəngli bayrağımıza bürünüb şəhid kimi geri dönəndə analar ağlamır, bayrağı öpür, başları ilə ovundururlar. Ölməz şəhidlərin kişi qeyrətli anaları Vətən sağ olsun deyirlər. Oğulları şəhid olan analar Vətənə təsəlli verirlər...

Analar torpaq, Vətən üçün dünyaya Oğul, Qeyrət gətirirlər. Analar kişi doğur, oğul doğur. Oğullar Şəhid olur. Ana Torpaq, Vətən üçün oğullar şirin ömürdən, keçirlər. Onlar ölməzliyi seçirlər. Oğullar bilirlər ki, sabah analar ağlamayacaq, ürəkləri dağlamayacaqlar.

**Ağlamır analar. Ana, Şəhid anası ağlamaz. Vətənə oğul olan kişinin fədakar, qəhrəman anası ağlamaz...**

**Adil Misirli**

# Ürəyini şeirə büküb vətəndə basdıran şair

## (Famil Mehdi haqqında)

**... Və bir gün qayıdacağıq o yerlərə, deyirdi şair. Hansı ki o yerlərdə şeirlərinin havası qalıb. O torpağa çöküb misrasının göz yaşları. O yurd bağrına basıb şeirlərini üsyanını, naləsini... Şeirlərini oxuyanda bir az onun kimi mətin olmaq istərdim. Bir az dözümlü, bir az cəsarətli və bir az da Vətən... Vətən olmaq... Bu, bəlkə də şairlikdən, alimlikdən, müəllimlikdən də ağır işdir-Vətən olmaq. Amma Famil Mehdi vətən adam idi. Sözün əsl mənasında vətən adam!**

Ürəyini şeirə büküb vətəndə basdıran şair. Bu küləklər şəhərində əllərimi Xəzərin sinəsinə tərəf qaldırıb üsyan edəndə elə bilirəm ki, küləklər şeirlərinizi üzümə çırpır... Üsyan axı sizin şeirlərdədir. İnsanlar çağırışı yalnız bağırtı hesab etdiyi halda, haqq səsinizi poeziyaya çevirdiniz, vətən adam.

Əslində bütün yolların gözü var. Yollar da gözləyir. Bir dönüş gözləyir, bir zəfər gözləyir, bəlkə də bir şeir gözləyir... Bu dönüş oldu, bu zəfər oldu. Siz görmədiniz, əminəm ki, ruhunuz duydu

*Amandır, - kef nədir-sormayın məndən,*
*Soruşun: ürəkdə yaran necədir?*
*Səngərə girməklə aran necədir?*



*Gözəl bir ölümlə aran necədir?*
*Mən də hayınıza hay verim: - Qardaş,*
*Ürəyimcədir!*
*Ürəyimcədir!*

Əslində bu "ürəyincə" olan dərdinə sarılmışdı sarsılmaz şair. Hələ ölümün nazını çəkməyi də vardı.

Özü deyirdi ki, "Gözəl bir ölümlə aran necədir". Əlbəttə, Qarabağın işğal olunduğu bir vaxtda Famil Mehdi sentimental sevgi şeirləri yaza bilməzdi. Artıq onu məmləkətinin və millətinin taleyi düşündürürdü. Bir vücudda milyonlarla insanın dərdini daşımaq heç də asan deyildi. Nə yazıq ki zamanla bu yük Famil Mehdi kimi bir ziyalını bizdən alıb çiynində ədəbi evinə yola saldı.

***Vətənli ölülər, ölüykən diri,***
***Vətənsiz dirilər, diriykən ölü.***

Famil Mehdi yaradıcılığında Vətən mövzusu, vətən anlamı xüsusi mövqe tutur. Onun üçün vətənsiz yaşamaq mənən məhv olmaq qədər əzablı həyat idi. O, vətəni hamı kimi sevmirdi. Onun yurduna məhəbbəti şablonları sındırırdı. Şairin sevgisində vətən səngərdən göyə qalxırdı.

*Qalx, düşmən əlində Vətən çırpınır,*
*Qayaya çırpılır, daşa çırpılır,*
*Qalx, qovaq göylərdən bu qara yeli,*
*İrəli, irəli, ancaq irəli!*

- Bəli, o vətən ki bir zamanlar bizim beşiyimizin qoyulduğu torpaqdır. Həmişə torpağı üçün, milləti üçün yarpaq kimi əsirdi. Nə biləydi ki, zamanla vətənin dərdinə əsir düşəcək.

***Susacaqsa könül tarım,***
***Simlərini dartıb qırım.***
***Millətim bədbəxtsə, Tanrım,***
***Sən məni xoşbəxt eləmə!***

O, Azərbaycanı məmləkət olaraq sevdi. Milləti isə sözün əsl mənasında xalq kimi görüb bağrına basdı. Hər addımında xalqı üçün yandı Famil Mehdi. Amma biraz da nisgilli köçdü bu dünyadan.

Əlbəttə, bir ziyalı kimi Famil Mehdi bu nisgilin ağırlığını duyurdu. Amma bunu xalqının məzlumluğu kimi görürdü. Üsyankar bir şairin xalqını belə görməyi onun üçün dözəlməz idi. Nə yazıq ki, dözülməzliyə ömrü də, özü də dözmədi. Onun haqqında danışmaq bir vətən övladı kimi nə qədər qürurvericidirsə, bir o qədər də kədərlidir. Çünki xalqın Famil Mehdi kimi ziyalıya və ziyalılara ehtiyacı olduğu bir vaxtda o,dünyanı əbədi tərk etdi.

Gözləri yolda qalan yolların gözünü yolda qoymaq dəyərli ziyalı, üsyankar şair və hər şeydən öncə vətən oğlu Famil Mehdinin işi yox, taleyin işi idi.

Və bir gün qayıdacağıq o yerlərə, deyirdin, şair. Qəlbimizdəki o azadlıq eşqi parladı, Azərbaycanı son damla qanımıza kimi bütöv görmək istədik.

**Ruhunuz şad olsun, əziz Famil Mehdi. Biz o yurda qayıtdıq!**

**Əntiqə Kərimzadə**

# Sabah oxunacaq tariximiz

**Məşhur bir ifadə var. Daha doğrusu, bu, həm də şeir misrasıdı. Vurğulanır ki, "deyilən söz yadigardır".Deməli , yazılan söz də yadigardır. Çünki yazı sənəddi, yaşayan, təqdim edən, bilgi verən sənəd. Biz tarixi həm də yazılardan öyrənirik, yazılardan bizə gəlib çatır kimliyimiz, hardan gəlib hara çatmağımız. Bax, bu mənada 1988-ci ilin fevralından başlayan və 30 ildən artıq bir zamanı əlimizdən alan, bizi qaçqın, köçkün edən, yurdsuz-yuvasız qoyan bir faciənin araşdırılması, öyrənilməsi üçün də tarixə baş vururlar. Elə indinin özündə də. bundan sonra da baş vuracaqlar. Ona görə də Qarabağ savaşının tarixini, onun qazilərini, şəhidlərini tanıtmaq, tarixiləşdirmək hər bir qələm adamının müqəddəs vəzifəsidir.**

Bu mənada yanaşanda qeyd etmək yerinə düşər ki, Azərbaycanda - yəni bizim söz arenamızda şəhidlərimizlə bağlı qazilərimizlə əlaqədar bir-birindən maraqlı və bir-birindən duyğusal, həm də həqiqəti ifadə edən bədii nümunələr var. Onları yazanların bəziləri savaşın iştirakçılarıdı. Yəni bunlar şahid yazılarıdı, iştirakçı yazılarıdı. Bir qismi baş verənlərin izləyiciləri, o hadisələri doğmalarından, dostlarından bütün təfərrüatları ilə öyrənənlərdi. Üçüncü qismi isə ürəyi digər həmkarları kimi Vətənlə, şəhidlə, qazi ilə birgə döyünən qələm adamlarıdı. Ona görə də bu kitabları, bu əsərləri oxuyanda oxucu - yəni diqqətçil, duyğusal oxucu hiss edir ki, əsərlə yanaşı, onun qarşısında müəllifin ürəyi də dayanıb... Həm də o ürəyin çırpıntılarıdı oxucu ilə üz-üzə dayanan, ona səslənən ... Bax bu məqamda isə səsə səs verməmək, müəlliflə çiyin-çiyinə dayanmamaq mümkün deyil. Axı söhbət Vətəndən, onun şəhidindən, onun qazisindən gedir. Elə "Gözlərin aydın, Vətən" şeirində deyildiyi kimi:

*Biz necə də xoşbəxtik, qələbə çalınıbdır,*
*Müqəddəs torpağımız yağıdan alınıbdır.*
*Hiyləgər düşmənimiz məzara salınıbdır,*
*Ruhsuz yaşaya bilməz, bütöv olammaz bədən,*
*Anam, gözlərin aydın, gözlərin aydın, Vətən.*




*Üçrəngli bayrağımız əzizdir canımızdan,*
*Torpağımız güc aldı tökülən qanımızdan.*
*Danışır cahan bizdən - yüksələn şanımızdan,*
*Necə bəxtiyar olur, arzuya, kama yetən,*
*Anam, gözlərin aydın, gözlərin aydın, Vətən.*

*Qarabağ ki, var, bizim şanımız, şöhrətimiz,*
*Vətənin hər qarışı, əbədi sərvətimiz,*
*Necə güclüdür bu xalq, göründü qüdrətimiz,*
*Bundan sonra yaşayar millətimiz xoşbəxt, şən,*
*Anam, gözlərin aydın, gözlərin aydın, Vətən.*

*Biz həmişə olmuşuq düz sözlü, düz ilqarlı,*
*Başımızı dik tutub yaşamışıq vüqarlı,*
*Hər günümüz xoş keçsin, yaylı, qışlı, baharlı,*
*Laləzardır yurdumuz, min cür nemətlər bitən,*
*Anam, gözlərin aydın, gözlərin aydın, Vətən.*

*Azadlığa qovuşub torpağımız, daşımız,*
*Bizə dəstək-arxadır böyük Türk qardaşımız.*
*Biryolluq azad olub Xankəndimiz, Şuşamız,*
*Sevinc ilə, qürurla, fərəhlə deyirəm mən:*
*- Anam, gözlərin aydın, gözlərin aydın, Vətən.*

Sizə təqdim etdiyim bu şeir Coşqun Xəliloğlunun "Vətən imtahanından "əla" alanlar" kitabındandır. Bu kitab şəhidlərimiz barəsindədi. Bundan öncə də mən Coşqun müəllimin şəhidlərimizlə bağlı yazdığı kitabından bəhs etmişdim və vurğulamışdım ki, müəllif öz qəhrəmanlarının təkcə sözlə, bədii yaradıcılıqla deyil, həm də onların fotoları ilə də oxuculara təqdim edir. Həmin özəl ənənəsinə sadiq qalan Coşqun Xəliloğlu bu kitabında da qəhrəmanları barəsində kiçik bilgi və onların fotosunu verməklə həm də onlara həsr etdiyi bir-birindən maraqlı, düşündürücü və kövrək şeirlərini də bir araya gətiribdir.

Həmin şeirlərin qəhrəmanları əbədiyaşarlıq qazanmış şəhidlərimiz isə respublikamızın müxtəlif bölgələrinin təmsilçiləridirlər. Və bir də bu şəhidlərin arasında hərbi baxımından müxtəlif rütbəli əsgər və zabitlərimiz yer alıbdırlar. İstər sıravi olsun, istər ən yüksək rütbəli vətən övladı. Onların hamısının



yeri xalqımızın qan yaddaşında, şəhidlik zirvəsindədir. Ona görə də mən kitabdakı şeirləri oxuduqca fotolarla da həmsöhbət oluram. Üz-gözlərindən həyat eşqi tökülən, baxışları sevgi ifadə edən bu gənclər ürəyimizi nə qədər sızlatsa da, həm də ürəyimizə bir qürur hissi yaşadır. Güvənirik və sevinirik ki, onlar bizim ciyərparalarımızdı, onlar Vətəni yaşadanlar, onlar Vətənə sipər olan övladlarımızdı.

Kitabdakı "Vətən şəhidləri" şeirində deyildiyi kimi:

*Baxın, yurdun balası, neçə igid qəhrəman*
*Vətənə sidq ürəklə qurban eylədilər can,*
*Dedilər bütöv olsun, tam olsun Azərbaycan,*
*Heç zaman unutmarıq biz cəsur igidləri,*
*Əbədi yaşayacaq bu Vətən şəhidləri.*

*Döyüşdülər inamla, ölümdən qorxmayaraq,*
*Neçə dağı, dərəni, zirvələri aşaraq,*
*Söylədilər, düşməndə qala bilməz Qarabağ,*
*Dar günündə tanınır elin əsil mərdləri,*
*Əbədi yaşayacaq bu Vətən şəhidləri.*

*Bu torpaqdan, bu yurddan, tükənməz güc aldılar,*
*Yağıları məhv edib, şanlı zəfər çaldılar,*
*Şəhidlik zirvəsinə mərdliklə ucaldılar,*
*Qulaqlardadır hələ Qorqudun öyüdləri,*
*Əbədi yaşayacaq bu Vətən şəhidləri.*

*Heç nə döndərə bilməz bizi haqq yolumuzdan,*
*Kafirlər məhv edibdi, qovuldu elimizdən,*
*Salam var ölməzlərə Xarıbülbülümüzdən,*
*Həmişə xatırlanıb çəkiləcək adları,*
*Əbədi yaşayacaq bu Vətən şəhidləri.*

Şeirdən də göründüyü kimi, müəllif bizim hamımızın düşüncəsini, istəyini, fikrini birmənalı olaraq bəyan edibdir və vurğulayıb ki, Əbədi yaşayacaq bu Vətən şəhidləri!!!

Ciddi və ağrılı axtarışların, böyük istəyin və vətəndaş yanğısının ifadəsi olan bu kitab şəhidlərimiz üçün sözün həqiqi mənasında abidədir. Özü də təkcə bu kitab yox, ümumiyyətlə, şəhidlərimizlə, qazilərimizlə, Qarabağımızla bağlı qələmə alınan nəsrlə, şeir dili ilə oxucuya çatdırılan bütün əsərlər həmin abidənin - söz abidələrinin hissələridi. Həm də bugünümüzün sabah oxunacaq tarixidir. O tarixi yazanlardan biri də Coşqun Xəliloğludur. Uğurlar olsu!

***P.S.* Bu kitab Qarabağ savaşımızda canından keçib şəhidlik zirvəsinə yüksəlmiş Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunlarının xatirəsinə həsr olunub. Onlardan bir də ilk qadın Milli Qəhrəmanımız, jurnalist Salatın Əsgərovadır.**

**Əbülfət Mədətoğlu**

# Şair sevgisinin mənzərəsi

**Onunla söhbət etmək, fikir mübadiləsi, ədəbi mühitə baxış çərçivəsi daxilində olanları çözmək həmişə maraqlı olubdur. Ümumiyyətlə, o bir söz adamı, yaradıcı insan kimi özü də maraqlıdı, həyata, sözə baxışı da. Uzun illərdir ki, tanıyıram onu. Bir zamanlar "Ədalət" qəzetində özünün səhifəsi də vardı. Hər həftənin üçüncü günü "Ədalət"in oxucuları ilə özünü və həmkarlarını həmsöhbət edirdi.**

Yeri gəlmişkən vurğulayım ki, həmin o çox da uzaq olmayan illərdə "Ədalət" qəzetində professop Vaqif Yusiflinin, şair Qəşəm Nəcəfzadənin, şair Rasim Qaracanın, şair-publisist Samir Sədaqətoğlunun ayrıca səhifələri çap olunurdu və bu səhifələrdə yeni ədəbi nəslin yaradıcılığı, mübahisələri, müzakirələri böyük maraqla izlənilirdi. Mənə görə həmin zaman kəsiyi bir mətbu orqan kimi "Ədalət" qəzetinin ədəbiyyatımıza unudulmaz xidmətinin göstəricisi kimi söz tariximizə yazılıb. Bax elə həmin o zaman kəsiyində mən Samir Sədaqətoğlu ilə xeyli söhbətlər, fikir mübadilələri aparmaqla onun və yaşıdlarının ədəbiyyatımıza gətirdikləri yeniliklərdən xəbərdar olmaq imkanı qazandı. Bu gün də adlarını çəkdiyim həmin tanınmış söz adamları və onların çevrəsi ədəbi camiəmizdə özəl yaradıcılıqları ilə gündəmdədilər. O ki qaldı Samir Sədaqətoğluna...

Şəxsən tanımazdan öncə imzasını tanıdığım Samir Sədaqətoğlunun yaradıcılığı mənim ruhuma çox yaxındır. Ona görə də istər povest və hekayələrini, istər monopyeslərini, istər şeirlərini həmişə izləyəndə məndə müsbət bir assosiasiya yaranıb. Elə bilmişəm ki, Samir Sədaqətoğlu bu ədəbi nümunə ilə mənim də tanıdığım, bildiyim söz dünyasında təqdim etdikləri çiçək ətirlidi, diqqət çəkəndi və doğmadı. Deməli, bu anlamla yanaşdığım üçün Samiri oxuyanda hislər, ifadələr mənim ruhuma köçüb, qəlbimi ovudub, elə bilmişəm ki, o misralar məhz mənimlə danışmaq üçün, məndə hansısa bir rahatsızlığı ovutmaq üçün yazılıbdı. Çünki misralar və bütövlükdə fikir həm sadə, həm də səmimi olubdur. Bu şeirdə olduğu kimi:

*Bilsəydim ruhun da, qəlbin də daşdı,*
*Götürüb özümə bir ev tikərdim.*
*Sən adlı divara könlümü açdım,*
*Dəydi daşa oxum, divara dərdim.*

*Nə tumurcuqladı, nə çiçək açdı,*
*Bu sevgi baxtımın qışına düşdü.*
*Dedim ətəyindən tök bu daşları,*
*Sən atdın, o daşlar başıma düşdü.*

*Məndə nə huş qalıb, nə yaddaş qalıb,*
*Yenə gürz döyürsən səbrimin üstə.*
*İndi ətəyində bircə daş qalıb,*
*Onu da qoyarsan qəbrimin üstə.*

Yəqin ki, şeiri sona kimi oxudunuz və bildiniz ki, bu şeirdəki fikir hamıya tanış, hamının bildiyi mövzudur. Amma o fikrin, o mövzunun özəlliyi ondadır ki, Samir bu şeirdə öz yaşamını, öz duyğusunu misralaya bilib. Onun ifadə etdiyi, yəni oxucu qarşısına çıxartdığı sevgi əslində bir biganəliyin, bir laqeydliyin məngənəsində sıxılsa da, amma sevən ürəyin qırılmasına, diz çökməsinə səbəb ola bilmir. Çünki o sevgi halal, həm də son dərəcə içdən gələn, ruhun özünün süstlədiyi bir sevgidir. Aşiqi hansı hallara salmağından asılı olmayaraq o sevgidən imtinanı hətta ağlına belə gətirmir və yaşayır o sevgi ilə.

Elə oxuyanı da, dinləyəni, izləyəni də yaşadır. Yaşanan sevgi üçün yaşamağa dəydiyi kimi, bu yolda hamımızın əl açdığımız Allahın iradəsinə də sığınmaq ehtiyacımız da birmənalıdır.

Deməli, Samir yaşadığı sevgini bir şair olaraq oxucuya inandırmaq üçün, oxucuda əminlik hissi yaratmaq üçün özünün iç dünyasını sərgiləyir. Bir növü onu nümayiş etdirir, bütün hüceyrələrinə qədər, bütün yaşanan və yaşanacaq nüanslara qədər. Özü də mətinliklə, israrlı və qərarlı şəkildə. Hətta ölümü də gözünün altına alaraq sevdiyi ilə danışır, pıçıldaşır:

***Göndər gəlsin əcəlimi,***
***Öldür məni, Allah, öldür.***
***Ürəyin harda istəyir,***
***Götür məni orda öldür.***

***Gör baxtıma nələr çıxdı,***
***Bu baxt məni yıxdı, yıxdı...***

***Daha mənə fərqi yoxdu,***
***Evdə öldüm, yolda öldüm.***

***Hələ də gəlir toy səsi,***
***Qurtarmır bu toy gecəsi.***
***Məni, sözümün***
***kəsəsi,***
***Allah, sən bu toyda öldür.***

***Qaralan gecə külümsə,***
***O qız bu toyda gəlinsə,***
***Və bu toy mənim deyilsə,***
***Öldür məni, Allah, öldür.***



Belə bir yanaşma var, yəni özün-özünlə və yaxud özün Tanrınla danışırsan...hər iki halda bir tərəf özünsən. Həmin özün olan tərəf həmişə müraciət edir, həmişə üz tutur, həmişə uca yaradana əl açır. Ona görə də dinləyən, müşahidə edən, bir az sual ifadə edən nəzərlərlə izləyir baş verən bütün prosesi. O məqama qədər ki, söhbətin mahiyyətini eşidir, dinləyi, bilir... Və məhz ondan sonra səndə qarşılıqlı bir rəy yaranır, münasibət formalaşır. Bax, bu şeiri də oxuyub sona çatana qədər o münasibət bildirmək istəyi şəxsən mənim içimdə yavaş-yavaş formalaşmağa başladı və sonda gördüm ki, şair sevgisinə qovuşmaq üçün ən son addımı atmağa belə hazırdı.

Allaha da ona görə üz tutub müraciət edir ki, ən sonuncu variant olan ölümü də seçməyə hazıram. Təki ruhumuz qovuşsun, təki sevginin şirinli-acılı bütün məqamlarını sona qədər yaşaya bilim. Gələn toy səsi gerçəklik kimi aşiqin, yəni sevənin həyatında özünü ifadə etsin, özünü təsdiqləsin...

Adi bir həyat predmetinin belə kövrək duyğularla şeirə çevrilməsi son dərəcə təsiredici və duyğusaldır. Ümumiyyətlə, Samir Sədaqətoğlunun "İtən vaxt" kitabındakı şeirlərin mahiyyəti, qayəsi, yaşananları oxucuya yaşatmaq yönümlüdür. Bu yaşananları hər birimiz bu və ya digər formada ömür yolumuzda görüb, duyub və nəhayət özümüzünkü etsək də, Samirin şeirlərində biz onu təkrar görür, hiss edir və özümüzünküləşdiririk:

***Yenə də tənhalıq, yenə də təklik,***
***Özüm öz içimi yeyirəm daha.***
***Siqaret qutusu sirdaşım olub,***
***Şeirimi mən ona deyirəm daha.***

***Bax indi bir mənəm, bir də ürəyim,***
***Tanrı da yanına çağıran deyil.***
***Dostların üzü tək taleyim qara,***
***Bu baxtı yusan da ağaran deyil.***

***Qaçım bəd ayaqda de, kimin üstə,***
***Hamının oduna bişən ürəyim.***
***Gör necə çırpınır səkinin üstə,***
***Ayağım altına düşən ürəyim.***

Məlumdur ki, sevgi, məhəbbət, eşq, hər kəs üçün duyulan, yaşanan duyğudu, hisdi. Amma söz adamları, ümumiyyətlə, yaradıcı insanlar bu duyğuları bir az fərqli yaşayırlar. Onlar sevgini Tanrı səviyyəsinə qaldırmağı bacarırlar. Onu yaşadıqları kimi yaşatmağı da bacaran böyük söz adamları olub , bu gün də var və zaman-zaman olacaqdırda!.

**Deməli, hər kəs öz sevgisini yaşadığı kimi, həm də öz sevgisini oxucu qəlbində yaşatmaq haqqını, qabiliyyət və bacarığını özü qazanmalıdır. Bunu qazana bilən müəlliflər yazıb-yaratdıqları ilə sevgi ömrünü də qazanırlar. Düşünürəm ki, Samir Sədaqətoğlunun şeirlərindən gətirdiyim nümunələr onun şair sevgisini bu gün də oxucu qəlbində, oxucu yanında olduğuna şübhə yeri saxlamır.**

**Əbülfət Mədətoğlu**

# "Bakcell" "Müasir Marketinqin Əsasları Azərbaycan Nəşri"nə qoşulub

**İnnovasiya və sürət lideri "Bakcell", dünya şöhrətli marketinq nəzəriyyəçisi Filip Kotlerin 100 ölkəni əhatə edən Müasir Marketinqin Əsasları (Essentials of Modern Marketing) qlobal təşəbbüsünə qatılıb. Qısa zamanda dünya və Azərbaycan oxucularına təqdim olunacaq kitabda ölkənin aparıcı şirkətlərinin uğur hekayələri yer alacaq.**

Adalet.az xəbər verir ki, "Kotler Impact" tərəfindən idarə olunan qlobal layihədə təqdim olunan kitab silsiləsi hər bir ölkəyə özəl yanaşma ilə hazırlanaraq yerli bizneslərin uğurlarını qlobal marketinq prinsipləri ilə birləşdirir. Layihə çərçivəsində artıq 25-dən çox ölkənin, o cümlədən Avropa ölkələri, Braziliya, Hindistan, Pakistan, Türkiyə və s. bazarları haqqında nəşr edilən kitablar oxucuların böyük marağına səbəb olub. Azərbaycan nəşri ölkəmizin biznes mühitini beynəlxalq səviyyədə tanıtmağa, o cümlədən yerli marketinq mütəxəssislərinə qlobal təcrübədən yararlanmaq imkanı verəcək.




"Bakcell" bu layihəyə dəstək verməklə Azərbaycanın və regionun innovativ marketinq yanaşmalarının inkişafına töhfə verməyi hədəfləyir.

Filip Kotler haqqında

Müasir marketinqin atası və 80-dən çox kitabın müəllifi olan Filip Kotler, marketinq sahəsində inqilabi nəzəriyyələr yaradaraq, dünya miqyasında biznesin inkişafına təsir göstərib. O, marketinqi psixologiya və iqtisadiyyatla birləşdirərək, müasir marketinqin elmi əsaslarını formalaşdırıb.

Ən məşhur əsərlərindən biri olan "Marketing Management" kitabı dünya universitetlərində marketinq dərsliklərinin əsas qaynağı kimi istifadə olunur. Onun nəzəriyyələri şirkətlərin müştəriyönümlü strategiyalar qurmasına və qlobal bazarlarda rəqabət üstünlüyü əldə etməsinə imkan yaradır.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir.

Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək innovativ, keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir.

Şirkət süni intellektə əsaslanan həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

**"Bakcell" müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.**

## *İftarda edilən bu səhvlər infarkt edə bilər*



**Ramazan ayında iftar və sahurda edilən bəzi yanlış qidalanma vərdişləri infarkt riskini artıra bilər.**

Adalet.az xəbər verir ki, həkim Gökhan Ceyhun qan şəkərinin ani yüksəlməsi və lipit profilinin pozulmasının ürək sağlamlığına mənfi təsir göstərdiyini bildirib və Ramazan ayında sağlam qidalanma ilə bağlı xüsusi məqamları açıqlayıb.

Hipertoniya, damar tıxanıqlığı və ürək çatışmazlığı olanlara duz və xolesterindən uzaq durmağı tövsiyə edən mütəxəssis orqanizmin ac qalmağa tədricən öyrəşməsinin vacibliyini vurğulayıb.

Ürək çatışmazlığı olmayan, ürək əzələsinin yığılma gücü 50-55%-dən yüksək olan şəxslərin oruc tutmasının problem yaratmayacağını bildirən Ceyhun uzun müddət ac qaldıqdan sonra iftarda yüksək kalorili və yağlı yeməklərin birdən-birə qəbulu ilə qan şəkərinin və yağ səviyyəsinin kəskin artmasının ürəyə mənfi təsir edə biləcəyini qeyd edib.

O, ürək xəstələrinin oruclug dövründə yeməklərini iftar və sahur arasına yaymasının daha faydalı olacağını bildirib.

Həkim infarkt keçirən, stent qoyulan, yüksək təzyiqi olan və angioqrafiya edilən şəxslərin oruc tutub-tutmaması ilə bağlı çoxlu suallar aldıqlarını bildirib.

Ürək çatışmazlığı olanların uzun müddət susuz qalmasının böyrəklərə əlavə yük gətirə biləcəyini və bu səbəbdən onların oruc tutmasının tövsiyə edilmədiyini vurğulayıb. Ancaq son bir ayda infarkt keçirməyənlərin və orqanizmini əvvəlcədən oruca hazırlayanların ac qalmasının, iftarda həddindən artıq qidalanmamasının ürək sağlamlığı baxımından daha faydalı ola biləcəyini qeyd edib.

O, Ramazan ayında infarktların əsasən iftar və sahurdan sonra baş verdiyini bildirərək, uzun müddətli aclıqdan sonra nəzarətsiz yemək vərdişlərinin qan şəkərinin və yağ səviyyələrinin ani dəyişməsinə səbəb olaraq ürək-damar xəstəlikləri üçün təhlükə yarada biləcəyini vurğulayıb.

O, həm ürək xəstələrinin, həm də sağlam şəxslərin iftarda daha nəzarətli qidalanmasının və qida qəbulundan sonra fiziki aktivliyə diqqət etməsinin vacibliyini bildirib.



VAQİF YUSİFLİ

# İSMAYIL QARAYEV

## Ədəbi portret - III yazı

**Sağlığında İsmayıl Qarayevin iki romanı nəşr olunmuşdu. 1971-ci ildə "Ömür", 1973-cü ildə "Gecə keçir" - hər iki roman "Gənclik" nəşriyyatında işıq üzü görmüşdü. İllər keçəndən sonra onun otuzdan çox romanı da üzə çıxdı (Oğlu Qoşqar İsmayıloğlunun tərtibi və naşirliyilə).**

Əlbəttə, bu romanlar yazıldığı vaxtda çap olunsaydı, ədəbi ictimaiyyətin diqqətindən yayınmazdı. Amma mümkün idimi? - çünki İsmayıl Qarayev bu romanların çoxunu həbsxana divarları arasında yazmışdı, azad edildikdən sonra da qələmə aldığı romanlar var, amma ona yanaşma məlum səbəblərə görə bu əsərlərin çapına imkan verməndi. Fəqət, ortada otuzdan çox roman var və məqamı gəlib ki, bu titan əməyini qiymətləndirək.

İsmayıl Qarayev bu əsərlərin bir çoxunu "mikroroman" adlandırıb (ya özü ya da təribçi tərəfindən). Bunu yalnız həcminə görə belə adlandırmaq olar, çünki o "mikro romanların bir çoxu janr baxımından ancaq povest anlamına uyğun gəlir.

Onu bir romançı kimi səciyyələndirməli olsaq, ilk növbədə "Gecə keçir" romanı üzərində dayanmalıyıq. Çünki bu əsər onun bütün romanları üçün örnək olasıdır. Milli romanlarımıza xas olan bütün səciyyəvi keyfiyyətlər bu romanda öz əksini tapır. Romanda təsvir olunan hadisələr və onların bir-birilə qarşılıqlı əlaqəsi, bitkin xarakterlər, milli-mənəvi dəyərlərin təbliği, süjet və kompozisiya qurucuQuluğunun yetkin formada inkişafı, dilin bədiiliyi və xəlqiliyi bu romanda ustalıqla ifadə olunub.

Bu romanın mövzusu, orada baş verən hadisələr Xalq yazıçısı İsmayıl Şıxlının "Dəli Kür" romanını xatırladtı. "Dəli Kür"də Cahandar ağa XIX əsr Azərbaycanının bütünlüklə rəmzi ola biləcək bir obraz kimi təqdim olunurdu. XIX əsr feodal Azərbaycanı sanki Cahandar ağa ilə başa çatır. Kişilik, cəngavərlik, mənsub olduğu sinfin qatı təəssübkeşliyi bu məğrur, ipəsapa yatmayan insanı dəyişməyə doğru gedən dünya ilə üz-üzə qoyur. Cahandar ağanın süqutu ilə Azərbaycan bəyliyi sürətlə tənəzzülə doğru gedir. XX əsrin əvvəllərində isə bəylik artıq öz komediyasını yaşamağa başladı. İsmayıl Qarayevin romanında da bəylik öz faciəsini bir daha yaşamalı olur. Doğrudur, bu romandakı ağa, bəy obrazları ilə möhtəşəm Cahandar ağanı müqayisə eləməyə dəyməz. Amma faciə elə həmin faciənin davamıdır. Sadəcə olaraq, İsmayıl Qarayevin romanındakı zaman XX əsrin bəy-xan ağalığının sonuncu versiyası kimi diqqəti cəlb edir. "Ayı biləkli, kəl sinəli Alazan ağa mağarın baş tərəfində oturub mütəkkəyə dirsəklənmişdi. Buxarı papağının dalını qaldırıb üzünə kölgə salmışdı. Qartal baxışları ilə mağarın o başında bir-birinə qısılmış yaşmaqlı zənənləri süzür, gözləri ilə doyub toxtayandan sonra lopa bığlarını tumarlayır, fil sümüyündən düzəldilmiş şirmayı təsbehini şaqqıldadırdı. Onun yan-yörəsində səf çəkib əyləşmiş qaçaq və bəyzadələr mağarın arı pətəyi kimi qaynayan ağzı səmtdə boy-boya vermiş "gədə-güdələrə" oğrun-oğrun təşəxxüs satır, ədalı-qadalı nəzərlərini onların üstündə dolanırıb bir az da şişirdilər". Alazan ağanın külli-ixtiyar sahibi kimi özünü çox ötkəm aparması, buraya toplayan kişilərin zənənlərini oynadıb tamaşa etmək istəməsi o zaman üçün adi, normal bir vəziyyət idi. Amma birdən bu mənzərəni, bu harınlıqdan doğan tamaşanı sona vardırıcaq bir hadisə baş verir. "Boylu-buxunlu Zalanla anası Bəsti" yaxşı bilirlər ki, qonşu kəndin yiyəsi Alazan ağa Xatınoğlunun çobanı Sarışın arvadı Güldəstəyə gözü düşüb.

Odur ki, buna - baş verə biləcək bu namussuzluğa son vermək lazımdır. Kişi qeyrətli Bəsti tapançasını üzünə qaldırıb Zalana əmr edir ki, "bu qırışmalların tüfəng-tapançasını, papağını yığışdır. Bura kişilənib gələn sarsaqları topuqlayıb kənddən çıxarın, qoyun arvadlarının yanına arvad kimi piyada getsinlər". Alazan ağa üçün papağının əldən getməsi ölümə bərabər idi. Beləliklə, romanın lap əvvəlində bir kənddə baş verən sinfi ziddiyyətlərin binövrəsi qoyulur. Zalanla anası Bəsti üçün böyük təhlükə yaranır. Amma nə Alazan ağanın, nə Xatınoğlunun, nə də onları müdafiə edən "yuxarıların", "zorluların" təhdidlərinə baxmayaraq Zalanla anası Bəsti bütün çətinliklərə, ölüm-itim havasına sinə gərirlər. Artıq zaman da Alazanların, Xatınoğluların istədikləri zaman deyildi. Get-gedə onların ağalıqlarının sonu gəlmişdi. Romanda təsvir olunan kənd, köç-yaylaq "səyahətləri", maldarlıq-əkinçilik təsərrüfatları müəllifin təhkiyəsində son dərəcə təbii təsir bağışlayır və hiss edirsən ki, İsmayıl Qarayev Azərbaycan kəndini çox yaxşı tanıyır. Artıq elə bir dövr gəlir ki, çar hakimiyyəti devrilir, Çopur Yəhya, Gödək Məmməd kimi bolşeviklər hərəkətdədirlər. Alazan ağalar, Xatınoğlular isə var-dövlətləri ələn çıxmış bu ağaların sonudur.

Xatınoğlu "vər-vər qaralan əkin yerlərinə, vərlərin arasındakı otlaqlara, kövşənliklərə yayılmış ağlı-qaralı bölük-bölük qoyunlara, hər biçənəyin bir səmtinə hörüklənmiş atlara, inəklərə" baxıb köksünü ötürür, Alazan ağa isə qaçmağa məhkumdur. Roman beləcə bitir. Əlbəttə, bu romanda bizə ən çox təsir bağışlayan müəllifin xalq ruhunun ifadəsi olan etnoqrafik detallar, əsərin bədii dilidir.

İsmayıl Qarayev hər bir obrazın zahiri görünüşündən tutmuş onun daxili aləminə doğru "səyahət" edir. Əlbəttə, obrazın ilk baxışda nəzərə cəlb edən zahiri heç də onun xarakteri haqqında təsəvvür yaratmır, çünki biz bu obrazların dəyişilmə prosesi ilə rastlaşırıq. Romanın lap əvvəlində Alazan ağa hakimi-mütləq, hamıya zəhmli təsir bağışlayan, kefindən ötrü nəşələnən bir Ağa kimi nəzərə çarpırsa, az sonra papağı əldən gedəndə özünə yer tapa bilmir, getdikcə ona dov gələn Bəstinin, Zalanın qarşısında öz əvvəlki simasını itirir. Xatınoğlu isə lap əvvəldən xaraktercə zəif, hər iki tərəfə əyilən bir adamdır, amma yeri gələndə kəmfürsətlik də edə bilər. Bir obraz da var - Taygöz Nağı. O, Bəstinin ərinin qatilidir, amma Bəsti bunu bilə-bilə onu öz oğlundan ayırmır və Nağı get-gedə bir insan kimi yaxşı mənada dəyişilir. Bəsti və Zalana gəldikdə... müəllif roman boyu onların haqq-ədalət tərəfdarı, elin namusunu, xalqın ən gözəl keyfiyyətlərinin təcəssümü kimi təqdim edir.

İsmayıl Qarayevin bütün romanlarında təsvir olunan qəhrəmanlar adi insanlardır, amma müəllif bu adi insanların çox təmiz, işıqlı mənəviyyata sahib olduqlarını təsvir edir. Yazıçının romanlarında qaldırılan məsələlər, təsvir olunan hadisələr sovet dövrünə aiddir. Amma burada İnsan amili birinci sıradadır, yəni müəllif demək istəyir ki, İnsan hansı dövrdə yaşayır-yaşasın, öz əməlləriylə, həm yaxşı işləri, həm də bəd, insanlığa ləkə gətirən hərəkətləri ilə yaddaşlara həkk olunur.

Onun romanlarında bir-birinə zidd hadisələrin, bir-birilə konfliktə girən obrazların təqdimi mühüm yer tutur. O, müsbət planda təsvir etdiyi obrazları da birtərəfli və sxematik şəkildə təqdim eləmir, onların da yeri gəldikcə səhvlərini, nöqsanlarını gizlətmir.

Öncə qeyd etdik ki, İsmayıl Qarayevin romanlarında hadisələrin əksəriyyəti sovet dövrünə aiddir. Sovet dövrü isə bir sıra müsbət cəhətləri ilə yanaşı, insanı mənəvi burulğana, çıxılmazlığa yuvarladan, haqsızlığın ərşə dirəndiyi, bir çox namuslu insanların repressiyaya məruz qaldığı bir dövr idi. İsmayıl Qarayev də bir çox qəhrəmanlarını kimi bu dövrün acı həqiqətlərini dadmışdı. Onun bir neçə romanı sovet dövrünün həbsxanalarında əzab çəkən insanlardan söz açır. Ən bariz nümunə kimi "Sxodka" romanını göstərə bilərik. Bu romanda müəllif sovet həbsxanasında əzab çəkən günahsız insanları da unutmur, təbii ki, o həbsxanaya salınan insanların bir çoxu kriminal aləmin nümayəndələridir. Amma onların içərisində də Yavər kimi "filosofluq" edən adamlar var. Onlar həyatda baş verən hadisələrin, qanunsuz halların səbəbləri barədə düşünürlər.

İsmayıl Qarayevin "Məni tanıdınmı?" romanı (qeyd edək ki, bu əsər onun "Gecə keçir" romanından sonra həm mövzu, həm də bədii-sənətkarlıq baxımından mükəmməl, dolğun bir romandır) sovet dövrünün həbsxana mühiti barədə geniş təsəvvür oyadan əsərdir. Romanda həm həbsxana mühitində ömrünü çürüdən cəzalıların həyatı (onların içərisində günahsızlar da var), həm də hüquq-mühafizə işçilərinin cəzalılara qarşı amansızlığı, humanizmə zidd hərəkətləri öz əksini tapır. Romanda bir elmlər namizədinin - ədəbiyyatçının - Heybət müəllimin həbsxanada keçirdiyi sarsıntılar, onun tez-tez fiziki işgəncələrə məruz qalması təsvir olunur. Onun nəyə görə həbsə düşməsi də diqqətdən yayınmır, tələbələrindən biri - Töhfə onu sevir. Və təbii ki, bu sevgi qarşılıqlı deyil. Amma nə etmək? Töhfənin öz müəlliminə sevgisi qarşısıalınmazdır, gündəliyində də bu haqda yazır və günlərin birində intihar edir. Romanda isə bu hadisə o qədər də ciddi məna kəsb eləmir, əsas məsələ həbsxana mühitində hökm sürən qeyri insani hərəkətlərdir. Bu mühitdə Əhlimanov, Kattayev kimi cəllad xislətli orqan işçiləri öz zorakı hərəkətləri ilə ad çıxarırlar. Bir səhnəyə diqqət edin: "Dərim döyülməkdən aşılanmışdı, indi mənə elə gəlirdi ki, ağrıyan, sızıldayan da o deyil, hər zopa sümüklərimdə təzə yaralar açır. Zopanın ikisi bir yerə dəyəndə elə bilirdim sümüklərim çıxır. "Müqavimət göstərdiyimə görə" qoluma qandal vurdular". Və romanda bundan dəhşətli cəza səhnələri ilə tanış oluruq və bu səhnələr sovet həbsxanalarının "şəkilləridir".



Bir çox belə romanlarda sovet gerçəkliyinin mahiyyəti - insan ömrünün bu gerçəklikdə mənəvi məhvə doğru sürüklənməsi əks olunub və müəllifin təsvirləri bəzən sərtliklə, bəzən yumşaldıcı şəkildə diqqəti cəlb edir. Belə qənaətə gəlirik ki, İsmayıl Qarayev, necə deyərlər, gəmidə oturub gəmiçi ilə mübarizə aparmırış.

İsmayıl Qarayevin yaratdığı obrazlar həyatdan, gerçəklikdən, gördüyü, müşahidə etdiyi yaşadığı mühitdən gəlirdi. Onun romanlarında dəniz həyatı, bir müddət yaşadığı kənd-kolxoz mühiti, müəllimlik - məktəb aləmi - bütün bu məkanlar təbii ki, bilicilik tələb edir. Obyekti, məkanı təfərrüatına qədər bilirdi və bunları öz romanlarında əks etdirirdi. Amma ən əsası o idi ki, onu İNSAN, ONUN MƏNƏVİ aləmi daha çox düşündürürdü.

"Ömür" onun sağlığında çap etdirdiyi ilk roman idi. Bu romanda Əşrəf adlı bir kəndli cavanın özünü dərk edənə qədər keçdiyi həyat yolu işıqlandırılır. Onun kənd həyatı qalmaqalsız keçmir, sevdiyi Çəmən adlı qıza olan məhəbbəti ona ruh verir, amma Əşrəf dənizə üz tutur, onun xarakteri orada özümləşir.

Canlı insan xarakterləri axtarmaq istəyirsinizsə, İsmayıl Qarayevin "Budaqlar" romanındakı Qonaq, Budaq və Diliş obrazlarına diqqət yetirin. Siz görəcəksiniz ki, insanın yaşadığı mühit, ailə həyatı yaxşı təməl üzərində qurulmayıbsa, onun bir insan kimi mənən saflaşması, durulması mümkün olmayacaq. Amma tənhalıqdan bezmiş iki insan bir-birini anlayanda, dərk edəndə onların həyatında yeni bir dövr - çiçəkli, günəşli, xoşbəxt bir həyat başlanar. İsmayıl Qarayevin "Şirzad kişi" romanını bəlkə də kiçik bir "məhəbbət hekayəsi" adlandırmaq olar. Bir raykom katibi - Süsən xanımla ailə-uşaq sahibi olmayan, az qala bütün ömrünü təklik-tənhalıq içində yaşayan bağban Şirzad kişi (onların hər biri artıq ekvator yaşına çatmışlar) arasında xoş bir ünsiyyət yaranır və bu ünsiyyət iki insanın mənəvi birliyinə yol açır. Amma insan özünə həyatda yer tapa bilməyəndə, ömrünü-gününü sərxoşluğa, mənasız işlərə sərf eləyəndə "İntihar" romanının "qəhrəmanı" İltifat kimi ölümə məhkumdur, O, hətta qatilə də çevrilir.

İsmayıl Qarayevin bir nasir kimi bədii-sənətkarlıq xüsusiyyətlərdən də geniş söz açmaq olar. Amma qısaca onu deyə bilərik ki, onun romanlarında hər bir təsvirin, hər bir obrazın keçirdiyi əhval-ruhiyyənin bədii mənalandırılması, həmçinin obrazların psixoloji duyumları incəliklə verilib. Xüsusilə, onun romanlarında təbiət təsvirləri sanki sözlə çəkilən rəsmlərə oxşayır. Həm də bir nəğmə çilənir o sətirlərə.

Baxın: "Bu gecəyə özüm düşmüşəm. Böyük gecədir, uzun gecədir, qaranlıqların qaranlığıdır. Sönməz inam olub yanmaq istəyirəm bu gecədə, işıqlı bir fikir olub çaxmaq istəyirəm bu gecənin hakim zülmətindən, şər səltənətindən, nur olub çilənmək istəyirəm bütün dünyaya bu zülmətin aramgah heçliyindən, mahnıya dönüb sərhədlərdən keçməkdir arzum, bir qəmli nəğmə kimi yaşamaqdır arzum" ("Dərə çəkir adamı" romanından). "Göylərin yanar kürəsi dağların dalına çoxdan dığırlansa da, torpağın nəfəsi soyumamışdı, yerin tövşəyi axşamın şərli torapnlığını boğub qaraldır, evlərə, bağlara, çəpər-çalılara yamanıb gələ-gələ yaxınlaşan üfüq dairəsini də bir aydın görümlükdən alıb toyuq korluğuna döndərirdi" ("Bir kəndin soraqları" romanından). "Hava yenicə işıqlanırdı. Şiddətli şimal küləyi onsuz da oynayan mavi Xəzəri təlatümə gətirmişdi. Bir-birini qovaraq sahilə çatmağa can atan güclü dalğalar Nargin adasından yenicə uzaqlaşmaqa olan gəminin gövdəsinə çırpılıb üsyankar bir səslə şahə qalxır və havada parçalanıb dala çəkilirdi. Gəmi gah o yana, gah da bu yana əyilərək beşik kimi yırğalanırdı. Dənizin uğultusuna qarşıraq dalğaların müşayiəti ilə sahilə çatdırılan həzin qabarıq şikəstəsi adamın ruhunu oxşayırı" ("Xəzər çalxalananda" oçerklər kitabından).

Bu yerdə İsmayıl Qarayev haqqında yazılan ədəbi portreti (tam və bitkin olmasa da!) bitirmək istəyirik. Amma İsmayıl Qarayevin "Getmə oğul" şeirlər kitabını vərəqlədik. Onun şairliyi, ilham odu şeirlərində daha parlaq göründü. Və bu yazını İsmayıl Qarayevin bir kiçik şeiri ilə bitiririk:

**El üçün ağlama - gözdən olarsan,**
**Zər-ziba axtarma - bezdən olarsan,**
**Özünə dost gəzmə - dizdən olarsan,**
**Unutma, unutma, unutma məni!**
**Sevinc bir cilvədir - itər, bilinməz,**
**Kədər - basma naxış, gözdən silinməz,**
**Fərəh - bir toy-bayram, qüssə - lal-dinməz,**
**Unutma, unutma, unutma məni.**
**Unutmadıq...**

---

### Beynəlxalq axtarışda olan şəxs Rusiyadan Azərbaycana ekstradisiya edildi



**"Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 07.10.2002-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşı Osmanlı Turqut Mehman oğlunun ekstradisiyası haqqında Baş Prokurorluğun vəsatəti Rusiya Federasiyasının Baş Prokurorluğu tərəfindən təmin edilib.**

Baş Prokurorluqdan Adalet.az-a bildirilib ki, Bakı Şəhər Baş Polis İdarəsində ibtidai istintaq edilən cinayət işi üzrə Osmanlı Turqut Mehman oğlunun Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla törədilən dələduzluq) maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə barəsində beynəlxalq axtarış elan edilib.

**Turqut Osmanlı Rusiya Federasiyasının ərazisində saxlanılaraq 12.03.2025-ci il tarixdə Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə Azərbaycana gətirilib.**

### Suriyada martın 6-dan bəri 1380-dən çox insan həlak olub



**Suriyanın insan hüquqları üzrə qeyri-hökumət təşkilatı olan OSDH martın 6-dan bu günə qədər ölkənin qərb və mərkəzi hissələrində silahlı insidentlər zamanı 1 383 mülki şəxsin həlak olduğunu bildirib.**

Adalet.az xarici mediaya istinadən xəbər verir ki, insidentlər ölkənin keçmiş lideri Bəşər Əsədin mənsub olduğu ələvilərin məskunlaşdığı regionda baş verib.

**OSDH vurğulayıb ki, bunlar ilkin rəqəmlərdir və ölənlərin sayı arta bilər.**

# Şərqin ilk balerinasının taleyi: Övlad olmadı, məşhur ərindən boşandı...

**Bu gün Azərbaycanın və Şərqin ilk balerinası, baletmeyster, pedaqoq, SSRİ Xalq Artisti Qəmər Almaszadənin doğulduğu gündən 110 il ötür.**

Adalet.az xəbər verir ki, Azərbaycanın ilk balerinası, milli balet sənətimizin inkişafında, formalaşmasında və istedadlı gənc kadrların yetişməsində misilsiz xidmətləri olan, dünya şöhrətli görkəmli sənətkar, Xalq artisti Qəmər Almaszadə Bakıda 1915-ci ildə dünyaya göz açıb. Şahidlərin dediklərinə görə, balaca Qəmər ilk dəfə 6 yaşında özəl studiyada (sonralar - Opera Teatrının nəzdində məktəb, indiki Bakı Xoreoqrafiya Məktəbi) baletlə məşğul olub.

Bir gün qonşusu Şura adlı qız ona rəqsə getdiyini, orada balet öyrəndiyini deyir. Həmin vaxt məşğələlərin qiyməti 7 rubl imiş, Qəmər xanımın isə 6 rublu varmış. O, pedaqoqun yanına gəlib və deyib ki, mənim pulum bu qədərdir. Müəllim isə çox təccüblənir ki, azərbaycanlı, müsəlman qız balet öyrənmək istəyir. Müəllim balaca müsəlman qızcığazının bu cəsarətli addımına heyrətlənərək "buyur, 6 rubla dərsə gələ bilərsən" deyib.

Həmin gün balaca Qəmərin ağlına da gəlməzdi ki, tək Azərbaycanda yox, Şərqdə bir ilkə imza atır.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, o dövr elə bir dövr idi ki, səhnəyə çıxan qız və qadınlar ya küçədə öldürülür, ya da öz doğmaları tərəfindən evdən qovulurdu. Artist sənətini ən aşağı iş hesab edən o dövrün böyük əksəriyyətinin qınağı qızları səhnədən uzaq salırdı.

Xatırlayırsınız ki, dahi Üzeyir Hacıbəylinin " Leyli və Məcnun" əsərini səhnəyə qoyarkən qadın obrazlarını da kişi aktyorlar canlandırırdı. Belə bir dövrdə bir qız valideynlərinə bu sahəni seçəcəyini deməsi, bu sahəni öz gələcəyi hesab etməsi əslində bir inqilab, bir dönüş mərhələsi idi. Təbii ki, gənc Qəmərin ailəsində onun istəklərinə qarşı çıxan olmadı. Ailəsindən tam dəstək aldıqdan sonra bəzi "geridəqalmış" , hələ də çadra təfəkkürlü insanların qınağını önəmsəmədi.

Beləliklə, Qəmər Almaszadə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının nəzdində fəaliyyət göstərən balet studiyasını bitirir və 1930-cu ildə həmin teatrda işə başlayır.

Əslində qardaşı Ənvər Almaszadə də incəsənət sahəsini seçdikdən sonra Qəmərin sənət yolları xeyli hamarlaşır.

Daha dəqiq, teatr rəssamı Ənvər Almaszadə 1937-ci ildən rəssam kimi fəaliyyət göstərir. AOBT-da Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasına və "Leyli və Məsnun" operasına tərtibat verir, geyim eskizləri hazırlayır.

İlk balerinamız səhnəyə ilk dəfə 1931-ci ildə Reynqold Qlierin "Qırmızı lalə" baletindəki Tao Xoa partiyası ilə çıxır və müəyyən təcrübə qazanandan sonra Rusiyaya gedərək Leninqradda (Sankt-Peterburq şəhəri) xoreoqrafiya məktəbində peşəsinin incəliklərini dərindən öyrənir. Təhsilini tamamlayaraq Bakıya qayıdan balerina ömrünün sonunadək həyatını Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə bağladı.

Özünü, həyatının mənasını bu teatrda görən Qəmər xanım gələcək həyat yoldaşı ilə də burada qarşılaşır. Bu şəxs isə xalq maarifçisi Bədəlbəy Bədəlbəyovun və məşhur Şah Qacar nəslinin təmsilçisi Rəhimə xanımın ailəsində anadan olan, Azərbaycanda ilk baletin müəllifi Əfrasiyab Bədəlbəyli idi. O həmin Bədəlbəyli idi ki, 33 yaşında ikən "Qız qalası" baleti ilə musiqi tariximizdə ilk Azərbaycan baletinin əsasını qoyub. Sonrakı illərdə "Nizami", "Söyüdlər ağlamaz" operalarını yazaraq adını mədəniyyət tariximizə qızıl hərflərlə əks etdirib. 1931-ci ildə iki böyük sənətkar ailə həyat qurur.

1940-cı ildə Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletində ilk professional çıxışını edən Şərqin ilk balerinası sənət cameasının ən çox söhbəti gedən sənətkarlarından olur. Çünki, həmin dövrdə Gülyanağın ilk ifaçısı Qəmər Almaszadənin çıxışı çox yüksək dəyərləndirilir.Bu gənc Qəmərə qol-qanad verir. Mənbələr bildirir ki, mütəxəssislər Gülyanaq surətini bəyənir və onun rəqslə təfsiri, gənclik təravəti ilə dramatik yaşantıları üzvi birləşdirməsini coşqun heyranlıqla qarşılayır.



Amma həyat yavaş-yavaş bu uğurlu xanıma acı üzünü göstərməyə başlayır. Cütlüyün övladları olmadığından "Qız qalası" baletindən az sonra evlilik boşanma ilə nəticələnir. Qəmər xanım bu dəfə yenə də sənətinə sarılır.

"Qız qalası"nın 1959-cu ildə yeni - ikinci quruluşunun baletmeysteri Qəmər Almaszadə olur. Milli balet sənətimizin ulduzu, böyük yaradıcılıq irsinə malik, onlarla istedadlı gəncin formalaşmasında pedaqoq kimi çalışan Qəmər Almaszadə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Reynqold Qlierin "Qırmızı lalə", Adolf Adanın "Korsar", Boris Asafyevin "Bağçasaray fəvvarəsi", Aleksandr Qlazunovun "Raymonda", Sezar Puninin "Esmeralda", Pyotr Çaykovskinin "Şelkunçik" və "Sonalar gölü", Lüdviq Minkusun "Don Kixot", Əfrasiyab Bədəlbəylinin "Qız qalası", Qara Qarayevin "Yeddi gözəl", Niyazinin "Xosrov və Şirin", Aleksandr Kreynin "Laurensiya" baletlərində əsas partiyaları uğurla ifa edib. Üzeyir Hacıbəylinin "Koroğlu" və Müslüm Maqomayevin "Nərgiz" operalarında rəqqasə qızı oynayıb. O, səhnə fəaliyyətini başa vurduqdan sonra burada baş baletmeyster, balet truppasının bədii rəhbəri, quruluşçu baletmeyster vəzifələrində işləyib. İlk peşəkar Azərbaycan balerinası olan Qəmər Almaszadə milli balet məktəbinin yaranmasında və inkişafında müstəsna rol oynayıb.

Mütəxəssislər bildirir ki, balerina Azərbaycan qadınlarının XX əsrdə incəsənət sahəsindəki uğurlarının təməlini qoyub, musiqi mədəniyyətimizdə yeni janrın meydana çıxmasına güclü təkan verib. Milli baletimizin təşəkkülündə böyük xidmətlər göstərmiş sənətkarın ifa etdiyi partiyalar təkrarolunmazlığı və yüksək peşəkarlıq səviyyəsinə görə əsl sənət inciləri hesab olunur. Balerinanın Azərbaycan səhnəsində dünya klassiklərinin şah əsərlərində canlandırdığı rəngarəng, dolğun obrazlar ona şöhrət gətirib.

Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuş bir çox əsərin uğuru məhz Qəmər Almaszadənin verdiyi quruluşla bağlı olub. Görkəmli balet ustası klassik xoreoqrafiya ənənələri ilə Azərbaycan xalq rəqs yaradıcılığı nailiyyətlərinin ahəngdar vəhdətini yarada bilib.

Qəmər Almaszadə Azərbaycan Dövlət Filarmoniyasında rəqs ansamblının təşkilatçısı və bədii rəhbəri olub. Görkəmli balet ustası uzun illər Bakı Xoreoqrafiya Akademiyasında milli kadrların hazırlanması üçün böyük əmək sərf edib, Azərbaycan balet sənətinin sirlərini gənc nəslə öyrətmək sahəsində təqdirəlayiq fəaliyyət göstərib. Onun yetirməsi olan bir çox balet artisti sənət aləminin yüksək pillələrinə qalxıb, bu sənətin inkişafına töhfələr verib.

Qəmər Almaszadə ölkəmizin hüdudlarından kənarda da Azərbaycan mədəniyyətini uğurla təmsil edib. O, bir sıra Şərq ölkələrində professional rəqs ansambllarının təşkil edilməsi üçün təcrübə və bacarığını əsirgəməyib.

Qəmər Almaszadə 2006-cı il aprelin 7-də -91 yaşında dünyasını dəyişir.

**O yaratdığı obrazlarla və Azərbaycan Mədəniyyəti və İncəsənətində qoyduğu bir "İLK " izlə əbədi yaddaşlara köçdü.**

**Əntiqə Rəşid**

# İki şeirə qoşulduğum an

**Mənə elə gəlir ki, insanlar özlərini tapanda, özləri ilə qarşılaşanda həm xoşbəxt olur, həm də bədbəxt. Bu yozum sizə bəlkə də qəribə gələ bilər. Axı, eyni anda həm xoşbəxt, həm də bədbəxt olmaq nə qədər mümkündür - deyib təəccüb edərsiz. Amma bu təəccübdə tələsməyin. Xatırlayın ki, bütün bu hallar- duyğular, hisslər insana aiddir və əgər özünü axtarışa çıxan insan nəhayət ki, məqsədinə çatsa, o xoşbəxtliyini yaşamaq istəyəcək. Amma həmin an həm də özünü görüb içindən bir təəssüf hissi keçirəcək. Axı o özünü belə görmək və yaxud belə olduğunu qəbul etmək istəməyəcək. Çünki onun içindəki Özü xəyalının, arzularının Özüdü!.. Nə isə...**

Bəli, bax bu xoşbəxtliklə bədbəxtliyin arasında qalan insanın bircə yolu qalır. O da özündən qaçmaq, qurtarmaq. Təəssüf ki, bu qaçışın məsafəsi çox da uzaq deyil. Bu yol xoşbəxtlikdən bədbəxtliyə olan yol qədərdi. Bu bir andı, bu bir ahdı, bu bir...

Bəli, bu məqamda niyə qaçdığını, nədən qaçdığını, kimdən qaçdığını düşünmək fürsəti qazana bilsəm, suallar yağış kimi töküləcək üstünə. Və onda çətir də axtarmayacaqsan, daldasında gizlənməyə ağac da, qaya da aramayacaq gözün.

Bircə ağlından o gəlib keçəcək. İstəyəcəksən ki, pencəyini çıxarıb atsın çiyninə... istəyəcəksən ki, onunla bir pencəyin altında daldalanıb nəfəs-nəfəsə qalasan və bir də istəyəcəksən ki...

Hə, bu yazdıqlarım əslində o hisləri mənə təkrar xatırladan, təkrar yaşamağa, gözümün önünə gətirməyə məcbur edən iki şeirdi. Həmin şeirləri oxuyanda mən özümdən hara qaçacağımı, necə və niyə qaçacağımı, nədən qaçacağımı yüz dəfələrlə sual şəklində özümə ünvanlamışam. Təəssüf ki, hər dəfə də eyni nöqtədə gəlib dayanmışam. O nöqtənin adı özündən qaçışı olsa da, həm də özünə qayıdışdı. Axı:

***Bir gün yıxılarsan ürəyin üstə,***
***acı etirafdan "sevmirəm səni".***
***o gündən taparsan dərdi, kədəri,***
***canından çıxmayan qəmi-qüssəni.***
***Və***
***Anlarsan***
***Sevmək də dəhşətmiş, sevilməmək də.***

***Sınıb dağılarsan qaranlıqlara,***
***hər qırıq qəlbində min yara açar,***




***inamın yıxılar, güvənin itər,***
***hər gün söhbətlərin min yana qaçar.***
***Və***
***Anlarsan***
***Unudulmaq dəhşətmiş, unutmamaq da.***

***Özünü aldadıb inandırmağa***
***tapıb yapışarsan saman çöpündən,***
***ömrün uzadarsan xəyallarının,***
***çıxmaq istəməzsən yalan gölündən***
***Və***
***Anlarsan***
***Getmək də dəhşətmiş, gedəmməmək də.***

***Uduzmaq ağırmış, həzm etmək çətin,***
***ölmək istəyərsən dəyərin üçün,***
***bir gün inanarsan demə dəyməzmiş,***
***səni düşünməyən "gərəyin" üçün.***
***Və***
***Anlarsan***
***Ölmək də dəhşətmiş, öləmməmək də...***

Oxuduqca hər misradan sonra bir anlıq dayandım və o misranın yükünü ifadə etdiyi, çatdırmağa yönəlik məqamları tutmağa çalışıram. İstəyirəm ki, şeirdə deyildiyi kimi, üzü üstə yox, ürəyi üstə yıxılıb həmin o acı etirafı səndən eşidim. Burda "acı" sözü mənə yox, sənin edəcəyin etirafa aiddi. Çünki sən özünə acıya çevirmisən məni. Ona görə də o acını atmaq, unutmaq istəyirsən. Amma bilmirsən ki, mən - yəni mənim sevgim sənin canına, qanına hopub.

Onu çıxarmaq qeyri-mümkündür və qeyri-mümkün olanı anlamaq da hər adamın işi deyil. Bunun üçün sevməyin də, sevilməyin də, sevməməyin də dəhşət olduğunu qəbul etmək lazımdır.

Üstəlik unutmağın da, unudulmağın da mahiyyətinə varmaq, onu yaşamaq lazımdı. Və bütövlükdə isə kimlərinsə dilinin əzbəri olan, hətta aşıq Alının dediyi kimi, "Ölüm haqdır, çıxmaq olmaz əmirdən" inancına da söykənib "ölüb qurtarmaq" münkün deyil! . Ölüm də sənin əlində mənim üçün sevgidi. Ondan ölməmək dəhşətdir. Bax, bu dəhşəti yaşamamaq üçün sevgidən qorxmaq yox, sevgini anlamaq lazımdır.

Elə ki, anladın, onda hiss edəcəksən ki, ürəyinin döyüntüsü də dəyişib, ətrafa baxışın da dəyişib, özünə, sözünə diqqətin də dəyişib.

O dəyişikliyin içərisində özünün öncədən bilmədiyin özəlliklərin də üzə çıxıb, onlar da səni daha çox sevməyə, daha çox xəyallar qurmağa, arzular mücadiləsi etməyə kökləyib. Çünki onun kökündə sevgi - yəni Sən varsan. Amma:

***Tamarzıyam səndə qalan günlərə,***
***bir qucaqlıq, bir sinəlik ölüm, gəl.***
***Həsrət adlı xərçəng sardı canımı,***
***ağrılara, acılara gülüm, gəl.***

***Coşub yenə içimdəki qəm, daşır,***
***al əlimdən bu kədəri sən daşı.***
***Yüküm ağır, yolum çətin, mən naşı,***
***gəl tufanım, gəl yağışım, selim, gəl.***

***Sən gedəli lal olmuşam, susuram,***
***xoş günlərim parça-parça, qusuram.***
***Acılardan sınıq-sökük hasaram,***
***gəl dodağım, gəl ağzımda dilim, gəl.***

***Əcəl gəldi qapım döydü dünən də,***
***"gəl al" dedim həm cismimi, mənən də.***
***İtirmişəm vətənimi sinəndə,***
***yurdum-yuvam, kənd-kəsəyim, elim, gəl.***

Görürsünüzmü, daha doğrusu, hiss edirsinizmi, əvvəldə vurğuladığım ölümün sənin əlinlə olması nə qədər gərəklidi, nə qədər zərurətdi və onu arzulamaq, onu çağırmaq nə qədər səmimidir. Yəni burda söhbət şair sözündən getmir. Burda heç poeziyanın, ədəbiyyatın pafosundan da danışmaq doğru deyil.

Burda danışılası, deyiləsi, yazılası bir gerçəklik var. O da SEVGİdir. Ona olan ehtiyacdır, ona olan sərhədsiz tələbatdır və nəhayət onun qarşılığı olan sənsiz yaşamamaq qərarıdı - yəni sevgisiz yaşamamaq haqqında verilən hökmdü...

Düşünürəm ki, bu iki şeirin mayası olan sevgi - (yəni Sən - Ə. M.) elə bütün duyğuların, bütün hislərin simvoludu, özündə təcəssüm etdirənidi və mən də pərvanəsi olduğum sevginin simvolu qarşısında dayanıb ... susuram. Təəssüf ki, əlimdə iki boynu bükük qərənfil yoxdu. Amma kipriklərimin ucunda şeh var...

***P.S.** Bu şeirlər "Adsız" kitabındandı. Mən bu kitab barəsində bir dəfə atüstü fikirlərimi yazmışdım. Amma indi iki şeir məni yenidən bu kitaba çəkib gətirdi. Təkrar oxuduğum kitabın müəllifi isə dəyərli xanım yazarımız Aida Adıgözəldi*

**Əbülfət Mədətoğlu**




# BAYAT

№ 38 (898)




# Yupyumru bir eşq ilə



*Vaqif Bayatlı Odər*

Səni niyə belə sevdim,
belə istədim niyə,
canımdakı min tikana,
bir gülə istədim niyə?!

Eşqdə gizlətdim bu canı
görəmməyən varmı, hanı?!
həm gizlətdim, həm də hamı
bilə istədim niyə?

Min illərçün də Allahdan
Gecə-gündüz, hər an, hər an
səni özümə həm sultan,
həm də, həm də
kölə istədim niyə?!

## Yupyumru eşq ilə

Sevir kimsə kimsəni,
Bir kimsənin üstünə
gəl, mən də sevim səni
yupyumuru,yepyeni bir eşq ilə
yenə sənin üstünə.

Gör, sevgi üstə sevgimi
eşq eşqdən baş alan kimi,
eşq eşqi daşıran kimi,
Allah da aşıran kimi
hər ləçəyi ləçəyin,
gülü gülün üstünə,
göyü göyün, ayı ayın,
günü günün üstünə.

Gör, quş quşa şığıyantək,
gül gülə sığınantək,
son nəğmə oxunantək
ilk nəğmənin üstünə.

Gör, ikiqat sevgidən,
ikiqat eşqdən bu naşı da dəm,
gözünün yaşı da dəm,
ha içər yenə də kəm
qəmi dəmin üstünə,
dəmi qəmin üstünə.

## Səni sevmək istəyirəm

Dünyanın ən güclü adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
İstəmirəm bir kimsə
mənimlə qorxuda bir kimsəni.

Dünyanın ən varlı adamı
ola da bilmərəm,
olmaq da istəmirəm.
Mənə ən böyük dünya varı
qapı,pəncərəsi açıq
üzü-gözü gülən bir alaçıq!

Mən səni, mən səni
Dünyada hamıdan çox
sevə də bilmərəm,
sevmək də istəmirəm,
çünki ancaq yalandan sevənlər
hamıdan çox sevirlər.

Mən səni sakitcə, yavaşca
sevmək istəyirəm.
Sevmək istəyirəm
Tanrıdan yazılantək,
Bir balaca quş
Öz balaca yuvasının
küncünə qısılantək

***

Səni sevən ölüm kimi,
Səni candan ata bilməz.
Səni sevən vətən bilməz,
Ana bilməz, ata bilməz.

Səni sevmək təhlükəli,
Səni sevib, sevib təkcə,
Yaşamaq da mümkün deyil,
Səni sevib ölmədikcə.

Bəlkə bir gün, bəlkə min il,
Sevgiyə azadlıq gərək.
Heç Allah da azad deyil,
Sən azad olduğuntək.

İnsan sevməz min illərcə,
İnsan bu gün, sabah sevər.
Sən istəyən, sən səvəntək,
Bəlkə, ancaq Allah sevər.

***

Qara qız ol, qara torpaq,
ol dəlin olum sənin.
Gir qoynuma, tək məni sev,
Son sevgilin olum sənin.

Gir qoynuma, dol canıma,
Tapmasın heç bir ölkə,
Heç bir ölüm, din səni.
Gecə-gündüz öpə-öpə,
Sən cücərdən güldən gözəl,
Canımdan cücərdim səni,

Bir də tökülmə gözümə,
Tökülmə üstümə bir də,
Qara qız ol, qara torpaq,
Qara qız ol,
Elə sevim ki, səni,
Heç kimi istəmə bir də.

***

Sevdim Allaha bənzədim,
Öldüm, sevgimi bəzədim,
Mən səni min il gözlədim,
Sevdim keçdim təzə minə.

Kim sevmirsə, demək gülmür,
Sevib gül olmayıb hələ,
Bəlkə Allah görmür onu,
Bəlkə doğulmayıb hələ.

Ancaq eşqdən bir dünyayçün
Ölümü də sevib ötdüm,
Ölümüm də döndü gülə,
Hər iki dünya! Mən getdim
Xoşca qalın! Gülə-gülə!

***

Bu dünyada sirr axtarma,
bu dünyanın sirri yoxmuş.
Yaşamağa yer axtarma,
ölməyə də yeri yoxmuş.

Sevişməyə bir dəli yox,
asılmağa bir teli yox,
Yürüməyə irəli yox,
qayıtmağa geri yoxmuş.

Önər belə dərdə dönmüş,
dərd də yoxdu, dərdi dönmüş.
gördüm Allah burda imiş,
döndü üzü bəri, yoxmuş.

***

Xan ceyranın qaçışında,
Ən şahanə uçuşunda,
Ya alnında,ya döşündə,
Bir ox yeri var,yeri var.

Düşməzsən şahlıq atından,
Göyün yeddinci qatından,
Hər bəyaz telin altında,
Bir ah yeri var,yeri var.

Ən kimsəsiz küçə sənin,
Küçə sənin,gecə mənim,
Sən bağlayan pəncərənin ,
Bir dön bəri bax yeri var.

## Unutdular məni, unutdular...

könül bağladığım adamlar,
sirr verib
sirrini saxladığım adamlar,
yanlarında ağladığım adamlar,
dünya gələ, gedə
çıxmaz yadımdan.
əlim əllərindən çəkilməmiş,
yıxıq könüllər tikilməmiş
qonur gözlərimə
qara torpaqlar tökülməmiş
unutdular, məni unutdular...
görünmədim gözlərinə,
görünmədim gözlərinə
göz görmədi
könül unutdu...
görünmərəm gözüm dörddü,
bu dünyada yaman dərddi
görünməzsən, unudarlar.
düşünürəm öz dalımca,
gözüm dolur.
hamı səni unudanda
bu yalanlı dünyada
ölümlər gerçək olur...

## Mən zalım adamam, kamança

Qardaşım ağaclar, bacım çiçəklər,
bir də söz tutdu sizi,
söz tutdu, sevda qurutdu,
üz tutub yüyürməyin mənə sarı,
bağlanıb gözümün
yaş qapaqları.

Dünyanın bəla qapıları
qala qapıları, daş qapıları,
yetim qapıları, boş qapıları
bağlanıb könlümə, bağlanıb
bağlanıb gözümün yaş qapaqları
Mən söz bəlasıyam,
zalım tifili.

Sürüşüb alnımdan tanrının əli
daha sən də
sən də ağladammazsan məni
mən zalım adamam, kamança.

## Bir qızın telləri əsdi üzümə

Gizlicə-gizlicə gəldi buludlar,
Gizlicə-gizlicə döndü ümidlər,
İndiki buludlar beləcə gəlmir,
İndiki yağışlar beləcə yağmır.
İllərin o başından
bir qız yaylığı üstdə
bir ipək xatirə döndü qəlbimə,
bir qızın telləri əsdi üzümə.

Gülüm yağış! Çiçəyim yağış!
O ipək illərdən,
atlaz günlərdən,
Gilənar göylərdən dolan yağışım,
yollarda yorulub
gözümdə, könlümdə qalan yağışım,
bir çinar üstündə
qoyub gəlmişdim səni,
çinarın altında bir gilənar qız.
İndiki yağışlar beləcə yağmır...
Bu gilənar yağış
mənim qəsdimə yağır,
O dost çinarın üstündən yağır,
On ildən, beş ildən, dünəndən yağır,
bütün sevgilərin
dönən yerindən yağır.
Bəlkə də, bəlkə də lal məhəbbətlərin
dinən yerindən yağır.

İllərin altında solmaz o tellər,
Hər bulud lələyi ümidlə gələr,
O barlı illərin sevgisi qızlar
Bir də gilə-gilə qızardı bəlkə...

## Sevgidən dəli olmağa bu dünyada eşq azımış

Ay ürək, ay baş, ay bədən,
əl çəkin, əl çəkin, məndən,
ancaq canım açanda,
canım uçanda bilirəm

siz varsınız,
bu göy, göyüzü deyilən
qəfəs sizdən yaxşıdı,
siz göydən də,
göyüzündən də darsınız.

Ancaq bu can açanda,
bu can uçanda bilirəm
nə qış qış, nə də yaz yazmış,
sevgidən dəli olmağa
bu dünyada
eşq də, dəlilik də azımış.

Çıxıb gedirəm, gedirəm,
Bu göyüzünün altında
Sevmədiyim bir tikan,
Bir gül qoymaya-qoymaya,
gedirəm, gedirəm,
daha eşqli bir dünyaya,
bu dünyada eşq tikanından da,
gülündən də doymaya-doymaya.

## Bir də kimsəni sevməyəcəyəm

Bir də kimsəni sevməyəcəyəm
Bu gecə nədəndir hamıdan qabaq
ağrıyan, qəlbimə yanıram dostlar,
Bir də sevda nədi, bilməyəcəyəm,
Bir də bir kimsəni sevməyəcəyəm.

Bir də bu dünyada eşqdən yazmağa,
Gecələr azmağa daha halım yox.
Bu xan oğlanlara, xanım qızlara
Qara sevda nədi, bir sualım yox.

Getdi gözlərimdən bir dəvə kini,
Getdi qollarımdan küçə davası.
Bahar ağaclardan çəkilən kimi.
Çəkildi başımdan gənclik havası.

Könlüm dəliliyi unutdu çoxdan,
Axır ki, ağlımın səsinə uydum.
Qonur gözlərimdə yorğunluq - haqdan,
doydum küçələrdən, yollardan doydum.

Bir də sevda nədi, bilməyəcəyəm,
Bir də kimsəni sevməyəcəyəm.

***

Bir ocaq başında yarıyuxulu
Analar qısılıb böyür-böyürə,
Qalıb balalara dünyanın çoxu.
Hərənin sözündən bir şey qanılar
Biri balasını tərifləyəndə -
Yana baxa-baxa susub qalanlar
Ağlayar üzünün bir tərəfində,

Göydən dillənən yox, göydən baxan yox,
Taleyin sonunda donub gözləri
Başını qaldırıb göyə baxan yox,
Böyük Göyüzündən küsüb üzləri.

Allahdan, bəndədən qaçıb gizlicə
Ağlayar analar hey için-için.
Ağlamaqdan asan dünyada nə var
Ağ telli, ağ üzlü analar üçün?!

...Nəyə lazımıdı bu boyda dünya
Çoxda ki, ocaqlar his eləyirdi?
Fağır analara, gül balalara
Bu ocaq yanı da bəs eləyirdi...

## Qəribik, şairim, qəribik, sözüm

Şairlər qəribdi bu yer üzündə
Küçədə, bayırda, evdə, eşikdə,
Meşənin içində, çölün düzündə
Oğul, qız yanında, ata yanında.
Qəribik, şairim, qəribik, sözüm,
min illər sonra da ayrılıq yenə,
qəmli axşamlartək enər göylərdən
şairin qəbrinə, sözün qəlbinə.

Qəribik, şairim, qəribik, sözüm,
qəriblik əksilmir gözlərimizdən,
dünya doğma gəlmir gözlərimizə,
qəmi yığmaq olmur sözlərimizdən.

Keçib gəldiyi
Göyüzü kimidi şairin üzü -
işığı saralar, buludu keçərg
Hər gün könlümüzdən, ürəyimizdən
göyüzünə dönmək umudu keçər.

## Sevgi sevgiylə, dərd dərdlə unudulur

Unudulacaq bütün sevdalar,
Unudulacaq bütün nəğmələr,
Unudulacaq unudulmaz hər nə var,
Ancaq təkcə mən səni
yenidən sevməkçün hər bahar
yenidən unudacağam.

Ən gözəl xatirə də
ən acı göz yaşıtək udulur,
udulur, unudulur,
yurd yurdla,
sevgi sevgiylə, dərd dərdlə,
insan insanla,
İsa Məhəmmədlə unudulur

Həddən çox şey bilirik bu dünyada.
Boş şeydi! Unudulacaq hamısı!
Unutduqlarımız yenidən, yeni başdan
sudan, torpaqdan, dağdan, daşdan
çıxırmıştək görünəcək bizə hər dönədə,
ən solğun çiçəklər
ən işıqlı ulduzları sevəcək yenə də.

Çiçək gözlüm, nəğmələr oxumaqla bitir,
oynamaqla bitmir elə bil,
gəl, bu nəğmə çatmamış sona
bu sonsuz dünyanın sonunacan
oynayaq bu nəğmənin havasına.

# Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 10 (2433) 14 mart 2025-ci il



# DÜNYAYA AÇILAN PƏNCƏRƏ



**Bu gün dünyada o ölkələrin nüfuzu var ki, onlar iqtisadi cəhətdən çox güclüdürlər. Başqa sözlə demiş olsaq, iqtisadi cəhətdən güclü olan bu ölkələr bir çox halda nə beynəlxalq hüququ, nə də beynəlxalq təşkilatları saya salır. Başqa sözlə demiş olsaq, kim güclüdürsə, başqa ölkələrə öz siyasətini diqtə edir. Və başqa ölkələr də həmin siyasəti qəbul etməyəndə ya ona qarşı müharibə aparır, ya da iqtisadi sanksiya tətbiq edir. Amma Azərbaycan həmin ölkələrdən tamamilə fərqlənir. Ən azından ona görə ki, dünya iqtisadiyyatına inteqrasiya olunan ölkəmiz beynəlxalq hüquqa və demokratik prinsiplərə hörmətlə yanaşır.**

İlk növbədə ölkəmizin dünya iqtisadiyyatına inteqrasiya olunması üçün çox böyük iqtisadi əlaqələr qurulmalı idi. Heç şübhəsiz ki, Azərbaycan müstəqillik yolunu qədəm qoyandan sonra bu çıxış yolunu tapdı və özünün müstəqil iqtisadi xəttini müəyyənləşdirdi. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra iqtisadi cəhətdən Azərbaycan daha düzgün yol seçdi və eyni zamanda dünya iqtisadiyyatına zaman-zaman inteqrasiya olunmağa başladı. Bunun üçün Böyük Öndər Heydər Əliyev çox əziyyət çəkdi. Bir tərəfdən ölkəmizin iyirmi faiz torpağının işğal olunması, bir tərəfdən də bir milyondan çox qaçqın və köçkünü məskünlaşdırmaq və buna paralel olaraq zəngin iqtisadiyyat qurmaq elə də asan məsələ deyildi. Amma bütün bu çətinlikləri Heydər Əliyev öncədən görür və ağır yükün altına çiyin verirdi. Böyük siyasətçi yaxşı bilirdi ki ərazimizin iyirmi faizinin işğal olunması həm də iqtisadiyyatımızın məhv olunması demək idi. Lakin bu çətinliklərə baxmayaraq, Heydər Əliyev çıxış yolu tapdı və Azərbaycanın həm siyasi, həm də iqtisadi dirçəlişini əldə etməyi bacardı. İlk növbədə böyük layihələrin həyata keçirilməsinə start verildi. Bu mənada "Əsrin müqaviləsi" neft kontraktının bağlanması o demək idi ki, Azərbaycan öz sərvətinə sahib çıxır, lakin bunu dünyanın məşhur ölkələrinin şirkətləri ilə birlikdə gerçəkləşdirmək istəyirdi, çünki neft sənayesinin inkişafına və eləcə də, qaz təsərrüfatının tərəqqisinə müasir yeni texnologiyalar və texnikalar cəlb edilməli idi. Bu da təbii ki, İngiltərə kimi böyük bir ölkənin köməkliyi ilə həyata keçirilə bilərdi. Beləliklə, İngiltərənin "BP" şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" illər keçdikcə öz bəhrəsini verməyə başladı. Təbii ki, hər hansı xarici dövlət və şirkət digər ölkəyə sərmayə qoyanda öncədən qoyduğu sərmayə ilə yanaşı, qazanacağı vəsaiti də gündəmə gətirir. Bu mənada "Əsrin müqaviləsi"-nin effektli olması dünyaya göstərdi ki, doğurdan da Azərbaycana sərmayə qoyan hər hansı ölkə müəyyən müddətdən sonra maya dəyərini əldə edir və üstəlik qazanc da qazanmağı bacarır.

Azərbaycanın günbəgün sürətlə inkişaf edən iqtisadiyyatı heç şübhəsiz Avropanın digər ölkələrinin də diqqətindən kənarda qalmadı. İlk növbədə qardaş Türkiyə, Rusiya Azərbaycanda çox böyük iqtisadi layihələrin həyata keçirməsinə qoşuldu. Aydındır ki, bu iki ölkənin böyük layihələrə qoşulması və təkan verməsi iqtisadiyyatımızın daha da sürətli inkişafına böyük köməklik göstərdi. Heç şübhəsiz, ölkəmizin iqtisadi sahədə qazandığı uğurlar heç də bütün ölkələr tərəfindən sevinclə qarşılanmırdı. Bu ilk növbədə bizim iki qonşunu - (əgər onlara qonşu demək mümkünsə) İranı və Ermənistanı daha çox narhat edirdi. Axı Azərbaycan iqtisadi cəhətdən güclənir, möhkəmlənir, müdafiə sənayesini yenidən qurur və daha bir qüdrətli dövlətə çevrilirdi. Nə Ermənistan, nə də İran güclü iqtisadiyyatı olan Azərbaycanı heç cürə istəməzdi. Belə ki, işğal altında olan Azərbaycan torpaqlarını və onun sərvətlərini hər iki dövlət çalb-çapıb talayır, flora və faunasını məhv edirdilər.

Azərbaycanın iqtisadi cəhətdən sürətli inkişafı, bayaq dediyimiz kimi, Avropa ölkələrinin diqqət mərkəzində idi. Qısa zaman kəsiyində: İtaliya, Macarıstan, Bolqarıstan və eləcə də digər ölkələr Azərbaycanla iqtisadi əlaqələr qurdular, çünki Azərbaycandan Avropaya həm neft ötürülürdü, həm də mavi yanacaq. Bütün bunlar isə avropalıları bu və ya digər dərəcədə sevindirirdi. Elə məhz buna görə də, onlar Azərbaycanda çox böyük iqtisadi layihələrə sərmayə qoydular. Bu layihələr neft sənayesindən tutmuş, iqtisadiyyatın digər sahələrini əhatə etdi. Üstəlik də Qərbin ən böyük marağı ondan ibarət idi ki, hər hansı ölkədə sabitlik yaransın və təbii ki onlarda sabitlik yaranan ölkələrə sərmayə qoymaqda daha çox maraqlı idi. Maraqla yanaşı, Avropa ölkələrini konkret nəticələr düşündürürdü. Bu nəticələri əldə etdikdən sonra, adlarını çəkdiyimiz Avropa dövlətlərinin Azərbaycana olan marağı daha da artdı. Onlar gördülər ki, Azərbaycan inanılmaz bir sürətlə dünya iqtisadiyyatına inteqrasiya olunur və onların qoyduqları sərmayə qısa zaman kəsiyində bəhrəsini verir. Bu ölkələrin də Azərbaycana marağı daha da artdı.

Ölkəmizin bayaq dediyimiz kimi, sürətli inkişafı və tərəqqisi göz qabağında idi. Prezident İlham Əliyev hakimiyyətə gələndən sonra demək olar ki bizim iqtisadiyyatımız daha da gücləndi, bir çox yeni sahələrdə uğurlar əldə edirdi, başqa sözlə demiş olsaq, ölkəmizə, hətta super dövlətlərin maraqları artdı. Koreyanın, Çinin və eləcə də digər ölkələrin şirkətləri istər-istəməz Azərbaycanla iqtisadi əlaqələr yaratmağa doğru addımlar atdılar. Onlar Azərbaycanda bir çox fabrik və zavodların açılışını etdilər. Bununla yanaşı, Avropanın digər şirkətləri də durmadan böyük layihələrə qoşulmaqda marqlı oldular, xüsusən də İtaliyanın onlarla şirkəti Azərbaycan iqtisadiyyatına böyük sərmayələr yatırdılar. Qardaş Türkiyə isə iqtisadiyyatın bütün sahələrində mövcud layihələrə qoşuldu və bununla da sübut etdi ki, Azərbaycan dünyaya tək deyil, onun arxasında Türkiyə kimi qüdrətli bir dövlət dayanıb. Bu gün Azərbaycan nəinki neft sənaye sahəsində, birmanalı olaraq deyə bilərik ki, turizm və kənd təsərrüfatı sahələrində də böyük uğurlara imza atıb, yəni ölkəmizin sürətli inkişafı göz qabağındadır.

Azərbaycanın 2020-ci ilin sentyabr ayınıln 27-dən noyabr ayının 10-dək 44 günlük İkinci Qarabağ savaşı ölkəmizin dünyada nüfuzunu daha da yüksəltdi. Belə ki, Azərbaycan bu 44 günlük savaşda özünün ərazi bütövlüyünü təmin etdi. Üstəlik də, 2023-cü il sentyabr ayının 19-u və 20-də antiterror əməliyyatı zamanı erməni separatçılarının nəzarəti altında olan Xankəndi, Xocavənd, Xocalı, Əskəran, Ağdərə və digər yaşayış sahələrimiz onlardan tamamilə təmizləndi və Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Başqa sözlə demiş olsaq, işğaldan azad olunmuş, adlarını qeyd etdiyimiz o şəhər və rayonlarda Prezident İlham Əliyev Azərbaycan bayrağını ucaltdı və dünyaya sübut etdi ki Qarabağ Azərbaycanın tərkib hissəsidir və Qarabağ Azərbaycandır!

Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə iqtisadi cəhətdən güclənən ölkəmiz hərbi sahəni yüksək sürətlə inkişaf etdirdi, səhiyyə, təhsil, mədəniyyət sahəsində böyük uğurlar əldə etdi. Çünki ölkəmizin xarici ölkələrlə birgə qoyduğu investisiyalar və beynəlxalq müqavilələr öz bəhrəsini verməyə başladı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə isə sabit olan ölkəmizə maraq daha da artdı və yeni-yeni beynəlxalq layihələr gerçəkləşdirilməyə başlanıldı. Avropanın və dünyanın inkişaf etmiş ölkələri bizimlə iqtisadi, ticari əlaqələri daha da gücləndirdi və Azərbaycanın iqtisadi qüdrəti dünyada bir qədər də artdı, möhkəmləndi.

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# İLK ŞUŞALI SSRİ İDMAN USTASI

(əvvəli qəzetin ötən sayında)

**1964-cü ildə Estoniyanın paytaxtı Tallin şəhərində keçirilən bədən Tərbiyəsi İnstitutlarının birinciliyində iştirak etmişəm. Mən, həm sərbəst, həm də klassik, yəni Yunan-Roma güləşi ilə, həm də sambo güləşi ilə məşğul olurdum. Sərbəst güləş ilə"Neftçi" cəmiyyətində məşqçi 4 dəfə SSRİ çempionu Musa Babayevin yanında məşq edirdim. Mən bir sıra yarışlarda məşq edib, idman ustası normasını ödəmişdim. Lakin Musa müəllim nədənsə mənim sənədlərimi almırdı. Ona deyəndə ki, Musa müəllim mənim sənədlərimi idman komitəsinə təqdim edin, o, mənə deyirdi ki, hələ cavan oğlansan, tələsmə, güləşmək lazımdır.**

Bir gün güləş dərsinə getmişdim. Dərsdə Azərbaycan Pedaqoji İnstitutunun tələbələri, yeni güləşçiləri, məşqçi Göyüş Məmmədovun rəhbərliyi ilə yoldaşlıq görüşünə gəlmişdilər. Mən 62 kq çəki dərəcəsində Respublikada tanınmış güləşçi Telman Əliyevlə güləşdim. Telman çox gözəl texnikaya malik güləşçi idi. O, fəndləri çox gözəl yerinə yetirirdi. Biz 5 dəqiqə qollarla, bədənlə işlədik, heç birimiz bir xal belə, qazana bilmədik. Birdən Telman mənim bir qolumu və gövdəmi dərindən tutdu və "Suples" (yəni güləşçini sinəsi üstünə qaldırıb başı üzərindən arxaya atmaq) etdi. Mən də öz növbəmdə onun bir qolunu və gövdəsini tutmuşdum. Lakin o, dərin tutduğu üçün fəndi birinci işlətdi. Mən özümü itirmədim, başımız döşəyə çatanda mən birinci başımı döşəyə istinad edib, Telmanı arxası üstə çevirdim. Bu anda bütün zal əl çaldı. Bizim məşqçimiz erməni millətindən olan Lyova Akopov idi. O, uzaqdan qışqırdı: "molodçik Babayev", Göyüş Məmmədov isə Telmana hey deyinirdi. Sonra Akopov mənə dedi ki, bilirsən sən nə fənd işlətdin? " O fəndi Dünya birinciliyində işlədirlər", deyib, məni özünə tərəf sıxdı. O gündən mən onun yadında qaldım və mənə dedi ki, gəl məşq elə, bir ildən sonra idman ustası olacaqsan. Mən də onun yanında məşqlərə başladım.

Həmin il mən çox gözəl formada idim, bir-birinin ardınca 4-5 yarışda iştirak etdim. Zaqatalada Respublika birinciliyində 25-yaşa kimi gənclər arasında 6 qələbə ilə 3-cü yeri,Bakıda "Lokomotiv" Cəmiyyətinin Mərkəzi Şurasının açıq birinciliyində 5 qələbə ilə 2-ci yeri, yenə də həmin il "Neftçi" Cəmiyyətinin birinciliyində 5 qələbə ilə 2-ci yeri, Stepanakert şəhərində kişilər arasında Respublika birinciliyində 4 qələbə ilə 4-cü yeri tutdum. Axırıncı dəfə Estoniyanın paytaxtı Tallin şəhərində tələbə oyunlarında iştirak etdim və bir daha "İdman ustası" normasını yerinə yetirdim.

Bütün bu yarışlardan sonra Lyova Akopov mənim sənədlərimi yığıb, İdman komitəsinə verdi. Mən Respublika yoxlama komissiyasından keçdim və sənədlərimi Moskva şəhərinə təsdiqə göndərdilər. Həmin il institu bitirib doğma Şuşaya təyinat aldım. Sentyabr ayında "Azərbaycan Bədən Tərbiyəçisi" qəzetində mənim SSRİ İdman ustası adı almağım haqqında yazı var idi. Məni sevən dostlar, tanışlar təbrik etdilər. Hamıdan çox sevinən məni ilk dəfə döşək üzərinə çıxaran məşqçi İsmayılov İsmayıl oldu. Mə İsmayıl müəllimə öz minnətdarlığımı bildirdim. Onun mənə verdiyini güləşin sirlərini heç kim verməyib, onun qarşısında həmişə borcluyam və ömrüm boyu ona minnətdaram.

Onu da sizə deyim ki, mən imkan daxilində İsmayıl müəllimin qulluğunda olmuşam. Dünyasını dəyişdikdən sonra da hər il Şuşaya gedəndə onun məzarını ziyarət edir, "yasin" oxutdururdum. Allah ona qəni-qəni rəhmət eləsin, torpağı nurla dolsun!

Şuşada 3 ay işlədim Mənə 3 nömrəli orta internat məktəbində iş verdilər. Sonra noyabr ayının 23-də ordu sıralarına əsgəri xidmətə çağırıldım.



Mən Belarusiyanın Vitebski şəhərində xidmət etdim. O vaxt qohumlar çox çalışdılar ki, məni əsgərlikdən saxlasınlar. Lakin münkün olmadı. Burda mənim bəxtim gətirdi. Müdafiə Nazirliyinin əmri çıxdı ki, institutu bitirənlər 1 il əsgəri xidməti çəkməlidirlər. Mən də 1 il xidmət edib, aprel ayının axırında evə gəldim. Xidmət etdiyim orduda əsgərlərin yanında böyük hörmətim var idi. Boş vaxtlarımızda bir-birimizlə güləşirdik. Həmişə də qalib gəlirdim. Bir dəfə bir pezəvəng erməni mənimlə güləşməli oldu. O, özünü sambo güləşçisi kimi qələmə vermişdi. Güləşərkən mənə yavaşca erməni dilində dedi ki, məni yıxma, əsgərlərin yanında pərt olaram. Kənardan baxan əsgərlər hiss etdilər ki, mən güləşə girişmirəm. Elə vəziyyət yaratdım ki, istəsəm onu yıxardım, amma yıxmadım. Bu zaman serjant Stelmak Kostya görüşü saxlayıb, heç-heçə elan etdi. Əsgərlik müddəti çox maraqlı və mənalı idi. Bir ildə adam çox şey öyrənir və çox şeyin şahidi olur.

Bir dəfə mənə bağlama gəlmişdi. Mən bağlamanın içindəki şeyləri stolun üstünə tökdüm və dedim ki, yeyin. Onda serjant mənə dedi ki, yerlilərini gözlə, onlar da gəlsin onda aç. Mən ona cavab verdim ki, burda "hamı mənim üçün birdir". Bu söz bütün hərbi hissəyə gedib çatmışdı. Ona görə də, hamı mənimlə çox mehriban idi

Hərbi xidməti başa vurub, Şuşaya qayıtdım. Şuşada qeydiyyatdan çıxıb, iş yerindən əmək kitabçasını götürüb getdim atamın yanına - Ulan-Udeyə, Ulan-Ude şəhərində Texnologiya İnstitutunun bədən tərbiyəsi kafedrasına assistent-müəllim təyin edildim. Eyni zamanda "Spartak" Cəmiyyətində güləş üzrə məşqçi-müəllim kimi fəaliyyət göstərdim. Artıq şəhərin idman adamları məni tanıyırdı. Mən çox gözəl məzmunlu məşqlər keçirirdim. Hətta, "Buryatskaya pravda" qəzetinin müxbiri mənim məşqlərimdə iştirak edib, qəzetdə işıqlandırmışdı.

Bir neçə aydan sonra baş hakim kimi Buryatiya Respublikasının sərbəst və klassik güləş üzrə birinciliyini keçirdim. Onu da deyim ki, yarışları yüksək səviyyədə təşkil etdim və keçirtdim. İdman komitəsinin sədri yarışın yekununda dedi ki, bu vaxta qədər burada belə yüksək səviyyədə yarışlar keçirilməyib. Buna görə də, mənə təşəkkür elan etdi və iki qat əməkhaqqı verdi. Elə bu yarış keçirmə təcrübəsi də İsmayıl müəllimin əməyi hesabına olmuşdur. Ümumiyyətlə, qısa bir vaxt ərzində mənim fəaliyyətim idman aləmində və yuxarı təşkilatlarda səslənirdi. Ulan-Udenin iqlim şəraiti, mənzərələri və eyni zamanda xalqı çox xoşuma gəlirdi. Lakin orada qalıb işləmək mənə qismət olmadı.

Yayda Baykal gölü ətrafında institut tələbələri üçün "İdman düşərgə"si yaradılmışdı. Mən də bir məşqçi-müəllim kimi güləşçilərin üstündə düşərgəyə getmişdim. Orada idmançılarla fiziki hazırlıq işləri aparırdıq. Bir sıra idman növləri ilə məşğul olurduq. O cümlədən, hər gün Baykalda üzgüçülük, avar çəkmə ilə də məşqlərimizi davam etdirirdik. Mən də idmançılarla bərabər, bütün hərəkətləri yerinə yetirirdim. Cavanlıq edib, özümü qorumayıb soyuğa verdim və xəstələndim. Həkim müayinəsindən keçəndə mənə məsləhət gördülər ki, isti iqlim olan yerə gedim. Yoxsa xəstəliyim daha da şiddətlənə bilər. Mən də ilin axırında işdən çıxıb Azərbaycana qayıtdım.

Zakir Babayev Sumqayıt şəhərinə gəlir və 17 nömrəli məktəbdə bədən tərbiyəsi müəllimi və "Neftçi" cəmiyyətində məşqçi işləyir. Bir müddət Sumqayıt şəhərində işlədikdən sonra 1973-cü ildə Bakı Bədən Tərbiyəsi Texnikumunun "Bədən Tərbiyəsi və Tarixi" və "Bədən Tərbiyəsi Nəzəriyyəsi" fənn birliyinə müəllim təyin edilir. Zakir Babayev müəllim işləməklə bərabər, öz peşəsi üzərində biliyini genişləndirmək məqsədi ilə bir sıra qəzet və jurnal məqalələri, orta məktəblərdə bədən tərbiyəsi dərslərinin proqramının, bədən tərbiyəsi tarixi və bədən tərbiyəsi nəzəriyyəsi və metodikası fənnlərinin dərs proqramlarının müəllifidir.

Babayev Zakir Allahverən oğluna 28 iyul 1964-cü ildə Klassik güləş üzrə "SSRİ İdman ustası" adı verilsin. Vəsiqə 38523 SSRİ Bədən Tərbiyəsi və İdman komitəsi sədrinin birinci müavini A.Kolesnikov

30 Yanvar 1987-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Babayev Zakir Allahverən oğlunu "Əmək Veteranı" medalı ilə təltif etmişdir. SSRİ Ali Sovetinin katibi, 17 fevral 1987-ci il Bədən tərbiyəsi və idman sahəsindəki uzun müddət və qüsursuz işlədiyinə görə Zakir Allahverən oğlu Babayevə 60 illiyində "Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman işçisi" adı verilmişdir.

**20 oktyabr 2001-ci il Zakir Babayev hal-hazırda təqaüddədir. O, ömrünün 85-ci ilinə yavaş-yavaş qədəm qoyur. Sağlam və gümrahdır. Tez-tez keçmiş gənclik həyatını və keçən mənalı, mənalı günləri yada salır və doğma vətəni Şuşaya gedib gəlir. Onun üç övladı var: 1 qız, 2 oğlan. Hər üçü də ali təhsillidir. Ona uzun ömür, can sağlığı arzu edirəm!**

**Əbülqasım Novruzov,**
**Qızıl qələm" mükafatı laureatı**

## Afaq Bəşirqızı: "Xalq artisti olmaq, insan olmaq demək deyil"



**Xalq Artisti Afaq Bəşirqızı "Qapqara" proqramında açıqlaması ilə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, aktrisa qeyri-qanuni yolla fəxri adlar alanları və bu şəraiti onlara yaradanları qınayıb:

"Xalq artisti olmaq hələ insan olmaq demək deyil. Kimsə xahişlə, minnətlə fəxri ad əldə edirsə, o demək deyil ki, doğrudan da həmin kəs bu ada layiqdir. Kiminsə məclisində iştirak etməklə, xahişlə, öz adlarını hansısa sənədlərin arasında gizlin ötürməklə ad alanlara şərait yaradanlar cavab verməlidirlər. Xalqın boynuna qoyurlar ki, bu sənin artistindir. Biz bu sahədə ola- ola onları heç tanımrıq, xalq hardan tanısın" ?!

## Müğənni: "Səsim var oxuyuramsa, niyə hürüm?!"



**Müğənni Aygül Səfərova son zamanlar trendə çevrilən "hav-havhav" ifa edən həmkarlarına fikir bildirib.**

Adalet.az xəbər verir ki, o, heç vaxt belə bir mahnını ifa etməyəcəyini söyləyib:

"Nəinki hər hansı bir aparıcı, heç toy məclislərində də bunu mənə ifa etdirə bilməzlər. Bu nədir? Bu axı heç mahnı deyil! Sərt səslənsə də deyəcəm, səsim var mahnı ifa edirəmsə, niyə hürüm? Mənim şəxsiyyətim hər şeydən üstündür. Milyon versələr də oxumaram. Özümə yaraşdırmıram".

## Meyxanaçı İranda konsert verəcək



**Meyxanaçı Namiq Qaraçuxurlu izləyicilərini sevindirib.**

Adalet.az xəbər verir ki, meyxanaçının bəstələdiyi mahnısı "qızıl fond"a yerləşdirilib: "Azərbaycanlı ifaçılar arasında yalnız mənim Cənubi Azərbaycanda mahnım "qızıl fond"a yerləşdirilib. Məlumatım olduğu qədəri ilə Cənubi Azərbaycanda keçirilən bütün tədbirlərdə iştirak etmək hüququm var.Mən də rəsmi qaydada izn alandan sonra sosial şəbəkə hesabımda paylaşım etdim. Orda səhnədə çıxış etmək imkanım var deyə, həmin ölkədə konsert etməyi planlaşdırırıq".

## Bəturə Hüseynova: "Əgər belə bir fikrim olsaydı..."

**Uzun zamandır duet ortağı Sahib Hüseynovla qalmaqal yaşayan Bəturə Hüseynova bu dəfə də açıqlamasıyla diqqət çəkib.**

Adalet.az xəbər verir ki, müğənni ona duet təklif edib, sözünü tutmayan həmkarlarına səslənib: "Sahib İbrahimovdan sonra çox müğənnilər mənə duet təklif edib. Elton Hüseynəliyev, Ramal, Nadir Qafarzadə mənə söz verdilər, ancaq alınmadı.Uşaqlar, siz sözünüzün üsründə durmadınız.Onların adını ona görə çəkirəm ki, yalan danışmadığımı sübut edim. Duet oxumaqdan ötrü özümü öldürmürəm. Əgər belə bir fikrim olsaydı, başqa bir müğənni ilə duet oxuyardım. Duet mənim işim deyil, Sahibin işidir ki, onunla- bununla yolunu tapıb getsin. Elə də etdi".

Əntiqə

## Güləşçimiz medal qazandı



**Şağan İdman Kompleksində yeniyetmələr arasında güləş idman növü üzrə Bakı birinciliyi keçirilib. Yarışda Həsənov Rauf 3-cü yeri qazanıb.**

Qeyd edək ki, Bakı birinciliyində yer tutan idmançılar respublika birinciliyinə vəsiqə qazanır.

**Dövlət Xəritəçəkmə və Torpaq Komitəsi tərəfindən Azərbaycan EA Geologiya İnstitutunun "Mineral" bağçılıq birliyinin üzvü İlhamə Məmməd qızı Süleymanovanın adına 110m$^2$ sahəyə malik 31 nömrəli bağ sahəsinə verilmiş Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 221
Çapa imzalanmışdır: 13.03.2025